**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# "AZƏRBAYCAN İQTİSADİYYATININ RƏQABƏT QABİLİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ MƏSƏLƏLƏRİ "

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Məmmədov Mənaf Bəhruz**

**BAKI – 2021**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**
**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**
**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**
**__________________________ imza**
**"____" ________________ 2021-ci il**

# "AZƏRBAYCAN İQTİSADİYYATININ RƏQABƏT QABİLİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ MƏSƏLƏLƏRİ"

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı:** 060404- İqtisadiyyat

**İxtisaslaşma:** İqtisadiyyatın tənzimlənməsi

**Qrup:** 24

**Magistrant**
**Məmmədov Mənaf Bəhruz**
**______________________ imza**

**Elmi rəhbər**
**i.e.n.,dos İsayev Söhrab Zülfüqar**
**___________________imza**

**Proqram rəhbəri**
**i.ü.f.d., dos. Hümbətova Suqra İnqilab**
**_________________________ imza**

**Kafedra müdiri**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**
**_____________________imza**

**BAKI – 2021**

## Elm andı

Mən, Məmmədov Mənaf Bəhruz oğlu and içirəm ki, “Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətinin yüksəldilməsi məsələləri” mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

**AZƏRBAYCAN İQTİSADİYYATININ RƏQABƏT QABİLİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ MƏSƏLƏLƏRİ**

**XÜLASƏ**

**Tədqiqatın aktuallığı: İqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi hər bir ölkə üçün diqqət yetirilməsi gərəkən bir məsələdir. İqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi özlüyündə iqtisadiyyatın sektorial və regional baxımdan inkişafını, milli iqtisadiyyatın istər daxili, istərsə də xarici təhdid və təhlükələrdən müdafiəsinin təmin olunmasını, dayanıqlı iqtisadi inkişafı təcəssüm etdirir. Müasir dövrdə iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi məsələləri həm milli, həm də beynəlxalq səviyyədə olduqca aktualdır.**

**Tədqiqatın məqsədi: Tədqiqatın məqsədi müasir dövrdə hər bir ölkə üçün iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsinin nə qədər zəruri olduğunu göstərməkdən və Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətinin yüksəldlməsi yollarını araşdırmaqdan ibarətdir.**

**İstifadə olunmuş tədqiqat metodları: Tədqiqatın aparılmasında analiz və sintez, müqayisəli təhlil, məlumatların toplanması və toplanmış məlumatların seçilərək əlaqələndirilməsi, iqtisadi-statistik və iqtisadi təhlil metodlarından istifadə olunmuşdur.**

**Tədqiqatın informasiya bazası: İnformasiya bazası olaraq dissertasiya işi ilə bağlı yerli və xarici ədəbiyyatlardan, müxtəlif normativ sənədlər və internet resurslarından, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin və beynəlxalq təşkilatların materiallarından istifadə edilmişdir.**

**Tədqiqatın məhdudiyyətləri: “Covid-19” pandemiyası səbəbindən ölkədə yaradılmış karantin rejiminə görə dissertasiya işində istifadəsi nəzərdə tutulan internetdə olmayan ədəbiyyatlardan istifadə mümkünsüz hal almışdır.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Aparılan araşdırmalar nəticəsində iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsində mühüm rol oynayan bütün faktorların ayrı-ayrılıqda inkişafının nə dərəcədə vacib olduğu müəyyən edilmişdir.**

**Nəticələrin istafadə oluna biləcəyi sahələr: Əldə edilən nəticələrin kənd təsərrüfatı, sənaye və s. müxtəlif sahələr ilə istər dolayı, istərsə də birbaşa əlaqəsi vardır. Bundan əlavə, ali məktəblərdə dissertasiya mövzusu ilə əlaqəli fənlərin tədrisində istifadə oluna bilər.**

***Açar sözlər: iqtisadi inkişaf, rəqabətqabiliyyətlilik, dayanıqlı iqtisadiyyat***

# ISSUES OF INCREASING THE COMPETITIVENESS OF THE AZERBAIJANI ECONOMY


## SUMMARY

**Relevance of the research: Improving the competitiveness of the economy is an issue that needs to be addressed for every country. Improving the competitiveness of the economy embodies the development of the economy from a sectoral and regional point of view, ensuring the protection of the national economy from both internal and external threats and challenges, and sustainable economic development. In modern times, the issues of increasing the competitiveness of the economy are very important both at the national and international levels.**

**The purpose of the study: The purpose of the study is to show how important it is for each country to increase the competitiveness of the economy in modern times and to explore ways to increase the competitiveness of the Azerbaijani economy.**

**Research methods used: The research used methods of analysis and synthesis, comparative analysis, data collection and selection and coordination of collected data, economic-statistical and economic analysis.**

**Research database: Local and foreign literature, various normative documents and Internet resources, materials of the State Statistics Committee of the Republic of Azerbaijan and international organizations related to the dissertation were used as the information base.**

**Limitations of the study: Because of the quarantine regime in the country due to the Covid-19 pandemic, the use of non-Internet literature intended for use in dissertations has become impossible.**

**Scientific novelty and practical results of the research: As a result of the research, it was determined how important it is to develop all the factors that play an important role in improving the competitiveness of the economy separately.**

**Areas where the results can be used: The results obtained are directly or indirectly related to agriculture, industry and various other sectors. In addition, it can be used in the teaching of dissertation-related subjects in universities.**



***Keywords: economic development, competitiveness, sustainable economy***

# İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **AR** | Azərbaycan Respublikası |
| **ABŞ** | Amerika Birləşmiş Ştatları |
| **Aİ** | Avropa İttifaqı |
| **ARDSK** | Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi |
| **BMT** | Birləşmiş Millətlər Təşkilatı |
| **BVF** | Beynəlxalq Valyuta Fondu |
| **DB** | Dünya Bankı |
| **DİF** | Dünya İqtisadi Forumu |
| **İƏİT** | İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı |
| **İİTKM** | İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi |
| **İKT** | İnformasiya Kommunikasiya Texnologiyaları |
| **İMD** | International Institute for Management Development |
| **MDB** | Müstəqil Dövlətlər Birliyi |
| **ÜDM** | Ümumi Daxili Məhsul |

**MÜNDƏRİCAT**

**GİRİŞ....................................................................................................8**
**I FƏSİL. İQTİSADİYYATIN RƏQABƏT QABİLİYYƏTİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI.................................................................133**
1.1. İqtisadiyyatın rəqabət qabiliyyətinin mahiyyəti və onun göstəricilər sistemi.................................................................................................13
3
1.2. İqtisadiyyatın rəqabət qabiliyyətinin zəruriliyi və təmin edilməsi mexanizmləri.................................................................................19
1.3. İqtisadiyyatın rəqabət qabiliyyətinin təmini və onun yüksəldilməsi sahəsində xarici təcrübələr.................................................................266
**II FƏSİL. AZƏRBAYCAN İQTİSADİYYATININ RƏQABƏT QABİLİYYƏTİNİN MÜASİR VƏZİYYƏTİNİN TƏHLİLİ.........................311**
2.1. Azərbaycan Respublikasının iqtisadiyyatının makroiqtisadi təhlili............31
2.2. Milli iqtisadiyyatın rəqabət qabiliyyətinin müasir vəziyyətinin qiymətləndirilməsi ..............................................................433
2.3. İqtisadiyyatın rəqabət qabiliyyətinə daxili və xarici təhdidlər ...................511
**III FƏSİL. AZƏRBAYCAN İQTİSADİYYATININ RƏQABƏT QABİLİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ İSTİQAMƏTLƏRİ .....................566**
3.1. İqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi istiqamətində həyata keçirilməli olan struktur islahatları ...................................................566
3.2. İqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsinə xidmət edən perspektivli sektorlar .........................................................................644
3.3. Milli iqtisadiyyatın inklüzivliyinin təmin edilməsi istiqamətləri ................73
**NƏTİCƏ VƏ TƏKLİFLƏR........................................................................78**
**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI...........................................81**
**Əlavələr.........................................................................................................87**
**Cədvəllərin siyahısı ........................................................................................88**
**Şəkillərin siyahısı............................................................................................89**
**Qrafiklərin siyahısı..........................................................................................89**

# GİRİŞ

**Mövzunun aktuallığı:** Müasir dövrümüzdə ölkələrin iqtisadiyyatında baş verən kataklizmlər, ətraf mühitin məhvi, maddi dəyərlərin məhv olması, həyat və sağlamlığa təhlükə yaradan hadisələr və digər fəlakətlər milli iqtisadiyyatlara olduqca ciddi təsir etmişdir. Bu gün istənilən sahədə islahatların səmərəliliyinə görə dünyada tanınan Azərbaycanın iqtisadiyyatında dünya iqtisadi böhranının təsirlərini minimumlaşdırma səyləri bütün sivil vasitələrlə dəstəklənir. Ölkəmizdə sosial yönümlü bazar iqtisadiyyatının formalaşmasında ölkə daxilində istehsal edilən məhsulların və göstərilən xidmətlərin rəqabət qabiliyyətliyinin təmin edilməsi habelə rəqabət qabiliyyətinin artırılması kimi digər tədbirlər dövlət tənzimlənməsinin daha sistemli şəkildə həyata keçirilməsindən xəbər verir.

Son dövrlərdə iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi, dayanıqlı iqtisadi inkişafın təmin olunması və inhisarçılıqla mübarizə üçün nəzərdə tutulan antiinhisar siyasəti hər ölkədə eyni səviyyədə həyata keçirilmir. Bu sahədə yüz əlli ildən artıq müxtəlif ölkələrin təcrübəsi hər bir istənilən ölkə iqtisadiyyatında rəqabət mühitinin formalaşmasına dəstəyin verilməsi, mikro, kiçik və orta sahibkarların bazara daxil olmasına və bununla da daxili bazarın rəqabət qabiliyyətinin yüksəldilməsinə yardım olunması isə dövlətin iqtisadi tənzimləmə funksiyalarına əsaslanır. Çağdaş dövrdə iqtisadiyyatı dövlət müdaxiləsiz təsəvvür etmək mümkünsüz bir hal almışdır. Müstəqillik əldə etdikdən sonra həyata keçirilən iqtisadi islahatların əsas məqsədi Azərbaycan iqtisadiyyatını bazar iqtisadiyyatı yolu ilə aparmaq, özəl sektorun fəaliyyətini genişləndirmək və özəlləşdirməni həyata keçirmək, sahibkarlığın inkişafı üçün geniş imkanlar yaratmaq, ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin beynəlxalq arenada daha da yüksək mövqelərə yüksəltmək və dünya iqtisadiyyatına inteqrasiya etməkdən ibarətdir.

Beləliklə, bazar iqtisadiyyatı dövründə daxili bazarda rəqabət və inhisarın dövlət tərəfindən tənzimlənməsi meyarları, norma və standartları daim təkmilləşir ki, bununla əlaqədar rəqabət mühitinin yaradılmasının nəzəri-metodoloji və praktiki məsələlərinin nəzərdən keçirilməsi, milli iqtisadiyyatın rəqabət

qabiliyyətinin yüksəldilməsi və həmçinin qanunvericiliyinin icrası zamanı yaranan məsələlərin araşdırılması aktuallıq kəsb edir. Ümumiyyətlə, son illərdə Azərbaycanın beynəlxalq arenada baş verən sosial-iqtisadi proseslərdə aktiv iştirakı milli iqtisadiyyatının rəqabət qabiliyyətinin yüksəldilməsi istiqamətində görüləcək işləri, o cümlədən dövlət tərəfindən bazara müdaxilə səviyyəsinin müəyyən edilməsini və antiinhisar mexanizmlərinin təkmilləşdirilməsi məsələlərini daha da aktuallaşdırır.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** İqtisadiyyatın rəqabət qabiliyyətliliyinin formalaşması və davamlı sosial-iqtisadi inkşafın təmin edilməsi məsələləri dövlətin iqtisadçı alim və mütəxəssislərinin daim diqqət mərkəzində olmuşdur. Bu problemə dair müxtəlif iqtisadi məktəblərin nümayəndələrinin və müasir iqtisadçı alimlərin bir çox əsərləri dərc edilmişdir.

Rəqabət və ayrı-ayrı sahələrin rəqabətqabiliyyətliliyi probleminə məşhur iqtisadçılardan A.Smit, K.Marks, A.Marşall, M.Porter və digərlərinin əsərlərində toxunulmuşdur.

Bununla yanaşı, iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi, dövlətin iqtisadi tənzimlənməsinin əhəmiyyəti və dövlət tərəfindən qəbul edilmiş iqtisadi islahatların qısa və ya uzunmüddətdə göslənilən nəticələrinin elmi-nəzəri və metodoloji-təcrübi problemləri Azərbaycanın E.M.Hacızadə, X.M.Hüseynova, M.Y.Quliyev və.s kimi iqtisadçı alimləri, o cümlədən xarici ölkələrdən A.Altay, V.Pazarlıoğlu, A.Karaaslan, G.Tuncer, C.Bayar, C.C.Aktan, İ.Y.Vural, İ.Demir, M.H.Yalçınkaya, C.Çılbant, N.Yalçınkaya, İ.Güneş, Z.Wysokińska, M.Porter, J.A.Şumpeter, V.V.Kulikov, O.V.Mixaylov və.s kimi iqtisadçıların bu sahədə apardıqları tədqiqatlar daha məhsuldar hesab olunur.

**Tədqiqatın məqsəd və vəzifələri:** Hazırda bazar iqtisadiyyatı şəraitində qeyri-neft sektorunun inkişaf etdirilməsində ölkəmizdə ən prioritet məsələdir. Xüsusilə iqtisadiyyatın şəxaləndirilməsi, ixrac yönümlü qeyri-neft sektorunun və onun rəqabət mühitinin formalaşdırılması əhəmiyyətli məsələdir. Bazarda iştirak edən subyektlər, xüsusən də istehsalçı və istehlakçı arasında olan daimi qarşılıqlı əlaqədə və eyni adlı və ya eyni istiqamətli alternativ məhsul istehsalçıları bir-birinə

təsir edərək fəaliyyət göstərir ki, bu da ümumilikdə rəqabət mühitinin yaranmasını şərtləndirir.

Tədqiqat işinin əsas məqsədi rəqabətqabiliyyətlilik nəzəriyyələrinin və konsepsiyalarının əsasında ümumiləşdirilməsi, milli iqtisadiyyatının rəqabət qabiliyyətliliyinin yüksəldilməsinə dair bir sıra təklif və tövsiyələrin irəli sürülməsindən ibarətdir.

Bu məqsədə nail olmaq üçün dissertasiya işində aşağıdakı vəzifələr qarşıya qoyulmuş və yerinə yetirilmişdir:

- İqtisadiyyatın rəqabət qabiliyyətinin mahiyyəti və onun göstəricilər sistemi araşdırılmışdır;
- İqtisadiyyatın rəqabət qabiliyyətinin zəruriliyi və təmin edilməsi mexanizmləri müəyyən edilmişdir;
- İqtisadiyyatın rəqabət qabiliyyətinin təmini və onun yüksəldilməsi sahəsində xarici təcrübələr öyrənilmişdir;
- Azərbaycan Respublikasının iqtisadiyyatının makroiqtisadi təhlili aparılmışdır;
- Milli iqtisadiyyatın rəqabət qabiliyyətinin müasir vəziyyətinin qiymətləndirilmişdir;
- İqtisadiyyatın rəqabət qabiliyyətinə təsir göstərən daxili və xarici təhdidlər müəyyən olunmuşdur;
- İqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi istiqamətində həyata keçirilməli olan struktur islahatlarından bəhs edilmişdir;
- İqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsinə xidmət edən perspektivli sektorlar tədqiq olunmuşdur;
- Milli iqtisadiyyatın inklüzivliyinin təmin edilməsi istiqamətləri müəyyən edilmişdir.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın predmeti iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsinin hər bir ölkənin iqtisadi inkişafında nə qədər vacib olduğunu və iqtisadiyyatın ayrı-ayrı sahələrinin rəqabət qabiliyyətinin yüksəldilməsinin iqtisadiyyatın ümumi rəqabət qabiliyyətinə nə dərəcədə təsir

etdiyini göstərir. Tədqiqatın obyekti isə iqtisadiyyatın ümumi rəqabət qabiliyyətinin, həmçinin iqtisadiyyatın ayrı-ayrı sahələrinin rəqabət qabiliyyətinin yüksəldilməsi, rəqabətqabiliyyətliliyin yüksəldilməsinin ölkə iqtisadiyyatının inkişafındakı rolunun müəyyən olunmasıdır.

**Tədqiqat metodları:** Tədqiqatın aparılmasında analiz və sintez, müqayisəli təhlil, məlumatların toplanması və toplanmış məlumatların seçilərək əlaqələndirilməsi, iqtisadi-statistik və iqtisadi təhlil metodlarından istifadə olunmuşdur.

**Tədqiqatın informasiya bazası:** Dayanıqlı iqtisadiyyat, iqtisadiyyatın rəqabətqabiliyyətliliyi ilə bağlı xarici və yerli tədqiqatçıların apardığı araşdırmalar və bu mövzuya həsr olunmuş müxtəlif elmi əsərləri təşkil edəcəkdir. Bununla yanaşı, Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarları, Azərbaycan Respublikasının Prezidentinin Fərmanları, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materialları, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin materialları, Dünya Bankı, Dünya İqtisadi Forumunun və Beynəlxalq Valyuta Fondunun sənədləri, internet resursları və.s təşkil olunmuşdur.

**Tədqiqatın məhdudiyyətləri:** "Covid-19" pandemiyası səbəbindən ölkədə yaradılmış karantin rejiminə görə dissertasiya işində istifadəsi nəzərdə tutulan internetdə olmayan ədəbiyyatlardan istifadə mümkünsüz hal almışdır.

**Tədqiqatın elmi yeniliyi:** Aparılan araşdırmalar nəticəsində iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsində mühüm rol oynayan bütün faktorların ayrı-ayrılıqda inkişafının nə dərəcədə vacib olduğu müəyyən edilmişdir.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** Aparılmış araşdırmaların nəticələri bu sahədə növbəti illərdə aparılacaq elmi tədqiqatlar üçün mənbə rolunu oynaya bilər. Tədqiqat işinin nəticələrinin elmi əhəmiyyəti olaraq qeyd edə bilərik ki, alınan nəticələr iqtisadiyyatın inklüzivliyi, rəqabət qabiliyyəti, makroiqtisadi təhlili və.s mövzularla bağlı elmi məqalələr, təklif və tövsiyələr, proqram və layihələr və.s hazırlanması prosesində, həmçinin ali təhsil müəssisələrində bu sahə ilə əlaqəli fənlərin tədrisində istifadə oluna bilər.

Tədqiqat işinin praktiki əhəmiyyəti iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi üçün ilk olaraq beynəlxalq hesabatlarda yer alan əsas göstəricilərin inkişafına xüsusi diqqət ayrılmalı olduğunu, ayrı-ayrılıqda hər bir göstərici üzrə ölkənin mövqeyinin yüksəldilməsi özlüyündə ölkənin ümumi sıralamada daha yuxarı pillələrə yüksəldiyini özlüyündə təcəssüm etdirir. Həmçinin aparılan araşdırmalarda müasir dövrdə iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi üçün əsas paya malik olan sektorların inkişafının təmin edilməsinin, bu sektorial inkişafın regionlar arasında tarazlı şəkildə paylanaraq inklüzivliyin təmin olunmasının, insan kapitalının rəqabətli şəkildə inkişafının təmin olunmasının, hər bir sektorun inkişafında innovasiyaların tətbiq olunmasının son dərəcə əhəmiyyətli olduğu məlum olmuşdur. İqtisadiyyatın rəqabət qabiliyyətinə istər daxili, istərsə də xarici təhdidlərin olması normal haldır. Araşdırmalar nəticəsində bu təhdidlərdən qorunma yolları müəyyən edilmişdir. Həmçinin iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi sahəsində dünya ölkələrinin təcrübəsi araşdırılmışdır ki, alının nəticələr milli iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi üçün istifadə oluna bilər.

Əldə olunan nəticələrin ən mühüm praktiki əhəmiyyəti işğaldan azad olunan torpaqlarımız ilə bağlıdır. Bu zamanadək iqtisadiyyatın inkişafı və onun rəqabət qabiliyyətinin yüksəldilməsi məqsədilə qəbul olunan konsepsiyaların, yol xəritələrinin, dövlət proqramlarının demək olar ki, hər birinə yenidən baxılmalı, verilən proqnozlar yenidən gözdən keçirilməlidir. Bu ərazilərin demək olar ki, iqtisadiyyatın əsas sektorlarının hər birinin inkişafı üçün mühüm potensialı vardır. Bu ərazilərdə istər kənd təsərrüfatının, istər sənayenin, istər turizmin, istərsə də sahibkarlığın inkişafı üçün yetərincə potensial vardır. Bu potensialın dəyərləndirilməsi üçün hər bir əsas sektor üzrə qəbul olunan strateji yol xəritələrində dəyişikliklər və əlavələr edilməli, yeni konsepsiyalar, dövlət proqramları qəbul edilməlidir.

# I FƏSİL. İQTİSADİYYATIN RƏQABƏT QABİLİYYƏTİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI

## 1.1. İqtisadiyyatın rəqabət qabiliyyətinin mahiyyəti və onun göstəricilər sistemi

“Rəqabət” anlayışı hər bir sahədə olduğu kimi iqtisadiyyatda da mühüm əhəmiyyət kəsb edən anlayışdır. Lap qədim dövrlərdə, hətta ibtidai icma dövründə belə rəqabət mövcud olmuş, insanlar yığıcılıq, ovçuluq və.s bu kimi işlərdə bir-birilərilə daim rəqabətdə olmuşdur. Rəqabət latınca “concurrere” sözündən götürülüb, mənası toqquşma deməkdir. İqtisadi sistemlər yarandıqdan, xüsusilə bazar iqtisadiyyatı iqtisadi sistemi formalaşdıqdan sonra rəqabət, rəqabətqabiliyyətlilik anlayışları daha da aktuallaşdılar. Sürətlə qloballaşan və böyük bir struktur dəyişikliyində olan dünya iqtisadiyyatının mərkəz nöqtəsinə çevrilən rəqabət ölkələr arasında əhəmiyyətli bir mövqe qazanmışdır. Ölkələrin vətəndaşlarının yaşayış səviyyələrini artırmaqla yanaşı, bu yaşayış səviyyələrini qoruyan ən böyük amil rəqabətqabiliyyətlilikdir. Lakin, rəqabətqabiliyyətlilik anlayışı artan və geniş yayılmış əhəmiyyətinə baxmayaraq tam aydın başa düşülmür. Buna əsasən rəqabətlilik şərtlərə görə dəyişdiyindən təriflərində də müxtəlifliklər mövcuddur. Bəzi ədəbiyyatlarda rəqabətqabiliyyətlilik firma, sənaye və ölkə baxımından müəyyənləşdirilir, bəzilərində isə mikro və makro səviyyədə təyin edilmişdir.

İllik Rəqabətqabiliyyətlilik Hesabatına əsasən rəqabətqabiliyyətlilik bazarlardakı uğurlar ilə insanların həyat səviyyələrini artırmaq deməkdir. Müvəffəqiyyət səviyyəsinin müəyyənediciləri fərdi müəssisələrdə daha yüksək məşğulluq, yüksək gəlir səviyyəsi və mal və xidmətlərin geniş istifadəsidir. Gəlir səviyyəsinin artması ilə bərabər yaşayış səviyyəsinin artması və milli səviyyədə yayılmasıdır (Annual Competitiveness Report, 1998).

İƏİT tərifinə görə rəqabətqabiliyyətlilik beynəlxalq rəqabətlə üzləşən şirkətlərin, sənayelərin, bölgələrin, millətlərin nisbətən yüksək gəlirin, məşğulluq səviyyəsində və istehsal faktorlarındakı yüksək faiz dəyişikliklərinin davamlılığını təmin edərək, məhsul istehsal etmə bacarığıdır (Wysokinska, 2003).

Bununla yanaşı, türkiyəli iqtisadçıların da rəqabətqabiliyyətlilik anlayışı ilə bağlı müxtəlif fikirləri vardır:

Rəqabətqabiliyyətlilik, bir firmanın əvvəlki səviyyəsinə nisbətən bazar payını, gəlirliliyini və inkişaf gücünü artırma qabiliyyətidir. Bu vəziyyətin ölkələr üzərində əks olunması şirkətlərin sayı və səmərəliliyinin yüksək olması və ölkənin beynəlxalq bazarlarda güclü mövqeyə sahib olması ilə yanaşı beynəlxalq iqtisadi, sosial və siyasi gücün artması ilə nəticələnir. (Altay., Pazarlıoğlu, 2007).

Fikirlərdən bir digəri isə aşağıdakı kimidir:

Eyni zamanda, rəqabətqabiliyyətliliyin digər ölkələrin eyni sektorları ilə müqayisədə daha yüksək gəlir və məşğulluq yaratmaq üçün bir sektorun gücü olduğunu söyləyə bilərik (Demir, 2002).

Rəqabətqabiliyyətlilik anlayışına verilən tərif və izahların sayı kifayət qədərdir. Bunlardan bir neçəsi aşağıdakı cədvəldə öz əksini tapmışdır.

**Cədvəl 1: "Rəqabətqabiliyyətlilik" anlayışına verilən müxtəlif tərif və izahlar**

| **Müəllif və ya Təşkilat** | **İl** | **Tərif və ya İzah** |
|---|---|---|
| Scott və Lodge | 1985 | Ölkələrin öz resursları hesabına gəlirləri artarkən, beynəlxalq ticarətə yönləndirilə bilən məhsul və xidmətlərin istehsal edib, paylamaq qabiliyyətidir. |
| Jan Fagerberg | 1988 | Qarşıya qoyulan əsas iqtisadi hədəflərə nail olunması, xüsusilə də ölkənin xarici ticarət balansına mənfi təsir göstərmədən məşğulluq dərəcəsində və gəlirlərdə artımın təmin edilməsidir. |
| Irfan- Ul- Haque | 1991 | Ölkənin ixrac qabiliyyəti istehsal resursları və təbii resursların effektiv istifadə olunması və ölkədəki həyat standartlarının yüksəldilməsinə imkan verən səmərəlilik artımlarını əhatə edən genişmiqyaslı bir anlayışdır. |
| Velloso | 1991 | Digər ölkələr tərəfindən əldə edilmiş effektivlik standartlarına nail olmaq və ölkənin beynəlxalq bazarlara qatılma qabiliyyətinin artırılmasıdır. |
| UNİCEF | 1993 | Xarici vəziyyətində geriləmə yaşamadan inkişaf etmiş ölkələrin əldə etdiyi nisbi həyat standartlarında artımların əldə edilməsi, hətta yüksəldilməsi rəqabətqabiliyyətliliyin yüksək olduğunu göstərir |
| İƏİT | 1992 | Ölkə daxilində real gəlir artımı təmin edilərkən, xarici ölkələrdəki müştərilərin zövq və gözləntilərinə uyğun məhsul istehsaletmə bacarığıdır. |
| Avropa Birliyi Komissiyası | 1994 | Ölkələrin, müəssisələrin, sənayelərin, bölgələrin sıx rəqabət mühitində istehsal amillərinin gəlirlərini artırmaları, yüksək işçi qüvvəsi yaratmaq qabiliyyətləridir. |

**Mənbə:** A.Karaaslan., G.Tuncer,2010, əsərinə istinadən müəllif tərəfindən tərtib olunmuşdur.

Hər bir ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyini artırmaq, xüsusilə də digər ölkələrlə müqayisədə daha yüksək rəqabətqabiliyyətliliyə sahib olmaq istəyir və bunun üçün çalışır. Ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin yüksək olması onun iqtisadi inkişaf səviyyəsindən xəbər verir. Hər il  və "Dünya İqtisadi Forumu (WEF)" və "Dünya Rəqabətqabiliyyət Mərkəzi (İMD)" tərəfindən müvafiq olaraq "Qlobal Rəqabətqabiliyyətlilik Hesabatı" və "Dünya Rəqabətqabiliyyətlilik İlliyi" tərtib edilir və dərc olunur. Əvvəllər hər iki təşkilatın birgə fəaliyyəti ilə "Dünya Rəqabətqabiliyyətlilik Hesabatı" tərtib olunurdu, lakin sonradan hər iki təşkilat ayrılıqda ölkələrin rəqabətqabiliyyətliliyə görə sıralamasını dərc edir. Dünya Rəqabətqabiliyyətlilik İlliyi ilə Qlobal Rəqabətqabiliyyətlilik Hesabatı mahiyyət etibarilə eynilik təşkil edir. Qlobal Rəqabətqabiliyyətlilik Hesabatı üçün rəqabətqabiliyyətlilik hər bir ölkənin məhsuldarlıq səviyyəsini təyin edən qurumlar, siyasətlər və faktorlar məcmusudur. Dünya Rəqabətqabiliyyətlilik İlliyinə görə isə rəqabətqabiliyyətlilik bir millətin müəssisələri üçün daha çox dəyər yaratmağı və əhalisi üçün daha yaxşı yaşayış səviyyəsini təmin edən  bir mühit yaratmaq və qorumaq qabiliyyətidir. Bu təşkilatlar ölkələrin rəqabətqabiliyyətliliyə görə sıralamasını tərtib edərkən çoxlu sayda indekslərdən istifadə edərək tərtib edirlər ki, bunlardan daha vacib 12 göstərici var ki, bunlar aşağıdakılardır:

1. "Qurumlar, müəssisələr". İnstitusional mühit fərdi şəxslərin, müəssisələrin və hökümətlərin gəlir əldə etmək məqsədilə yaratdığı bir çərçivəni əhatə edir. Hələ 18-ci əsrdə Adam Smith "harada ki, mülkiyyət hüquqları yaxşı müəyyənləşdirilməyib və təmin edilmir, orada zənginlik yarana bilməz" fikrini söyləmişdir. Həm yerli investorlar, həm də xarici investorlar belə yerlərə investisiya yatırmaq istəmirlər. Hər bir investor hər hansı bir ölkəyə investisiya yatırmamışdan öncə həmin ölkə haqqında müxtəlif araşdırmalar aparır və qarşılaşdığı hər mənfi cəhət onu bu ölkəyə investisiya yatırmaqdan çəkindirir. Hər bir investor əmin olmalıdı ki, səhmdarı olduğu müəssisə təhlükəsiz bir şəraitdə fəaliyyət göstərəcək. Qlobal Rəqabətqabiliyyətlilik Hesabatı da tərtib olunarkən

ölkənin sıralamadakı yeri həmin ölkədəki iqtisadiyyata dövlət müdaxiləsi, korrupsiya, şəffaflıq dərəcələrindən asılıdır.

2. Rəqabətqabiliyyətliliyin ikinci önəmli göstəricisi "infrasturuktur mühiti" dir. Uzun illər ərzində iqtisadçılar, beynəlxalq təşkilatlar infrasturuktur sahələrinə investisiya yatırılmasının önəmini vurğulamışlar. Özəl şirkətlər istehsal amilləri, son məhsul və xidmətlərin nəqlinin çətin olduğu bir mühitdə fəaliyyət göstərə bilmirlər, harada ki, infrastruktur zəif inkişaf etmişdir.

3. "Makroiqtisadi mühitin sabitliyi" rəqabətqabiliyyətliliyin 3-cü əsas göstəricisi kimi mühüm əhəmiyyət kəsb edir. Makroiqtisadi sabitlik ölkənin biznes mühiti üçün olduqca əhəmiyyətlidir, buna görə də ölkənin ümumi rəqabətliliyi üçün də son dərəcə əhəmiyyətlidir. Makroiqtisadi sabitlik əhalinin məhsuldarlığı artırdığı kimi" makroiqtisadi nizamsızlıq da iqtisadiyyata ziyan vurur. Ölkədə inflyasiya dərəcələri yüksək olduğu zaman firmalar, müəssisələr məlumatlı və düzgün qərar verə bilmirlər. Buna görə də hökümət faiz dərəcələrinə nəzarət etməlidir. Ümumiyyətlə, iqtisadiyyat makroiqtisadi mühitin əlverişliliyi və ya sabitliyi olmadan inkişaf edə bilmir.

4. "Səhiyyə və ibtidai təhsil". Əhalinin sağlamlığım ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyi və məhsuldarlığı üçün önəmlidir. İşçi qüvvənin sağlamlığında problemlərin olması son nəticədə iqtisadiyyata mənfi təsir göstərir. Hazırki pandemiya dövrünə nəzər salsaq görərik ki, tətbiq olunan sərt karantin rejiminə görə bir çox müəssisə və təşkilatlar fəaliyyətini dayandırmalı olmuş, işçilərin sağlamlığı ilə bağlı təhlükələr olduğundan işlər həmişəki qaydasında getməmişdir. Bunun da iqtisadiyyatın rəqabətqabiliyyətliliyinə, səmərəliliyinə müəyyən mənfi təsirləri olmuşdur. Səhiyyənin inkişafı təhsilə də təsirsiz ötüşmür. İbtidai təhsilin olması hər bir işçinin fərdi səmərəliliyini artırır. Yalnız ibtidai təhsil ilə kifayətlənmək işçiyə yalnız sadə tapşırıqların öhdəsində gəlməyə imkan verir, ancaq bir o qədər də təhsilin davam etdirilməsi üçün önəmlidir.

5. "Ali təhsil və təlim" İqtisadiyyatın məhsuldarlığı və səmərəliliyi üçün ali təhsil olduqca önəmlidir. Keyfiyyətli ali təhsil almış kadrlar ölkə iqtisadiyyatının inkişafında mühüm rola malikdirlər. Xüsusilə hazırki qloballaşan dünya

iqtisadiyyatı yüksək ixtisaslı, təlimlər görmüş kadrlar tələb edir. Bu indeks ilə ölkənin orta və ali təhsil dərəcələrinin səviyyəsi ölçülür, nəticə isə ölkənin ümümi rəqabətqabiliyyətliliyinə birbaşa təsir göstərir.

6. "Əmtəə və xidmətlər bazarının səmərəliliyi". Əhalinin məhsuldarlığında əmtəə və xidmətlər bazarının səmərəliliyinin mühüm rolu vardır. Əmtəə bazarının səmərəliliyini üç səviyyədə göstərmək olar:

1) Səmərəli bazarlara müdaxilə edərkən tətbiq edilən siyasət və qaydaların daha az pozuntuya səbəb olmasına diqqət etmək lazımdır.

2) Səmərəli bazarlar biznes rəqabəti ilə idarə olunur. Bazar iqtisadiyyatı dövründə bir firmanın və yaxud bir neçə firmanın birləşərək xarici firmaların rəqabətinə son qoyulmsı bazarda səmərəsizliyə gətirib çıxarır.

3) Səmərəli bazarlarda tələb şərtləri mühüm əhəmiyyət kəsb edir. Bazarda səmərəliliyə nail olunması üçün müştərilərə qarşı diqqətli rəftar etmək və intizamlı fəaliyyət göstərmək vacibdir.

7. "Əmək bazarının səmərəliliyi". Bir çox iqtisadçı tədqiqatçılar əmək bazarının səmərəliliyini rəqabətqabiliyyətliliyin aparıcı determinantı olduğunu vurğulayır. İşçi ilə işəgötürən arasında yaşanan problemlər, işəgötürmə prosesində ixtisaslı kadrlardan daha çox yaxınlara, qohumlara üstünlük verilməsi əmək bazarının səmərəliliyinə mənfi təsir göstərir. Səmərəliliyə mənfi təsir göstərən bir başqa amil də kadrlara dininə, cinsinə, irqinə və belə digər xüsusiyyətlərə görə ayrıseçkilik edilməsidir. Bunlar hamısı ümumi rəqabətqabiliyyətliliyə mənfi təsir göstərir.

8. "Maliyyə bazarının səmərəliliyi". Hər hansı bir sahənin inkişafı üçün lazımi qədər vəsaitin ayrılması səmərəli və güclü maliyyə sektoru tələb edir. Müasir maliyyə sektorunda səmərəliliyin artırılması üçün müxtəlif üsullar inkişaf etdirilir. Bu üsullar yenilikçi insanlar, xüsusilə də gənclər tərəfindən yaxşı idealarla təkmilləşdirilir. Qloballaşan dünyada iqtisadiyyat üçün xarici maliyyələşdirmə mənbələrinin rolu olduqca əhəmiyyətlidir, xüsusilə də maliyyə sektoru zəif inkişaf edən iqtisadiyyatlar üçün vacibdir.

9. "Texnoloji hazırlıq". İnkişaf etmiş ölkələr və inkişaf etməkdə olan ölkələri bir-birindən fərqləndirən müxtəlif cəhətlər mövcuddur ki, onlardan biri də

texnoloji hazırlıq səviyyəsidir. İnkişaf etmiş ölkələr müasir texnologiyalardan istifadə edərək daha mürəkkəb istehsal prosesləri həyata keçirir və daha inkişaf etmiş məhsul və xidmətlər təqdim edir. Ölkənin istifadə etdiyi müasir texnologiyaları ölkənin özu istehsal etməsə belə, onları xarici ölkələrdən alaraq istifadə etməsi ölkənin ümumi rəqabətqabiliyyətliliyinə müsbət təsir göstərir.

10. "İqtisadiyyatın açıqlığı və bazar ölçüsü". Bazarların ölçüsü məhsuldarlığa təsir edir, çünki böyük bazarlar firmalara daha rəqabətcil olmağa və daha miqyaslı şəkildə fəaliyyət göstərməyə imkan verir. Bəzi ədəbiyyatlarda iqtisadi inkişaf ilə bazarların ölçüsü arasında əlaqənin düz olduğu ilə bağlı müxtəlif məlumatlar vardır. İnkişaf bazarların ölçüsündən daha çox rəqabətqabiliyyətliliyindən asılıdır. Daxili bazar kiçik olsa belə firmaların burada rəqabətli şəkildə fəaliyyət göstərməsi və zamanla xarici bazarlarla qarşılıqlı əlaqələr ölkənin ümumi rəqabətqabiliyyətliliyinə müsbət təsir göstərər.

11. "Biznesin inkişafı və mürəkkəbliyi". Təcrübənin olması istənilən sahədə öz faydasını göstərdiyi kimi mal və xidmətlər istehsalında da iş təcrübəsi yüksək səmərəlilik əldə olunmasına kömək edir. Biznesin inkişafına həm ümumi biznes şəbəkələrinin keyfiyyəti, həm də ayrı-ayrı müəssisələrin strategiyalarının keyfiyyəti aiddir. Bu amillər daha çox məhsuldarlığı artırmaq, ölkənin rəqabətqabiliyyətliyini yüksəltmək üçün xüsusilə vacibdir. Hər hansı bir sektorda firmalar birgə fəaliyyət göstərdikdə səmərəlilik artır və firmalar üçün maneə və problemlər azalır. Ayrı-ayrı firmaların isə inkişaf etmiş strategiyaları iqtisadiyyata təsir göstərərək ölkənin biznes sektorunda müasir və səmərəli iş proseslərinə səbəb olur.

12. "İnnovasiyanın inkişafı". Yalnız texnologiya ilə bağlı sahələrdə deyil, texnologiya ilə bağlı olmayan sahələrdə də innovasiyadan istifadə olunur. İnfrastrukturun qurulması, insan kapitalının inkişaf etdirilməsi, makroiqtisadi sabitliyin artırılması ilə qazanc əldə edilsə də, bunların həyata keçirilməsi zamanı xərclər də xeyli çoxalır. Texnoloji yeniliklərdən istifadə edərək yaşam standartlarını yüksəltmək olar. Texnoloji yeniliklər ilə əhəmiyyətli dərəcədə gəlir əldə etmək olar.

Nəşr olunan Qlobal Rəqabətqabiliyyətlilik İndekslərində, Hesabatlarında əsas göstəricilərə görə ölkələrin ümumi sıralaması tərtib olunmaqla yanaşı, bu göstəricilərin hər biri üzrə də ayrı-ayrılıqda sıralama müəyyən olunur.

İqtisadiyyatın rəqabət qabiliyyətinin göstəricilər sistemi olduğu kimi, rəqabətqabiliyyətliliyi təmin edən mexanizmlər də mövcuddur ki, bu haqda növbəti paraqrafda bahs edilmişdir.

## 1.2. İqtisadiyyatın rəqabət qabiliyyətinin zəruriliyi və təmin edilməsi mexanizmləri

İqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsində dövlətin əsas vəzifəsi ölkədə rəqabətqabiliyyətli bir mühit yaratmaqdır. Rəqabətqabiliyyətliliyin yüksəldilməsi ölkə iqtisadiyyatının inkişafı baxımından olduqca zəruridir. Rəqabətqabiliyyətli bir mühit yaratmaq və onu təmin edən infrastrukturun gücləndirilməsi, bazarın sərbəstləşdirilməsi və investisiyaların cəlb olunması üçün açıq iqtisadiyyatın formalaşdırılması və s. kimi mexanizmlərin həyata keçirilməsi vacibdir. Bu mexanizmlər türk iqtisadçılar Ahmet Karaaslan və Güner Tuncer tərəfindən dövlət sektorunun effektivliyini artırmaq məqsədi daşıyan mexanizmlər və makroiqtisadi islahatların formalaşdırılması və həyata keçirilməsi mexanizmləri olaraq 2 əsas mexanizm və onların alt mexanizmləri kimi verilmişdir. (Karaaslan A., Tuncer G, 2010).

1) Dövlət sektorunun effektivliyini artırmaq məqsədi daşıyan mexanizmlər

Dünyanın əksər ölkələrinin iqtisadiyyatlarında dövlət olduqca əhəmiyyətli rola malikdir. Fikrimcə bazar iqtisadiyyatı iqtisadi sistemində dövlətin rolu digər iqtisadi sistemlərə nisbətən daha az əhəmiyyət daşıyır. Müasir dövrdə iqtisadi inkişafın davamlılığının təmin edilməsi və iqtisadiyyatın rəqabət qabiliyyətinin daha da yüksəldilməsi üçün özəl sektor, beynəlxalq maliyyə qurumları, dövlətlər bir-birilərilə əlaqəli şəkildə fəaliyyət göstərməlidirlər. Bazar iqtisadi şəraitində dövlətin iqtisadiyyatda rolu insanların sağlığını, təhlükəsizliyini, rifahını və s. qorumaq, bazarda qayda-qanunlar formalaşdırmaq, bazarı mümkün təhlükə və böhranlardan müdafiə etməkdən ibarətdir. Bazar hər zaman özünü qoruya bilmir,

buna görə də bazarın özünü baş verən təhlükələrdən qoruya bilmədiyi vaxtlarda dövlətin Adam Smitə məxsus "gözə görünməz əl" prinsipi işə düşür. Dövlət sektorunun effektivliyini artırmaq üçün aşağıdakı mexanizmlərin həyata keçirilməsi vacibdir:

a) Hüquqi bazanın gücləndirilməsi

Hər bir ölkənin özünəməxsus qanunları vardır. Müasir demokratik ölkələrdə idarəetmə sistemi qanunlarla əlaqəli olub, qanunun aliliyi idarəetmənin hər bir sahəsində əvəzolunmaz bir prinsip kimi qəbul edilir. "Hüquqi bazanın gücləndirilməsi beynəlxalq rəqabətqabiliyyətliliyin artırılmasında mühüm rol oynayır. Hüquqi qurumlar biznes idarəetməsini və səhmdar hüquqlarını gücləndirməli, rəqabət qanunu və siyasətini dəstəkləməlidirlər" (Nabi, and Luthria, 2002).

b) Fiziki və texnoloji infrastrukturun gücləndirilməsi

İnfrastrukturun gücləndirilməsi iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsində vacib amillərdəndir. İstər iqtisadiyyatın inkişafı istərsə də əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması baxımından infrastruktur sahələrinin inkişafı olduqca vacibdir. Əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması üçün rabitə, enerji, informasiya texnologiyaları, təhsil, səhiyyə və s. kimi infrastruktur xidmətlərindən istifadə edilməsi vacibdir. Xüsusilə də qloballaşan dünya iqtisadiyyatında fiziki və texnoloji infrastruktur sahələrinin gücləndirilməsi rəqabətqabiliyyətliliyin yüksəldilməsi üçün xüsusi önəm daşıyır. Müasir dövrdə iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi, əhalinin həyat şəraitinin yaxşılaşdırılması, ölkə ərazisində fəaliyyət göstərən firma və müəssisələrin fəaliyyətinin daha yaxşı təmini üçün müxtəlif kommunikasiya, su təchizatı, kanalizasiya sistemi, şəhərdaxili və şəhərlərarası nəqliyyat vasitələri və yolların salınması və s. kimi fiziki və texnoloji infrastruktur və xidmətlərin inkişafı mütləqdir. Hazırki dövrdə müasir texnologiyaların daha da inkişafı ilə firmalar, müəssisələr daha çox sahələrdə rəqabət aparır və müasir dövrün tələblərinə uyğun yeni bazar şərtləri formalaşdırırlar. Müasir texnologiyalar sayəsində məhsul istehsalı daha asanlaşmış, daha keyfiyyətli məhsulların istehsalına nail

olunmuşdur. Zaman keçdikcə müasir texnologiyaların tətbiqi müxtəlif fiziki infrastruktur sahələrində rəqabətqabiliyyətliliyi daha da atırır və ümumi olaraq iqtisadiyyatın rəqabət rəqabət qabiliyyətinə müsbət təsirlər göstərir.

Hər bir ölkə texnoloji inkişafın yüsək səviyyədə olması üçün çalışır. Xüsusilə də istehsalda müasir texnologiyaların tətbiqi yeni ixtiralara səbəb ola bilər. Özəl sektorun bu sahədə fəaliyyətinə qarşı olan maneələr aradan qaldırılmalı, istər maliyyə cəhətdən, istərsə də digər cəhətlərdən dövlət dəstəyi göstərilməlidir.

c) İqtisadi əməliyyatları həyata keçirən hüquqi qurumların gücləndirilməsi

İqtisadiyyatın rəqabət qabiliyyətinə mənfi təsir edən rüşvətxorluq, korrupsiya, inhisarçılıq və s. kimi halların aradan qaldırılması üçün iqtisadi əməliyyatlar həyata keçirən qurumların üzərinə böyük yük düşür. Ölkənin qanunvericilik sisteminin gücləndirilməsi bazar iqtisadiyyatı şəraitində firma və müəssisələr üçün şəffaf bir mühitin təmin edilməsi, firmaların sərbəst fəaliyyətinə problem yaradan maneələrin aradan qaldırılması, ölkənin ekoloji sisteminin və təbii ehtiyatlarının qorunması və s. digər fəaliyyətlər üçün zəruridir. Bank fəaliyyətləri, valyuta mübadiləsi, qiymət standartlarının təyin edilməsi, kapital yığımı, kredit və kommersiya fəaliyyətləri və s. kimi iqtisadi fəaliyyətlərlə bağlı əməliyyatların həyata keçirilməsi hüquqi qurumların öhdəsinə düşür. Qanuni olaraq iş saatının, iş şərtlərinin təyin edilməsi, əmək müqavilələrinin bağlanılması hüquqi bazanın əsas ünsürlərindəndir. Bu işlərin şəffaf şəkildə yerinə yetirilməsinə müvafiq hüquqi qurumların nəzarəti lazımdır. Ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin təmini və yüksəldilməsi üçün bu qurumların fəaliyyətinin gücləndirilməsi mütləqdir və dövlət bu qurumların fəaliyyətinə xüsusi diqqət ayırmalıdır.

d) Dövlətin iqtisadi səmərəliliyinin, hesabatlılığının və çevikliyinin artırılması

Dövlətin iqtisadi səmərəliliyinin, hesabatlılığının və çevikliyinin artırılması iqtisadiyyatın rəqabət qabiliyyətinə təsir göstərən önəmli mexanizmlərdən biridir. Türkiyəli iqtisadçılar Ahmet Karaaslan və Güner Tuncer dövlətin iqtisadi səmərəliliyinin, hesabatlılığının və çevikliyinin artırılması üçün aşağıdakıların

həyata keçirilməsinin vacib olduğunu vurğulamışlar: (Karaaslan A., Tuncer G., 2010: s.35-36).

1. Korrupsiyaya nəzarət və etik qaydaların yaradılması

Müasir dövrdə demək olar ki, dünya ölkələrində, xüsusilə də bazar iqtisadiyyatı iqtisadi sisteminə malik ölkələrdə korrupsiya vardır və hər bir ölkə korrupsiyaya qarşı mübarizə aparır. Bir çox ölkələr bazara daxil olmaq istəyən yeni firmalar üçün bazara giriş maneələrini azaldaraq, qanunvericilik sisteminin səmərəliliyini artıraraq, müxtəlif infrastruktur sahələrində inhisarçılara qarşı mübarizə apararaq korrupsiyanın azaldılması yönündə müsbət irəliləyişlərə nail olmuşlar. Ölkəmizdə də korrupsiya hallarının aşkar edilməsi, bu halların qarşısının alınması və aradan qaldırılması, korrupsiyasız iqtisadiyyatın inkişafına və s. yönələn qanun qəbul edilmişdir.

2. Dövlət idarəetməsini daha məsul etmək

İqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsində dövlətin iqtisadi səmərəliliyi mühüm rol oynayır. Bazar iqtisadiyyatı iqtisadi sisteminə malik bir ölkədə dövlət idarəetməsi olduqca vacib amildir. Bu iqtisadi sistemdə dövlət istər siyasi hakimiyyətdə, istərsə də iqtisadiyyatla bağlı sahələrdə inhisarçı ola bilməz, sadəcə dövlət müdaxiləsinə daha çox ehtiyac duyan bazar iqtisadiyyatı sistemli ölkələrdə dövlət idarəetməsi daha da gücləndirilməli və qeyri-hökumət təşkilatlarını daha səmərəli xidmət göstərməsi üçün təşviq etməlidir.

3. Hüquqi qurumların gücləndirilməsi və dövlətin mərkəzləşdirilməmiş bir quruluşa çevrilməsi

Ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin yüksəldilməsində hquqi bazanın mühüm rolu vardır. Hüquqi bazanın gücləndirilməsi üçün hər bir ölkədə müvafiq hüquqi qurumlar fəaliyyət göstərir və bu qurumların fəaliyyətinin gücləndirilməsi hər zaman dövlətin diqqət mərkəzində olmalıdır. Hazırki dövrdə bazar mexanizmlərinin gücləndirilməsi ilə bağlı qurumlar tərəfindən müxtəlif siyasətlər həyata keçirilməli, rəqabətlə bağlı, səhmdar hüquqları ilə bağlı, biznes mühiti, idarəetmə ilə bağlı qanunlar qəbul edilməli və bu fəaliyyətlər dövlət tərəfindən dəstəklənməlidir.

2) Makroiqtisadi islahatların yaradılması və həyata keçirilməsi mexanizmləri

Beynəlxalq ticarət və investisiyaların genişləndirilməsi, məşğulluğun artırılması, əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi, ümumi olaraq iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi üçün ölkələr islahatlar yaratmalı və həyata keçirməlidirlər. Bu islahatlar bir çox ölkələr üçün rəqabətli bazarlar üçün institusional strukturun yaradılması, bazarı sərbəstləşdirmək və investisiyaları cəlb etmək üçün açıq iqtisadiyyat formalaşdırmaq, kapital yığımı və investisiya fəaliyyətinə təsir göstərilməsi, innovasiya sistemlərinin inkişafında dövlət ilə sənaye sahələri arasında əlaqələrin qurulması, maliyyə siyasətinin təşviqi baxımından vergi və dövlət xərcləri kimi iqtisadiyyatın rəqabətqabiliyyətliliyini təmin edən mexanizmlərdən ibarətdir.

a) Rəqabətli bazarlar üçün institusional strukturun yaradılması

Hazırki dövrümüzdə ölkələr qloballaşan iqtisadiyyatda uğurlar əldə etmək üçün qlobal miqyasda beynəlxalq iqtisadi fəaliyyətlərdə daha çox iştirak etmək üçün səy göstərirlər. Qloballaşan iqtisadiyyatda ölkələr bazar iqtisadiyyatının şərait və imkanlarına uyğun bazar prosesləri yaratmalı, gücləndirməlidirlər. Dövlətlər çox vaxt intitusional strukturun yaradılmasında və gücləndirilməsində mühüm rol oynayırlar. Dövlətlər bu prosesdə makroiqtisadi siyasəti gücləndirməli, biznes və maliyyə əməliyyatlarını idarə etməli, dövlət və özəl sektorun münasibətlərini qayda və qanunlarla tənzimləməlidir. Hazırki dövrümüzdə bütün dünya iqtisadiyyatı bazar mexanizmlərinə əsaslandığı üçün hər bir ölkə öz iqtisadiyyatını bazar iqtisadiyyatı iqtisadi sisteminə uyğunlaşdırmalıdır.

b) Bazarı sərbəstləşdirmək və investisiyaları cəlb etmək üçün açıq iqtisadiyyat formalaşdırmaq

Rəqabətqabiliyyətliliyi təmin edən hər bir mexanizm kimi bazar və investisiya mexanizmləri də iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsində mühüm paya malikdir və dövlətdən lazımi müdaxilələri tələb edirlər. Hər bir ölkə bazarlarda ixracın payının idxaldan daha çox olmasını istəyir və bunu hədəfləyir. Rəqabətqabiliyyətliliyin yüksəldilməsində vacib mərhələlərdən biri də bazarın sərbəstləşdirilməsi və investisiyaların cəlb edilməsidir ki, dövlət bu sahədə

müxtəlif islahatlar formalaşdırmalı və siyasətlər həyata keçirməlidir. Həyata keçirilən islahatlar sayəsində bazarların ixrac potensialını daha da genişləndirmək olar. Bununla yanaşı, islahatlar nəticəsində xarici investisiyaların daha çox cəlb olunmasını və ticarət əlaqələrinin daha çox inkişafını hədəfləyir. Bunun üçün də ixracı artırmaq üçün tədbirlər həyata keçirilməli, xarici valyutalar ilə mübadilə qaydaları tənzimlənməli, investisiya məhdudiyyətləri aradan götürülməli və ümumi olaraq bunların hamısına aid sərbəst bazar və investisiya siyasəti qəbul edilməli və həyata keçirilməlidir.

c) Kapital yığımı və investisiya fəaliyyətinə təsir göstərilməsi

Bazar iqtisadiyyatı şəraitində iqtisadiyyatın rəqabət qabiliyyətini artırmaq üçün özəl sektorun inkişafı vacibdir ki, bunun üçün müxtəlif dövlət siyasətləri və islahatlar qurulmalı və həyata keçirilməlidir. İqtisadiyyatının rəqabət qabiliyyəti zəif olan ölkələr özəl sektoru inkişaf etdirməli, kapital yığımı və investisiya cəlb edilməsinə təsir göstərməli, kiçik və orta sahibkarlığın inkişafına dəstək verməlidir. Dövlət müəssisələrinin özəlləşdirilməsi də iqtisadiyyatın rəqabət qabiliyyətini yüksəldən amillərdəndir. Bu özəlləşdirmə prosesi daha çox zərərlə işləyən dövlət müəssisələrini əhatə edir və etməlidir. Əsasən inkişaf etmiş ölkələrin əksəriyyətində maliyyə problemi olan ölkələr büdcə defisitini azaltmaq üçün daha çox özəlləşdirmə həyata keçirirlər.

Makroiqtisadi siyasətlərin və islahatların həyata keçirilməsi, dövlət müəssisələrinin özəlləşdirilməsi kimi tədbirlər iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi üçün müsbət nəticələr versə də, yetərli deyil. Başlıca tədbirlərdən biri də kiçik və orta sahibkarlığın inkişafının dəstəklənməsidir ki, bununla bağlı ölkəmizdə strateji yol xəritəsi hazırlanmış, uzun müddətli və daha uzun müddətli tədbirlər planının həyata keçirilməsi nəzərdə tutulmuşdur.

d) İnnovasiya sistemlərinin inkişafında dövlət ilə sənaye sahələri arasında əlaqələrin qurulması

İnnovasiyaya, yeniliyə nəinki iqtisadiyyatda, bütün sahələrdə, elmlərdə ehtiyac duyulur. Dünya ölkələrinin əksəriyyəti bütün sahələrdə, xüsusilə də iqtisadiyyatda innovasiya sistemlərinin inkişafına xüsusi diqqət ayırır.

İqtisadiyyatın rəqabət qabiliyyətini artırılmasında digər mexanizmlər kimi innovasiyanın da mühüm rolu vardır. İnnovasiya sistemlərinin inkişafında dövlət sənaye sahələri ilə əməkdaşlıq etməli, əlaqələr qurmalıdır, həmçinin müəssisə və qurumların başqa müəssisələrlə ortaq əlaqələr qurması üçün şərait yaratmalıdır. Müəssisələri daha innovativ texnologiyalarla təmin olunan ölkələr digər ölkələrə nisbətən daha çox inkişafa meyilli, daha rəqabətqabiliyyətli ölkələrdir.

Milli innovasiya sisteminin qurulmasında dövlət tərəfindən görüləcək fəaliyyətlər aşağıdakı kimi ümumiləşdirilə bilər: (Karaaslan A., Tuncer G., 2010).

- Sənayedə, dövlətdə və universitetlərdə tədqiqatçılar üçün məlumat mübadiləsi və bilik şəbəkəsini gücləndirəcək infrastrukturun yaxşılaşdırılması
- Texnologiyaların inkişafında özəl/dövlət birgə səylərini gücləndirmək üçün mexanizmlərin yaradılması
- Yeni texnologiyaların məlumat ötürülməsini artırmaq üçün alətlərin yaradılması
- İdarəetmə təcrübələri, insan resursları və təşkilati tənzimləmələrin müxtəlifliyi barədə məlumat yaymaq

e) Vergi və dövlət xərcləri mexanizmi

Hökümətlər iqtisadiyyatın rəqabət qabiliyyətini yüksəltmək üçün ölkədə firma və müəssisələrin müstəqil fəaliyyətini təmin etməlidir. Firmaların, müəssisələrin xüsusilə də özəl müəssisələrin müstəqil fəaliyyətinin təmini iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsinə müsbət təsir edir. İqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi ilə, daha dayanıqlı iqtisadiyyatın formalaşdırılması ilə birbaşa əlaqəli olan sahələrin inkişafı üçün vergi mexanizminin təkmilləşdirilməsi ilə daha əlverişli bir makroiqtisadi mühit yaradıla bilər. Hər bir investor daha əlverişli makroiqtisadi mühitdə fəaliyyət göstərməyə, investisiya yatırmağa meyillidir ki, nəticədə vergi sisteminə, dövlət büdcəsinə və ümumilikdə iqtisadiyyatın rəqabət qabiliyyətinə böyük müsbət təsirləri vardır. Vergi kimi dövlət xərcləri mexanizminin də iqtisadiyyatın rəqabət qabiliyyətinə müəyyən təsirləri vardır. Dövlət xərclərinin artımının müəyyən

sahələrə müsbət təsirləri vardır. Rabitə, enerji, nəqliyyat, təhsil, səhiyyə, informasiya texnologiyaları və s. bu kimi sahələr inkişaf üçün dövlət xərclərinin artırılmasını tələb edir ki, bu da ümumilikdə iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsinə müsbət təsir göstərir.

Sonda qeyd etmək istərdim ki, iqtisadiyyatın rəqabət qabiliyyətinin təmin edilməsi mexanizmləri və onun zəruriliyi müasir dövrdə hər bir ölkə üçün əhəmiyyətli məsələdir. Hər bir ölkənin bu sahədəki təcrübəsindən milli iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsində istifadə etmək olar və bu barədə növbəti paraqrafda geniş məlumat verilmişdir.

### 1.3. İqtisadiyyatın rəqabət qabiliyyətinin təmini və onun yüksəldilməsi sahəsində xarici təcrübələr

Müasir dünyamız hər keçən gün sürətlə dəyişir və inkişaf edir. Aydındır ki, dəyişən dünya düzənində, bütün ölkələrin əsas məqsədi ölkələrində rəqabətqabiliyyətlilik üçün əhəmiyyətli hesab edilən şərtləri təmin etmək və ölkələrində sosial-iqtisadi inkişaf səviyyəsini yüksəltməkdən ibarətdir. Lakin bunu da nəzərə almaq lazımdır ki, mürəkkəb iqtisadi kateqoriya olan rəqabət gücü çoxölçülüdür. Məhz bu baxımdan da ölkələrin və müəssisələrin rəqabətqabiliyyəti fərqli amillərdən asılıdır ifadəsini işlətsək heç də yanılmarıq. Biz bu amili də “ölkələrin rəqabət üstünlüyü” kimi adlandıra bilərik. Lakin bunu da qeyd etmək yerinə düşərdi - milli rifah yaradılır, miras qalmır. Tamamilə klassik iqtisadiyyatın təkid etdiyi kimi bir ölkə təbii ianələrindən, əmək ehtiyatlarından, faiz dərəcələrindən və ya valyuta dəyərindən asılı olaraq böyümür.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev innovasiyayönümlü iqtisadiyyatın və sahibkarlığın inkişafının daha ön sıralarda olduğu iqtisadiyyatın formalaşmasına xüsusi əhəmiyyət verir. Bunun üçün əhəmiyyətli işlər görülür, çünki müasir dövrdə yeni yaranan hər bir fəaliyyətin səmərə verməsi üçün köhnə modellər ilə deyil də, innovasiyayönümlü, yeni modellər əsasında yerinə yetirilməsi vacibdir. Ümumilə ölkədəki hər bir sahənin

müasirləşdirilməsi ümumilikdə dövlətin müasirləşməsinə və iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsinə böyük təsir göstərir.

Sürətlə dəyişən rəqabət dünyasında ölkələr daha az əhəmiyyətli deyil daha vacib hala gəlmişdir. Rəqabətin əsası getdikcə daha çox biliyin yaradılması və mənimsənilməsinə yönəldikcə ölkələrin rolu artmışdır. Rəqabət üstünlüyü yüksək dərəcədə lokallaşdırılmış bir proses vasitəsilə yaradılır və davam etdirilir. Milli dəyərlər, mədəniyyət, iqtisadi strukturlar, qurumlar və tarixlərdəki fərqliliklər hamısı rəqabət müvəffəqiyyətinə kömək edir (https://hbr.org/1990/03/the-competitive-advantage-of-nations).

Hər ölkədə rəqabətqabiliyyətlilik nümunələrində təəccüblü fərqlər var; heç bir ölkə hər sahədə və ya hətta əksər sənaye sektorunda rəqabət edə bilməz. Nəticə etibarı ilə ölkələr, müəyyən sahələrdə uğur qazanırlar, çünki onların malik olduqları mühit ən perspektivli, dinamik və çətin bir yerdir. Mövcud düşüncə tərzinə görə, əmək xərcləri, faiz dərəcələri, valyuta məzənnələri və iqtisadiyyatın miqyası rəqabət qabiliyyətinin ən güclü müəyyənediciləri hesab edilir.

Mövcud mövzu ilə bağlı müxtəlif tədqiqatçıların tədiqat işlərində müxtəlif ölkə hökumətləri arasında milli rəqabət qabiliyyətini təşviq etmək üçün nəzərdə tutulmuş müxtəlif valyuta məzənnələrini idarə etmək səylərindən tutmuş ticarəti idarə etmək üçün yeni tədbirlərə qədər, antitresti yumşaltmaq siyasətinə qədər adətən yalnız onun azaldılması ilə nəticələnən siyasətləri sınaqdan keçirməyə meylin artığı qeyd edilmişdir.

Tədqiqat işimizdə Dünya İqtisadiyyat Formunun 2019-cu il üzrə hazırlamış olduğu Qlobal Rəqabətqabiliyyətlilik Hesabatından istifadə etmişik. Hansı ki, bu hesabat dördüncü sənaye inqilabı dövründə siyasətçilər, iş adamları və digər maraqlı tərəflərin iqtisadi strategiyalarını formalaşdırmalarına kömək etmək üçün hazırlanmışdır. Həmin hesabatdakı göstəricilərdən istifadə edərək rəqabətqabiliyyətliliyin təmin edilməsi sahəsində xarici ölkə təcrübələrinin ən yaxşısını göstərmək məqsədilə rəqəmlərdən ibarət mənzərə üzərində aşağıdakı formada təhlil aparıb bununla bağlı əhəmiyyətli nəticələr əldə etdik (Əlavə 1).

Hər il Dünya İqtisadi Forumu tərəfindən dünya ölkələrinin rəqabətqabiliyyətliliyinə görə “Qlobal Rəqabətqabiliyyətlilik Hesabatı” adı altında siyahı tərtib olunur. 2019 - cu il hesabatında 141 ölkə yer almışdır ki, Azərbaycan bu sıralamada 2018 - ci il hesabatına nəzər yetirdikdə 11 pillə yüksələrək 58-ci yerdə qərarlaşmışdır. Qlobal Rəqabətqabiliyyətlilik Hesabatında ölkələrin yeri 12 əsas göstərici əsasında müəyyən olunur ki, ölkəmiz ötən ilə nisbətən bu göstəricilərin 8-i üzrə yerini yaxşılaşdırmışdır. Həmçinin ölkəmiz bu göstəricilərin 8-də MDB ölkələri arasında yüksək mövqelər tutmuşdur. 2019-cu il hesabatında Azərbaycan 2018-ci il hesabatı ilə müqayisədə “institutlar” göstəricisi üzrə 9 pillə, “infrastruktur” göstəricisi üzrə 8 pillə, “makroiqtisadi mühitin sabitliyi” göstəricisi üzrə 23 pillə, “ali təhsil və təlim” göstəricisi üzrə 6 pillə, “əmtəə və xidmətlər bazarının səmərəliliyi” göstəricisi üzrə 14 pillə, “əmək bazarının səmərəliliyi” göstəricisi üzrə 19 pillə, “biznesin inkişafı” göstəricisi üzrə 8 pillə, “innovasiyanın inkişafı” göstəricisi üzrə 3 pillə irəliləyərək müvafiq olaraq 49, 38, 103, 48, 23, 21, 23 və 68-ci yerləri tutmuşdur. 2019-cu il hesabatında “G-20” ölkələri də yer almışdır ki, bunlardan Rusiya 43-cü, İtaliya 30-cu, Cənubi Afrika Respublikası 60-cı , Türkiyə 61-ci, İndoneziya 50-ci, Braziliya 71-ci, Hindistan 68-ci, Argentina 83-cü və.s yerdədir. Ölkəmiz bu ölkələrin bəzilərini geridə qoymuşdur. Ölkəmiz, həmçinin Cənubi Qafqaz regionunda yerləşən Gürcüstan (74-cü yer) və Ermənistanı da (69-cu yer) geridə qoyaraq regionda liderdir. Metodologiyası dəyişdirilən 2019-cu il hesabatında ölkəmiz əhalinin elektrik enerjisi ilə təchizatına görə 100 faizlik nəticə göstərərək bütün ölkələri qabaqlamış və sıralamada 1-ci yeri tutmuşdur.

Bununla yanaşı, Dünya bankı tərəfindən hər il “Doing Business” hesabatı tərtib olunur. Son illərdə keçirilən islahatlar ölkəmizin “Doing Business 2019” hesabatında ən çox islahat aparan 10 ölkəsi siyahısına daxil edilmişdir. Dünya Bankı tərəfindən 2017-ci ildə dərc olunan “Doing Business 2017” hesabatında 190 ölkə arasında 65-ci sırada olan ölkəmiz “Doing Business 2018” hesabatında ötən il ilə müqayisədə 8 pillə yüksələrək 57-ci yerə gəlmişdir. Son illərdə nail olunan

iqtisadi inkişafın nəticəsidirki, Azərbaycan “Doing Business 2019” hesabatında 2018-ci il ilə müqayisədə 32 pillə yüksələrək 25-ci yerə sahib olmuşdur.

Rəqabətqabiliyyətliyin təmin edilməsi və bu sahədə xarici təcrübələrlə bağlı tədqiqat işimizdə xarici ölkələrin rəqabətqabiliyyətlik sahəsində gördükləri işlərin və xüsusilə də ölkələrin rəqabətqabiliyətliyini göstərən dövrü olaraq Dünya İqtisadi Forumu tərəfindən nəşr edilən ən son hesabatın təhlilindən sonra aşağıdakı nəticələri əldə etdik.

Bir çox ölkələrdə azad bazar iqtisadiyyatının formalaşdırılması, iqtisadiyyatın inkişafı məqsədilə dövlət tərəfindən lazımi infrastrukturun qurulması, sahibkarlıq fəaliyyətinə başlayanlar üçün istər hüquqi, istərsə də maliyyə dəstəyinin verilməsi ilə yanaşı innovasiya fəaliyyətinin genişləndirilməsi, xarici investisiyanın ölkəyə cəlb edilməsi, eləcə də daxili investorlar üçün daha səmərəli mühitin yaradılması, daxili resurslardan səmərəli istifadə etmək yoluyla daxili istehsalın genişləndirilməsinə nail olmaq və hətta həmin məhsulların ixracının təşkili məsələlərinə xüsusi diqqət yetirdiklərini gördük.

Çin, Hindistan, Almaniya, Sinqapur, Birləşmiş Krallıq, tarixən yaxın qonşularımız olan Rusiya Federasiyası və hətta qapalı iqtisadiyyata malik İran İslam Respublikasında azad iqtisadi zonalar yaratmışlar.

Son olaraq qeyd etmək istərdim ki, bugün çox sevindirici haldır ki, ölkəmizdə milli iqtisadiyyatın gücləndirilməsi istiqamətində uğurlu hesab edilən xarici təcrübələrdən istifadə edilməyə başlanmışdır. Buna misal olaraq son dövrlərdə yardılmış Ələt azad iqtisadi zonasını, sənaye və texnologiya parklarını və digər işləri göstərmək mümkündür.

Müasir dövrdə iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi hər bir ölkə üçün zəruridir. Hər bir ölkə iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi üçün gərəkli olan göstəricilərin hər biri üzrə daim irəliləyişə nail olunmasını istəyir və bunun üçün səy göstərir. Bundan əlavə, iqtisadiyyatın rəqabət qabiliyyətinin təmin edilməsi üçün zəruri olan mexanizmlərin təkmilləşdirilməsi və yeni mexanizmlər üzərində işlənilməsi müasir dövrdə hər bir dövlət üçün vacib məsələlərdəndir.

Hazırkı dövrümüzdə ölkəmizin iqtisadiyyatın rəqabət qabiliyyətinin göstəricilər sisteminə daxil olan göstəricilərin hər biri üzrə inkişafının və rəqabətqabiliyyətliliyin təmin edilməsi mexanizmlərinin işlənilməsinin hansı səviyyədə olduğunu öyrənmək üçün növbəti fəsildə Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətinin müasir vəziyyəti təhlil olunmuşdur.

# II FƏSİL . AZƏRBAYCAN İQTİSADİYYATININ RƏQABƏT QABİLİYYƏTİNİN MÜASİR VƏZİYYƏTİNİN TƏHLİLİ

## 2.1. Azərbaycan Respublikasının iqtisadiyyatının makroiqtisadi təhlili

Məlumdur ki, hər il hər bir ölkədə olduğu kimi Azərbaycanda da müxtəlif dövlət qurumları tərəfindən hər bir sahə üzrə statistik məlumatlar nəşr olunur. Bu məlumatlarda iqtisadiyyatla bağlı göstəricilərə, rəqəmlərə daha çox rast gəlmək olar.

İqtisadiyyatın makroiqtisadi təhlilini apararkən ölkənin ÜDM-i haqqında bəhs etməmək düzgün olmaz. İstər Azərbaycanda müəyyən qurumlar, istərsə də beynəlxalq təşkilatlar tərəfindən müxtəlif jurnallarda hər bir ölkənin ÜDM üzrə statistikası nəşr olunur. 3 nömrəli cədvəldə də Azərbaycanın 2015-2019-cu illər üçün olan ÜDM statistikası verilmişdir.

**Cədvəl 3: Azərbaycanın 2015-2019-cu illər üçün olan ÜDM-i**

| İllər | Milyon manat | Milyon ABŞ dolları | Hər nəfərə | |
|---|---|---|---|---|
| | | | Manat | Dollar |
| 2015 | 54380.0 | 52996.8 | 5706.6 | 5561.5 |
| 2016 | 60425.2 | 37862.8 | 6269.6 | 3928.6 |
| 2017 | 70337.8 | 40867.9 | 7226.0 | 4198.5 |
| 2018 | 80092.0 | 47112.9 | 8156.2 | 4797.7 |
| 2019 | 81681.0 | 48047.6 | 8247.0 | 4851.2 |

**Mənbə:** Dövlət Statistika Komitəsinin məlumatları əsasında tərtib edilmişdir. https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/azfigures_2020.zip

Bildiyimiz kimi 2015-ci ildə fevral və dekabr aylarında devalvasiya olmuşdur. Fevral ayında baş verən devalvasiya nəticəsində manatın məzənnəsi dollara qarşı 0.78-dən 1.05-dək dəyər itirmişdir. Həmin ilin dekabr ayında baş verən devalvasiyada isə manat dollara qarşı dəyərini fevral ayında baş verən devalvasiyaya nisbətən daha çox itirmiş, belə ki, manatın dəyəri 1.05-dən 1.55-ə düşmüşdür. Sonradan 1.90-a ensə də hal-hazırda dəyərini 1.70 olaraq saxlamaqdadır. Bu devalvasiyalar da ÜDM-ə təsirsiz ötüşməmişdir. Manat uzun müddət idi ki, dollara qarşı məzənnəsini 0.78 olaraq saxlayırdı. 2014-cü il ARDSK-nin məlumatlarına əsasən Azərbaycanın ÜDM-i 59 milyard 14 milyon manat, 2015-ci ildə isə 54 milyard 380 milyon olmuşdur. 1 il ərzində ÜDM-dəki 5

milyard manatlıq azalmaya devalvasiyanın da müəyyən təsirləri olmuşdur. 2015-ci ildən hazırki dövrümüzə qədər olan rəqəmlərə baxdıqda isə həm ümumi ÜDM-də, həm də adambaşına düşən ÜDM-də artım olduğunu görə bilərik. Ölkəmiz gənc ölkə olmasına baxmayaraq, istər adambaşına düşən ÜDM, istərsə də ÜDM-ə görə MDB məkanında qabaqcıl ölkələrdən sayılır. Bunu aşağıdakı cədvəldən daha aydın görə bilərik.

**Cədvəl 4: MDB ölkələrinin 2015-2019-cu illər üçün olan ÜDM statistikası (milyon dollarla)**

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|
| Azərbaycan | 52 996,8 | 37 862,8 | 40 867,9 | 47 112,9 | 48 047,6 |
| Belarus | 55 316,8 | 47 497,2 | 54 698,3 | 59 586,5 | 63 174,1 |
| Ermənistan | 10 553,3 | 10 546,1 | 11 527,4 | 12 433,1 | 13 672,7 |
| Qazaxıstan | 184 387,0 | 137 278,3 | 162 887,4 | 172 938,7 | 181 665,9 |
| Qırğızıstan | 6 633,4 | 6 864,4 | 7 700,5 | 8 081,9 | 8 457,2 |
| Moldova | 7 746,2 | 8 071,5 | 9 674,4 | 11 443,0 | 11 968,7 |
| Özbəkistan | 81 866,3 | 81 727,2 | 59 076,5 | 50 535,7 | 57 906,8 |
| Rusiya | 1369 836,9 | 1285 713,1 | 1578 970,5 | 1 660 949,8 | 1 700 078,0 |
| Tacikistan | 7 852,8 | 6 952,8 | 7 157,9 | 7 523,0 | 8 116,9 |
| Türkmənistan | 35 800,0 | 36 180,0 | 37 926,3 | 44 114,3 | 46 674,3 |
| Ukrayna | 91 262,3 | 93 352,0 | 114 589,0 | 131 804,9 | 154 961,1 |

**Mənbə:** Dövlət Statistika Komitəsinin məlumatları əsasında tərtib olunmuşdur https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/system_nat_accounts_2020.zip

Cədvəl 4-ə nəzər saldıqda görərik ki, Azərbaycan ÜDM göstəricisinə görə son 5 ilin hər birində MDB-ə daxil olan Belarus, Ermənistan, Qırğızıstan, Moldova, Tacikistan, Türkmənistan kimi ölkələrdən üstündür. Ölkəmiz nəinki ümumi ÜDM göstəricisi üzrə, həmçinin adambaşına düşən ÜDM üzrə də Qırğızıstan, Ermənistan, Moldova, Özbəkistan, Tacikistan, Ukrayna kimi ölkələri qabaqlamağı bacarmışdır. Azərbaycanın ÜDM-ni dollardan manata çevirsək, görərik ki, 2015, 2016, 2017, 2018, 2019-cu illərdə müvafiq olaraq 54 milyard, 60 milyard, 70 milyard, 80 milyard və 81 milyard manatla son 5 ildə hər il artıma nail olmuşdur.

Ölkəmizdə sənaye sahəsinin, xüsusilə də neft və qaz sənayesinin inkişafı özünü ÜDM-in sahəvi strukturunda açıq şəkildə büruzə verir. Təkcə 2019-cu ildə sənaye istehsal olunmuş ÜDM-in 40%-dən çox hissəsini təşkil etmişdir. Daha ətraflı məlumat üçün aşağıdakı diaqrama nəzər yetirək.

**Şəkil 1: 2019-cu ildə istehsal olunmuş Ümumi Daxili Məhsulun sahəvi strukturu**




**Mənbə:** Dövlət Statistika Komitəsinin məlumatları əsasında tərtib olunmuşdur https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/stat-yearbook_2020.zip

Azərbaycanda sənaye sahəsinin, xüsusilə də neft sənayesinin inkişafı və onun ölkə iqtisadiyyatındakı əhəmiyyəti ÜDM-in sahəvi strukturunda özünü göstərir. Belə ki, 2019-cu ildə ÜDM-in sahəvi strukturunda ən çox pay 41.4% ilə sənaye sahəsinə aiddir. Bu nəticə ilə digər sahələrdən açıq ara üstündür. Bununla yanaşı, ticarət və tikinti sahəsinin ÜDM-dəki payı müvafiq olaraq 10% və 7.3% təşkil etmişdir. 2019-cu ildə idxala tətbiq olunan vergilərin ÜDM-dəki payı 8.7% təşkil etmişdir ki, 2018-ci il ilə müqayisədə 0.9% artmışdır. Ümumilikdə, məhsula və idxala tətbiq olunan vergilərlə yanaşı, kənd təsərrüfatı, ticarət, turistlərin yerləşdirilməsi və ictimai iaşə, informasiya və rabitə sahəsində də 2018-ci il ilə müqayisədə artım olmuşdur. Bunlardan əlavə digər sahələrin ümumilikdə 2019-cu ildə istehsal olunmuş ÜDM-də payı 16.7% təşkil etmişdir.

Azərbaycanın ÜDM göstəricisi üzrə illik statistikası yalnız yerli qurumlar tərəfindən deyil, DB, BVF kimi beynəlxalq qurumlar tərəfindən də müəyyən olunur. BVF tərəfindən çap edilən "World Economic Outlook Database"-in son

nəşrində və DB-nın “Dünya İnkişaf Göstəriciləri” başlıqlı məlumat bazasında verilən göstəricilərdən biri ÜDM-dir ki, burada Azərbaycanın keçmiş illərdə olan statistikası ilə yanaşı, gələcək illərin ÜDM-i üzrə statistikası da proqnoz edilir. BVF-in və DB-nin məlumatlarına əsasən ölkəmiz ÜDM-in illik artımında 2015-ci ildə 1%, 2016-cı ildə -3.1%, 2017-ci ildə 0.2%, 2018-ci ildə 1.5%, 2019-cu ildə isə 2.2% nəticələr əldə etmişdir ki, 2016-cı ildən başqa digər illərdəki nəticələr müsbət olmuşdur. Buna da təsir edən əsas səbəblərdən biri kimi baş verən devalvasiyaları göstərə bilərik. BVF-in məlumatlarında adam başına düşən ÜDM 2015-ci ildə 5.3 min, 2016-cı ildə 3.9 min, 2017-ci ildə 4.22 min, 2018-ci ildə 4.76 və 2019-cu ildə isə 4.81 min dollar verilmişdir. DB-da isə bu rəqəmlər illərə müvafiq olaraq 5.5 min, 3.8 min, 4.14 min, 4.73 min və 4.79 min dollar təşkil etmişdir. ÜDM-in adambaşına düşən alıcılıq qabiliyyəti paritetinə görə isə Azərbaycanın nəticələri həmin illərə müvafiq olaraq BVF-də 15.03 min, 14.45 min, 14.18 min, 14.61 min və 15.08 min dollar, DB-da isə 14.93 min, 14.37 min, 14.12 min, 14.55 min və 15.04 min dollar təşkil etmişdir. BVF-in proqnozuna əsasən Azərbaycanın ÜDM-i 2020-ci ildə 70.833, 2021-ci ildə 76.530, 2022-ci ildə isə 80.451 milyard manat təşkil edəcəkdir (https://www.imf.org/-/media/Files/Publications/WEO/2020/October/English/text.ashx). DB-nin də proqnozlarına əsasən 2020-ci ilin ÜDM-ində 5% geriləmə, 2021-ci ildə 1.9%, 2022-ci ildə isə 4.5% irəliləyiş olacaqdır (https://openknowledge.worldbank.org/bitstream/handle/10986/34710/9781464816123.pdf?sequence=15&isAllowed=y). 2020-ci ilin ÜDM proqnozunun 2019-cu il ÜDM statistikasına nisbətən az olma səbəblərinə misal olaraq, şübhəsiz ki, “Covid-19” pandemiyasını götürə bilərik.

Əsas makroiqtisadi göstəricilərdən olan inflyasiya ölkəmizdə son 5 ildə dinamikliyi ilə seçilmişdir. Aşağıdakı qrafikdə Azərbaycanda son 5 ilin inflyasiya statistikası verilmişdir.

**Qrafik 1: 2015-2019-cu illər üçün Azərbaycanda inflyasiya dərəcəsi**




**Mənbə:** Dövlət Statistika Komitəsinin məlumatları əsasında tərtib olunmuşdur https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/stat-yearbook_2020.zip

ARDSK-nın məlumatlarına əsasən Azərbaycanda 2015-ci ildə 4%, 2016-cı ildə 12.4%, 2017-ci ildə 12.9%, 2018-ci ildə 2.3% və 2019-cu ildə isə 2.6% inflyasiya olmuşdur ki, bu rəqəmlərə nəzər yetirsək görərik ki, son 5 ildə ən çox qiymət artımı 2016 və 2017-ci illərdə olmuşdur. 2015-ci ildə baş verən devalvasiyaların, xüsusilə də dekabr ayında baş verən 2-ci devalvasiyanın 2016 və 2017-ci illərdəki qiymətlərin səviyyəsinə mənfi təsirləri olmuşdur. 2018-ci ildən etibarən isə vəziyyət yaxşılaşmağa başlamışdır. Əlavə olaraq ərzaq məhsulları, qeyri-ərzaq məhsulları və ödənişli xidmətlər üzrə də inflyasiya dərəcələri hesablanır ki, bunlar ümumi qiymət indeksinin tərtib olunması üçün mütləqdir. Ərzaq məhsullarının qiymətlərində 2015-ci ildə 6.1%, 2016-cı ildə 14.7%, 2017-ci ildə 16.4%, 2018-ci ildə 1.7%, 2019-cu ildə isə 3.8% artım olmuşdur. Qeyri-ərzaq məhsulları və ödənişli xidmətlərdə isə müvafiq olaraq 2015-ci ildə 3.8% və 1.2%, 2016-cı ildə 16.7% və 5.8%, 2017-ci ildə 11.6% və 9.3%, 2018-ci ildə 2.6% və 2.7%, 2019-cu ildə isə 1.2% və 2% qiymət artımları olmuşdur. DB və BVF kimi beynəlxalq təşkilatlar hər il hər bir ölkə üçün gələcək illərə olan inflyasiya proqnozlarını verirlər. DB-nin proqnozlarına əsasən Azərbaycanda 2020-ci ildə 3.3%, 2021-ci ildə 2.9%, 2022-ci ildə isə 2.8% inflyasiya olacaqdır(https://openknowledge.worldbank.org/bitstream/handle/10986/34710/978146481612

3.pdf?sequence=15&isAllowed=y). BVF-in proqnozlarına görə isə 2020-ci ildə 3%, 2021-ci ildə 3.1%, 2022-ci ildə 3.2% inflyasiya olacağı gözlənilir(https://www.imf.org/-/media/Files/Publications/WEO/2020/October/English/text.ashx).

Əsas makroiqtisadi göstərici kimi toxunulması vacib olan məsələlərdən biri də işsizlikdir. Hər il istər beynəlxalq təşkilatlar, istərsə də milli qurumlar tərəfindən tərtib edilən hesabat və bülletenlərdə AR-nın əmək bazarı haqqında məlumatlar verilir. Ölkənin makroiqtisadi təhlilində inflyasiyadan sonra işsizlikdən bəhs etməmək olmaz. Aşağıdakı qrafikdə son 5 ildə Azərbaycanda işsizlik səviyyəsinin statistikasına nəzər yetirək.

**Qrafik 2: 2015-2019-cu illər ərzində Azərbaycanda işsizlik səviyyəsi**




**Mənbə:** Dövlət Statistika Komitəsinin məlumatları əsasında tərtib olunmuşdur https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/stat-yearbook_2020.zip

ARDSK-nın məlumatlarına əsasən Azərbaycanda işsizliyin səviyyəsi 2015, 2016, 2017-ci ildə 5%, 2018-ci ildə 4.9%, 2019-cu ildə isə 4.8% olmuşdur. Son 5 ilin işsizlik statistikasına görə Azərbaycanın MDB ölkələri arasında işsizlik səviyyəsi aşağı olan 4 ölkədən biridir. 2015-ci ildə ölkədə 243700, 2016-cı ildə 252800, 2017-ci ildə 251700, 2018-ci ildə 253800, 2019-cu ildə isə 251600 nəfər işsiz insan olmuşdur. İşsiz əhalinin 2015-ci ildə 57.9%-ni, 2016-cı ildə 57.5%-ni, 2017-ci ildə 57.8%-ni, 2018-ci ildə 57.4%-ni, 2019-cu ildə isə 57.3%-ni qadınlar

təşkil etmişdir. Məşğul əhalinin sayına gəldikdə isə son 5 ildə əhalinin təxminən 50%-a yaxın hissəsi işlə təmin olunmuşdur. Belə ki, Azərbaycanda 2015-ci ildə 4671600, 2016-cı ildə 4759900, 2017-ci ildə 4822100, 2018-ci ildə 4879300 və nəhayət 2019-cu ildə 4938500 nəfər insan işlə təmin olunmuşdur. Bazar iqtisadiyyatı dövründə inflyasiyanın yüksək olması işsizliyin səviyyəsinin aşağı olmasına gətirib çıxarır.

Bildiyimiz kimi, Azərbaycan iqtisadiyyatında tədiyə balansının strukturu cari əməliyyatlar hesabı, kapital hesabı, maliyyə hesabı, balanslaşdırıcı maddələr və ehtiyat aktivlərdən ibarətdir. Tədiyə balansının vəziyyəti işsizlik, ÜDM, inflyasiya və s. kimi əsas makroiqtisadi göstəricilərin əksəriyyəti ilə sıx bağlı olduğundan milli iqtisadiyyatın və iqtisadiyyatın rəqabət qabiliyyətinin inkişafına mühüm təsir göstərir. Azərbaycanın tədiyə balansının ümumi saldosunda son 5 ilin hər birində artım olmuşdur. 5 nömrəli cədvəldə tədiyə balansının digər hesabları ilə bağlı məlumat verilmişdir.

**Cədvəl 5: Azərbaycanın tədiyə balansı (mlyn dollar)**

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|
| Cari əməliyyatlar hesabı | -222.5 | -1 363.4 | 1 684.5 | 6 051.1 | 4 364.9 |
| Kapital hesabı | -43.9 | -40.1 | 100.4 | 1.4 | -18.6 |
| Maliyyə hesabı | -9 025.2 | -2 761.5 | -201.4 | -3 190.8 | 134.8 |
| Balanslaşdırıcı maddələr | -2 037.4 | 3 625.8 | 387.8 | 646.4 | 661.8 |
| Tədiyə balansının ümumi saldosu (Ölkənin ehtiyat aktivlərinin dəyişməsi) | -11 329.0 | -539.2 | 1 971.3 | 3 508.1 | 5 142.9 |

**Mənbə:** Mərkəzi Bankın məlumatları əsasında tərtib olunmuşdur https://www.cbar.az/page-43/external-sector-statistics

Son 5 ildə Azərbaycanın tədiyə balansına baxdıqda görərik ki, ölkənin ehtiyat aktivləri 2015 və 2016-cı illərin yekununda mənfi, uyğun olaraq 11329 və 539,2 milyon, 2017, 2018, 2019-cu illərin yekununda isə müsbət, müvafiq olaraq

1971,3, 3508,1 və 5142,9, milyon olmuşdur. 2015 və 2016-cı ildə ehtiyat aktivlərlə yanaşı, cari əməliyyatlar, maliyyə və kapital hesablarında da rəqəmlər mənfidir. Cari əməliyyatlar hesabı ilə kapital hesabında 2016-cı ilədək mənfi saldo olsa da, 2017-ci ildən sonra müsbət saldo əldə edilmişdir. Maliyyə hesabında isə 134,8 milyon dollar ilə yalnız 2019-cu ildə müsbət saldo əldə edilmişdir. Tədiyə balansında kəsir olduğu zaman bu fərq ehtiyat aktivlər vasitəsilə bağlanmalıdır. 2015-ci ildə balanslaşdırıcı maddələrdə əks olunan fərq -2037,4 milyon dollar, 2016-cı ildə 3625,8 milyon dollar, 2017-ci ildə 387,8 milyon dollar, 2018-ci ildə 646,4 milyon dollar və 2019-cu ildə 661,8 milyon dollar olmuşdur.

Tədiyə balansının tərkib hissəsi olan xarici ticarət dövriyyəsinə ayrıca nəzər yetirsək görərik ki, ölkənin ixracında 7 milyard dollara yaxın artım olmuşdur. İdxal, saldo və s. digər məlumatlar üçün aşağıdakı cədvələ nəzər yetirək.

**Cədvəl 6: Azərbaycanın xarici ticarət dövriyyəsi (milyon ABŞ dollar)**

| | **2015** | **2016** | **2017** | **2018** | **2019** |
|---|---|---|---|---|---|
| **Xarici ticarət dövriyyəsi** | 21 945,8 | 21 946,7 | 24 103,3 | 30 955,0 | 33 302,8 |
| **İxrac** | 12 729,1 | 13 457,6 | 15 320,0 | 19 489,1 | 19 635,6 |
| **İdxal** | 9 216,7 | 8 489,1 | 8 783,3 | 11 465,9 | 13 667,2 |
| **Saldo** | 3 512,4 | 4 968,5 | 6 536,7 | 8 023,2 | 5 968,4 |

**Mənbə:** Dövlət Statistika Komitəsinin məlumatları əsasında tərtib olunmuşdur https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/stat-yearbook_2020.zip

Həm tədiyə balansının, həm də onun cari əməliyyatlar hesabının əsas tərkib hissələrindən biri xarici ticarət balansıdır. Azərbaycanın xarici ticarət dövriyyəsi 2015-ci ildən 2019-cu ilədək 21 milyarddan 33 milyarda qədər artmışdır. Bu illərin hər birində ixrac idxalı üstələmişdir ki, ən yüksək saldo 2018-ci ildə qeydə alınmışdır. Belə ki, 2018-ci ildə ölkədə ixrac 19489,1 milyon, idxal isə 11465,9 milyon dollar olduğundan xarici ticarət balansı 8023,2 milyon təşkil etmişdir.

Azərbaycanın xarici ticarət dövriyyəsində ən çox paya malik ölkələr İtaliya, Türkiyə, Rusiya və Çindir. Azərbaycanın bu ölkələrdən İtaliya və Türkiyə ilə xarici ticarət balansı müsbətdir. Aşağıdakı cədvəldə ətraflı məlumat verilmişdir.

**Cədvəl 7: 2019-cu ildə Azərbaycanın xarici ticarət dövriyyəsinin göstəriciləri (milyon ABŞ dolları)**

| Ölkə qrupları | Xarici ticarət dövriyyəsi | İdxal | İxrac | Ticarət balansı |
|---|---|---|---|---|
| **Cəmi** | 33 302,8 | 13 667,2 | 19 635,6 | 5 968,4 |
| O cümlədən: | | | | |
| MDB ölkələri | 4 611,0 | 3 432,5 | 1 178,5 | -2 254,0 |
| Avropa İttifaqı ölkələri | 12 929,9 | 2 430,7 | 10 499,2 | 8 068,5 |
| Digər ölkələr | 15 761, 9 | 7 804,0 | 7 957,9 | 153,9 |

**Mənbə:** Dövlət Statistika Komitəsinin məlumatları əsasında tərtib edilmişdir https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/azfigures_2020.zip

2019-cu ildə Azərbaycanın xarici ticarət dövriyyəsi 33302,8 milyon, ixracı 19635,6 milyon, idxalı 13667,2 milyon, xarici ticarət balansı isə 5968,4 milyon dollar təşkil etmişdir. Azərbaycanın xarici ticarət dövriyyəsində MDB ölkələri 13,8%, Aİ ölkələri 38,8%, Digər ölkələr isə 47,3% paya malikdirlər.

İnvestisiyalar da əsas makroiqtisadi göstəricilərə təsir göstərən, tədiyə balansının əsas tərkib hissələrindən biridir. Son 5 ilin hər birində ölkə iqtisadiyyatına yönəldilən investisiyaların daha çox hissəsini xarici investisiyaların təşkil ölkə iqtisadiyyatı üçün müsbət haldır. 8 nömrəli cədvəldə bununla bağlı daha ətraflı məlumat verilmişdir.

**Cədvəl 8: İqtisadiyyata yönəldilən investisiyalar**

| | **2015** | **2016** | **2017** | **2018** | **2019** |
|---|---|---|---|---|---|
| **Bütün mənbələr üzrə investisiya qoyuluşları(xarici investisiyalar nəzərə alınmaqla)** | | | | | |
| Mlyn.manat | 20 057,4 | 22 706,4 | 24 462.5 | 25 877.0 | 24 114.9 |
| Mlyn.dollar | 19 547,2 | 14 228,0 | 14 213.3 | 15 221.7 | 14 185.2 |
| **Xarici investisiyalar** | | | | | |
| Mlyn.manat | 10 998,9 | 16 216,1 | 15 697.3 | 14 002.1 | 12 119.5 |
| Mlyn.dollar | 10 719,1 | 10 161,1 | 9 120.5 | 8 236.5 | 7 129.1 |
| **Daxili investisiyalar** | | | | | |
| Mlyn.manat | 9 058,5 | 6 490,3 | 8 765.2 | 11 874.9 | 11 995.4 |
| Mlyn.dollar | 8 828,1 | 4 066,9 | 5 092.8 | 6 985.2 | 7 056.1 |

**Mənbə:** Dövlət Statistika Komitəsinin məlumatları əsasında tərtib olunmuşdur https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/azfigures_2020.zip
https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/azfigures_2019.zip

Yuxarıdakı cədvələ nəzər yetirdikdə görürük ki, ümumi olaraq iqtisadiyyata son 5 ildə yönəldilən investisiyaların miqdarı 20 milyardla 25 milyard arasında dəyişir. Belə ki, 2015-ci ildə Azərbaycan iqtisadiyyatına 20 milyard 57 milyon manat investisiya yatırılmışdırsa, bu ədəd 2018-ci ildə 25 milyard 877 milyon manata qədər yüksəlmişdir. 2019-cu ildə isə yatırılan investisiyaların miqdarı 24 milyard 114 milyon manata qədər azalmışdır. İqtisadiyyata yatırılmış investisiyaların dollarla ifadəsində 2015-ci ilə nisbətən 2016-cı ildə baş verən kəskin azalmanın səbəbi isə 2015-ci ildə baş verən devalvasiyalardır. İqtisadiyyata yönəldilən investisiyaların 2015-ci ildə 54.8%-ni, 2016-cı ildə 71.4%-ni, 2017-ci ildə 64.2%-ni, 2018-ci ildə 54.1%-ni, 2019-cu ildə isə 50.3%-ni xarici investisiyalar təşkil etmişdir. Buradan aydın nəzərə çarpır ki, son 5 ilin hər birində daxili investisiyalarla müqayisədə xarici investisiyalar üstünlük təşkil etmişdir. Xarici investisiyaların tərkibi ilə bağlı ətraflı məlumat almaq üçün 9 nömrəli cədvələ nəzər salaq.

**Cədvəl 9: Xarici investisiyalar (mlyn. ABŞ dolları)**

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|
| **Cəmi xarici investisiya** | **10 719,1** | **10 161,1** | **9 120.5** | **8 236.5** | **7 129.1** |
| O cümlədən: | | | | | |
| Birbaşa investisiyalar | 7 483,1 | 7 323,6 | 5713.8 | 4109.1 | 4 275.3 |
| O cümlədən: | | | | | |
| Neft sektoruna | 6 622,7 | 5 617,4 | 4 900.8 | 3 142.0 | 3 345.2 |
| Qeyri-neft sektoruna | 860,4 | 1 706,2 | 813.0 | 967.1 | 930.1 |
| Digər investisiyalar | 3 236,0 | 2 837,5 | 3 406.7 | 4 127.4 | 2 853.8 |

**Mənbə:** Dövlət Statistika Komitəsinin məlumatları əsasında tərtib olunmuşdur
https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/azfigures_2020.zip
https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/azfigures_2019.zip

Bundan əvvəlki cədvəldə xarici investisiyaların miqdarının manatla ifadəsindən və ümumi olaraq iqtisadiyyata yönəldilən investisiyaların nə qədər hissəsini təşkil etməsindən bəhs etdik. 9 nömrəli cədvəldən də aydın göründüyü kimi, ölkə iqtisadiyyatına yönəldilən xarici investisiyaların əksər hissəsini birbaşa investisiyalar təşkil etmiş və bu investisiyaların da çox hissəsi neft sektoruna

yatırılmışdır. Belə ki, 2015-ci ildə cəmi xarici investisiyaların 69.8%-ni, 2016-cı ildə 72.1%-ni, 2017-ci ildə 62.6%-ni, 2018-ci ildə 49.9%-ni, 2019-cu ildə isə 59.9%-ni birbaşa investisiyalar təşkil etmişdir. Hər il üçün də qalan hissələri portfel, qeyri-maliyyə və.s investisiyaları təşkil etmişdir. Bu illər ərzində yalnız 2018-ci ildə birbaşa investisiyaların payı cüzi də olsa digər investisiyaların payından geri qalmışdır. Son dövrlərdə ölkə iqtisadiyyatının neft sektorundan asılılığını azaltmaq, qeyri-neft sektorunda daha da çox inkişafa nail olmaq üçün dövlət tərəfindən bu sahəyə daha çox xarici investisiyaların cəlb edilməsi üçün çalışılır. Lakin təəssüf ki, qeyri-neft sektoruna yönəldilən xarici investisiyalar birbaşa investisiyaların 2015-ci ildə 11.5%-ni, 2016-cı ildə 23.3%-ni, 2017-ci ildə 14.2%-ni, 2018-ci ildə 23.5%-ni, 2019-cu ildə də 21.8%-ni təşkil etmişdir.

Ölkə iqtisadiyyatına kredit qoyuluşlarının ümumi məbləği iqtisadiyyata yönəldilən investisiyalardan fərqli olaraq 2015-ci ildən 2018-ci ilədək azalmışdır. Aşağıdakı cədvəldə ümumi kredit qoyuluşları ilə yanaşı qısamüddətli və uzunmüddətli kredit qoyuluşları haqqında da məlumat əks etdirilmişdir.

**Cədvəl 10: İqtisadiyyata kredit qoyuluşları (milyon manat)**

| | **2015** | **2016** | **2017** | **2018** | **2019** |
|---|---|---|---|---|---|
| **İqtisadiyyata kredit qoyuluşları** | **21 730,4** | **16 444,6** | **11 757.8** | **13 020.3** | **15 297.2** |
| O cümlədən: | | | | | |
| Qısamüddətli | 5 297,3 | 3 478,0 | 2101.3 | 2695.1 | 2918.4 |
| Yekuna görə, faizlə | 24,4 | 21,1 | 17.9 | 20.7 | 19.1 |
| O cümlədən: | | | | | |
| Uzunmüddətli | 16 433,1 | 12 966,6 | 9656.5 | 10325.2 | 12378.8 |
| Yekuna görə, faizlə | 75,6 | 78,9 | 82.1 | 79.3 | 80.9 |

**Mənbə:** Dövlət Statistika Komitəsinin məlumatları əsasında tərtib olunmuşdur https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/azfigures_2020.zip https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/azfigures_2019.zip

ARDSK-nın hər il tərtib etdiyi ölkə iqtisadiyyatına kredit qoyuluşları ilə bağlı statistikasına əsasən, 2015-ci ildən 2017-ci ilədək iqtisadiyyata kredit qoyuluşları 21 milyard 730 milyondan 11 milyard 757 milyon manatadək azalmış, 2019-cu ildə isə 15 milyard 297 milyon manatadək artmışdır. İqtisadiyyata kredit

qoyuluşlarında son 5 ilin hər birində uzunmüddətli kredit qoyuluşlarının qısamüddətli kredit qoyuluşlarına nisbətən daha çox olmuşdur. Uzunmüddətli kredit qoyuluşları 2015-ci ildə cəmi kredit qoyuluşlarının 75.6%-ni, 2016-cı ildə 78.9%-ni, 2017-ci ildə 82.1%-ni, 2018-ci ildə 79.3%-ni, 2019-cu ildə isə 80.9%-ni təşkil etmişdir.

Beləliklə, makroiqtisadi təhlillə bağlı aparılan araşdırmalara əsasən deyə bilərik ki, ölkənin həm əsas makroiqtisadi göstəricilərin hər biri üzrə, həm də ümumi olaraq makroiqtisadi vəziyyətində zaman keçdikcə irəliləyişə nail olunur. Beynəlxalq təşkilatlar tərəfindən tərtib olunan hesabatlarda ölkəmiz makroiqtisadi vəziyyətinə görə ölkələr sıralamasında yaxşı mövqedə olmasa da, əsas makroiqtisadi göstəricilər üzrə hər il əldə olunan irəliləyiş beynəlxalq arenada da ölkənin mövqeyinin daha da yaxşılaşacağını deməyə əsas verir.

Ölkənin makroiqtisadi vəziyyətinin yaxşılaşdırılması iqtisadiyyatın rəqabət qabiliyyətinə də birbaşa təsir göstərir. Müasir dövrdə hər bir ölkədə iqtisadiyyatın rəqabət qabiliyyətinin qiymətləndirilməsi məsələsi olduqca aktualdır. Yalnız ölkə daxilində deyil, beynəlxalq arenada da təşkilatlar tərəfindən bu məsələ ilə bağlı hesabatlar tərtib olunur. Növbəti paraqrafda iqtisadiyyatın rəqabət qabiliyyətinin müasir vəziyyəti dərindən araşdırılmışdır.

## 2.2. Milli iqtisadiyyatının rəqabət qabiliyyətinin müasir vəziyyətinin qiymətləndirilməsi

Müasir dövrdə hər bir ölkə iqtisadiyyatının ümumi rəqabət qabiliyyətini yüksəltmək üçün iqtisadiyyatın hər bir sahəsinin rəqabət qabiliyyətini yüksəltmək üçün səy göstərir. Bu səylərin nəticəsi olaraq hər il müxtəlif beynəlxalq təşkilatlar tərəfindən dünya ölkələrinin iqtisadiyyatlarının rəqabətqabiliyyətliliyinə görə sıralamaları müəyyən olunur və il sonunda hər bir beynəlxalq təşkilat tərəfində hesabat nəşr olunur. Bu təşkilatlardan biri də Dünya İqtisadi Forumudur(DİF). Hər il DİF tərəfindən dünya ölkələrinin rəqabətqabiliyyətliliyinin səviyyəsini göstərən "Qlobal Rəqabətqabiliyyətlilik Hesabatı" adı ilə hesabat nəşr edilir. 2015-2019-cu illər arasındakı hesabatlara nəzər saldıqda görə bilərik ki, 2018 və 2019-cu illərdə nəşr olunan hesabatlarda ölkələrin iqtisadiyyatlarının rəqabətqabiliyyətlilik sıralaması "Qlobal Rəqabətqabiliyyətlilik İndeksi 4.0" başlığı ilə tərtib olunmuşdur və bu hesabatlarda hər bir ölkənin iqtisadiyyatının rəqabətqabiliyyətlilik xalı digər illərə nisbətən fərqli qaydada hesablanmışdır. Bu hesabatlarda iqtisadiyyatların rəqabətqabiliyyətlilik sıralaması DİF tərəfində 12 əsas göstəriciyə əsasən müəyyən olunur.

DİF-in "Qlobal Rəqabətqabiliyyətlilik Hesabatı 2018" hesabatında Azərbaycan 60 xalla 140 ölkə arasında 69-cu yerdə qərarlaşmışdır. 2019-cu il hesabatında isə ölkəmiz nəticəsini 11 pillə yaxşılaşdıraraq 62.7 xalla 141 ölkə içərisində 58-ci yeri tutmuşdur. Bu hesabatlarda ölkələrin yalnız ümumi nəticələri deyil, həmçinin 12 göstəricinin hər biri üzrə nəticələri verilir.

Təşkilat və qurumlar göstəricisinə nəzər saldıqda görərik ki, ölkəmiz bu göstərici üzrə 2018-ci ildə 55.8 xalla 140 ölkə içərisində 58-ci yerdə idisə, 2019-cu il hesabatında 9 pillə irəliləyərək 58.5 xalla 49-cu yerə yüksəlmişdir. Hər bir əsas göstəricinin bir neçə alt göstəricisi vardır ki, 1-ci əsas göstəriciyə cinayət dərəcəsi, sosial kapital, mətbuat azadlığı, korrupsiya halları, mülkiyyət hüquqları, hökumətin siyasətdə sabitliyi təmin etməsi və s. kimi alt göstəricilər aiddir. Bu alt göstəricilər üzrə ölkəmiz 2019-cu il hesabatında müvafiq olaraq 94.9 xalla 64, 41.7 xalla 124, 40.9 xalla 133, 25 xalla 127, 68.1 xalla 37, 73.6 xalla 11, 27.5 xalla 87-

ci yerdə qərarlaşmışdır. 2018-ci ilin rəqəmləri ilə müqayisə etdikdə görərik ki, Azərbaycan bu göstəricinin əksər alt göstəriciləri üzrə mövqeyini yaxşılaşdırmışdır.

Ölkələrin sıralamadakı yerini müəyyən edən növbəti rəqabətqabiliyyətlilik göstəricisi infrastruktur mühitidir. 2019-cu il hesabatında ölkəmiz 77.4 xalla 38-ci yerdə qərarlaşmışdır. 2018-ci ildə bu göstərici üzrə 73.6 xalla 46-cı yerdə olduğunu nəzərə alaraq bu sahədə müəyyən dərəcədə irəliləyiş olduğunu deyə bilərik. Bu göstəricinin "yolların keyfiyyəti" alt göstəricisi üzrə ölkəmiz 2018-ci ildə 63 xalla 34-cü, 2019-cu ildə isə 69.4 xalla 27-ci yerdə qərarlaşmışdır. "Dəmiryolu və hava nəqliyyatı xidmətlərinin səmərəliliyi" alt göstəriciləri üzrə müvafiq olaraq ölkəmiz 2018-ci ildə 63.2 və 80 xalla 17-ci və 12-ci, 2019-cu ildə isə 70.8 və 79.3 xalla 11-ci və 12-ci yerləri tutmuşdur. "Əhalinin elektrik enerjisi ilə və içməli su ilə təminatı" alt göstəriciləri üzrə isə 2018-ci ildə müvafiq olaraq 100 və 92.3 xalla 1-ci və 63-cü, 2019-cu ildə də 100 və 91.5 xalla 2-ci və 60-cı yerləri tutmuşdur.

Qlobal Rəqabətqabiliyyətlilik Hesabatında önəmli göstəricilərdən biri İnformasiya və Kommunikasiya Texnologiyalarıdır(İKT). Hesabatlarda ölkəmizin bu sahə üzrə olan nəticələrinə baxsaq görərik ki, 2018-ci ildə 54, 2019-cu ildə isə xalını yüksəldərək 55.1 xala malik olsa da 69-cu yerdən 73-cü yerə geriləmişdir. Hesabatda bu göstəricinin internet istifadəçilərinin, mobil telefon istifadəçilərinin, fiber internet istifadəçilərinin və s. ölkə əhalisinə faiz nisbətləri kimi alt göstəriciləri qiymətləndirilmişdir. Bu alt göstəricilər üzrə ölkəmiz 2019-cu il hesabatında 2018-ci il ilə müqayisədə müvafiq olaraq 7 pillə geriləyərək 43-cü, 4 pillə irəliləyərək 93-cü və 9 pillə geriləyərək 64-cü yeri tutmuşdur.

Ölkə iqtisadiyyatının ümumi rəqabət qabiliyyətinə təsir edən önəmli göstəricilərdən biri də makroiqtisadi sabitlikdir ki, bu göstərici üzrə ölkəmizin nəticəsi ürəkaçan deyildir. Belə ki, 2018-ci il hesabatında 59.8 xalla 126-cı yerdə qərarlaşan ölkəmiz 2019-cu il hesabatında xalını və eyni zamanda siyahıdakı yerini yüksəldərək 70 xalla 103-cü yeri tutmuşdur. İnflyasiya səviyyəsi və borc dinamikası bu göstəricinin alt göstəriciləridir. İnflyasiya səviyyəsi üzrə ölkəmiz 2018-ci ildə 75.6 xalla 128, borc dinamikası üzrə isə 44 xalla 111, 2019-cu ildə isə

inflyasiya səviyyəsi üzrə 90.1 xalla 5, borc dinamikası üzrə 47 pillə irəliləyərək 50 xalla müvafiq olaraq 123 və 64-cü yerləri tutmuşdur.

DİF tərəfindən nəşr edilən rəqabətqabiliyyətlilik hesabatlarında ölkə iqtisadiyyatlarının sıralamasının tərtibində böyük rol oynayan göstəricilərdən biri də ölkələrin səhiyyə sistemidir. Bu sahə üzrə də ölkəmizin nəticələri o qədər də ürəkaçan deyildir. 2018 və 2019-cu illərin hesabatlarında Azərbaycanın bu göstərici üzrə xalı və sıralamadakı yeri uyğun olaraq 73.1 xalla 91-ci yer və 68.9 xalla 98-ci yer olmuşdur. Ümumi olaraq ölkəmizdə bu sahənin vəziyyəti ürəkaçan olmasa da, Azərbaycanın hesabatlardakı yerində irəliləyişə nail olunmuşdur.

Bu göstərici 2019-cu il hesabatında “bacarıqlar” kimi qeyd olunmuşdur. Burada əsasən ölkələrin təhsil sisteminə nəzər yetirilir. Ümumi siyahıda 141 ölkə olduğunu xatırlasaq, bu göstərici üzrə də ölkəmizin nəticələrini normal saymaq olar. Belə ki, 2018-ci ildə 67.8 xalla 140 ölkə içərisində 54-cü yerdə olan ölkəmiz 2019-cu ildə tərtib olunan siyahıda xalını 69.8 ə yüksəldərək 141 ölkə arasında 48-ci olmuşdur. Hesabatlarda ölkələrin bu göstəricinin müxtəlif alt göstəriciləri üzrə nəticələri göstərilmişdir. Azərbaycan “bacarıqlı işçilər tapmağın asanlığı” alt göstəricisi üzrə 2018-ci ildə 62 xalla 31-ci, 2019-cu ildə 63.2 xalla 29-cu yerdə, “aktiv əhali arasında rəqəmsal bacarıqlar” alt göstəricisinə əsasən 2018-ci ildə 70.7 xalla 15-ci, 2019-cu ildə 68.2 xalla 19-cu yerdə, “peşə təhsilinin keyfiyyəti” alt göstəricisi üzrə isə 2018-ci ildə 56.6 xalla 49-cu, 2019-cu ildə 58.4 xalla 43-cü yerdə qərarlaşmışdır.

Ölkəmizdə əmtəə və xidmətlər bazarının yaxşı səviyyədə olduğunu deyə bilərik. Azərbaycanın gənc bir dövlət olmasına baxmayaraq, bu sahədə mühüm nailiyyətlər əldə olunmuşdur. Bu da DİF-in hesabatlarında aydın nəzərə çarpır. 2018-ci ildə 37-ci yerdə olan ölkəmiz 1 il ərzində 14 pillə irəliləyərək 23-cü yerə gəlmişdir. Ölkəmiz bu göstərici üzrə dünyanın aparıcı və inkişaf etmiş Rusiya, Fransa, Kanada, Çin, Türkiyə, İtaliya və s. kimi ölkələrini qabaqlamışdır. Ölkəmizin bu göstəricinin alt göstəriciləri üzrə nəticələrinə nümunə olaraq “vergi və subsidiyaların rəqabətə təsirləri” üzrə 2018-ci ildə 60.4 xalla 20-ci, 2019-cu ildə

72.8 xalla 3-cü yerdə, “tariflərin mürəkkəbliyi” üzrə isə 2018-ci ildə 85.1 xalla 62-ci, 2019-cu ildə 85 xalla 61-ci yerdə olduğunu göstərmək olar.

Hər bir ölkənin iqtisadiyyatının rəqabət qabiliyyətinə təsir göstərən önəmli faktorlardan biri də əmək bazarıdır. Burada da öncəki göstəricidəki kimi Azərbaycanın nəticələri gənc bir dövlət üçün olduqca yaxşıdır. Bu göstərici üzrə hesabatdakı statistikalara nəzər yetirsək görərik ki, 2019-cu ildə 69.4 xalla Fransa və İtaliya kimi İEÖ-ləri qabaqlayaraq 21-ci yerdə qərarlaşmışdır. 2018-ci il hesabatındakı yeri ilə müqayisədə isə 19 pillə irəlilədiyini görə bilərik. Burada işçi qüvvəsində qadınların kişilərə faiz nisbəti, ödəniş və məhsuldarlıq, işçi və işəgötürən münasibətlərində əməkdaşlıq və s. alt göstəricilər mövcuddur ki, Azərbaycanın bu alt göstəricilər üzrə nəticələri uyğun olaraq 2018-ci ildə 62.3 xalla 74, 63.4 xalla 15, 65.1 xalla 32-ci sırada qərarlaşmışdır. Bu rəqəmlərlə müqayisədə ölkəmiz 2019-cu ildə eyni alt göstəricilər üzrə uyğun olaraq 62.6 xalla yerini qorumuş, 67.4 xalla 9-cu, 71.9 xalla 17-ci yerə yüksəlmişdir.

2019-cu il Qlobal Rəqabətqabiliyyətlilik Hesabatında maliyyə sistemi göstəricisi üzrə 2018-ci ilə nisbətən xalını 52.6 dan 55.4 ə yüksəldən ölkəmiz hər iki ildə də sıralamada 96-cı yerdə olmuşdur. Bu göstəricinin “bazar kapitallaşması” alt göstəricisi üzrə 2018-ci il hesabatında Azərbaycan 119-cu yerdə, 2019-cu il hesabatında isə 110-cu yerdə olmuşdur. Digər alt göstərici olan “bankların sağlamlığı” üzrə isə 2018-ci ildə 92-ci olan Azərbaycan 2019-cu il hesabatında 15 pillə yüksələrək 77-ci yeri tutmuşdur. Ümumilikdə bu göstəricinin əksər alt göstəriciləri üzrə ölkəmizin nəticələrini o qədər də yaxşı hesab etmək olmaz.

Bazar ölçüsü göstəricisi üzrə ölkələrin sıralamadakı yeri müəyyən edilərkən əsasən ÜDM və əmtəə və xidmətlər idxalının ÜDM-ə faiz nisbəti kimi alt göstəricilərdən istifadə olunur. Bu göstərici üzrə hər iki ildə eyni xalla (54) qiymətləndirilmişdir. Ölkəmiz 2018-ci il ilə müqayisədə 2019-cu ildə mövqeyini 2 pillə yüksəldərək 67-ci yeri tutmuşdur. ÜDM-in alıcılıq qabiliyyəti pariteti (milyard dollarla) və əmtəə və xidmətlər idxalının ÜDM-ə faiz nisbəti bu göstəricinin alt göstəriciləridir. Bu alt göstəricilər üzrə Azərbaycanın nəticələri 2018-ci ildə uyğun olaraq 68 və 76-cı yer, 2019-cu ildə isə 69 və 83-cü yerdir.

Biznesin inkişafı sahəsində də önəmli addımlar atan ölkəmiz bu göstərici üzrə 2018-ci ildə 68.8, 2019-cu ildə isə 71.5 xalla qiymətləndirilmiş və 31-ci yerdən 23-cü yerədək irəliləmişdir. Bu göstərici üzrə də Azərbaycan Rusiya, Türkiyə, İtaliya və əksər MDB ölkələrini də qabaqlamağı bacarmışdır. Bu göstəricinin "bir işin qurulmasına sərf edilən vaxt (günlərlə)" alt göstəricisinə görə 2018-ci il 96 xalla 17-ci sırada olan Azərbaycan 2019-cu ildə 97 xalla 8-ci pilləyə yüksəlmişdir. Önəmli alt göstəricilərdən biri olan "innovativ şirkətlərin inkişafı" üzrə 2018-ci ildə 58.2 xalla 35-ci yerdə olan ölkəmiz 2019-cu ildə nəticəsini yaxşılaşdıraraq 64.1 xalla 21-ci yeri tutmuşdur.

Müasir dövrdə hər bir ölkə innovasiyayönümlü iqtisadiyyata sahib olmaq və onun inkişafı üçün səylər göstərir. İnnovasiyanın inkişafı baxımından 2019-cu ildə 2018-ci il ilə müqayisədə o qədər də böyük irəliləyiş baş verməmişdir. 2018-ci ildə sıralamada 71-ci olan Azərbaycan 2019-cu ildə 3 pillə irəliləyərək 68-ci yerdə qərarlaşmışdır. İşçi qüvvəsinin müxtəlifliyi, elmi nəşrlər, tədqiqat institutlarının əhəmiyyəti və s. kimi alt göstəricilər bu göstəricinin tərkib hissələridir. Bu alt göstəricilər üzrə ölkəmiz müvafiq olaraq 2018-ci ildə 64.3 xalla 36-cı, 65 xalla 108-ci, 0.8 xalla 86-cı yeri tutmuş, 2019-cu il hesabatında isə 70.8 xalla 19-cu, 66.6 xalla 105-ci, 1.7 xalla 78-ci yerdə qərarlaşmışdır. Bu göstəricinin 2019-cu il hesabatında demək olar ki, bütün alt göstəricilərində 2018-ci ilə nisbətən irəliləyişə nail olunmuşdur.

Tərtib olunan hesabatda ölkə iqtisadiyyatlarının rəqabətqabiliyyətlilik üzrə reytinq cədvəli tərtib olunur. Gənc ölkə olmasına baxmayaraq, Azərbaycan MDB məkanında iqtisadiyyatının rəqabətqabiliyyətliliyinə görə qabaqcıl ölkələrdəndir. 11 nömrəli cədvəldə MDB ölkələrinin bu hesabatdakı mövqeyi haqqında daha ətraflı məlumat verilmişdir.

**Cədvəl 11: MDB ölkələrinin 2019-cu il "Qlobal Rəqabətqabiliyyətlilik İndeksi 4.0" üzrə sıralaması**

| Sıra | Ölkələr | Ölkələrin iqtisadiyyatlarının pillələr üzrə yeri | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 |
| 58 | Azərbaycan | 49 | 38 | 73 | 103 | 98 | 48 | 23 | 21 | 96 | 67 | 23 | 68 |
| - | Belarus | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| 69 | Ermənistan | 62 | 60 | 59 | 64 | 68 | 61 | 44 | 32 | 69 | 118 | 57 | 62 |
| 86 | Moldova | 81 | 76 | 48 | 94 | 94 | 74 | 68 | 56 | 124 | 127 | 68 | 109 |
| - | Özbəkistan | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| 55 | Qazaxıstan | 64 | 67 | 44 | 60 | 95 | 57 | 62 | 25 | 104 | 45 | 35 | 95 |
| 96 | Qırğızıstan | 93 | 103 | 65 | 74 | 90 | 87 | 115 | 81 | 112 | 125 | 78 | 129 |
| 43 | Rusiya | 74 | 50 | 22 | 43 | 97 | 54 | 87 | 62 | 95 | 6 | 53 | 32 |
| 104 | Tacikistan | 78 | 91 | 121 | 98 | 99 | 71 | 70 | 71 | 117 | 123 | 100 | 120 |
| - | Türkmənistan | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| 83 | Ukrayna | 110 | 57 | 77 | 131 | 94 | 46 | 73 | 66 | 117 | 47 | 86 | 58 |

**Mənbə:** "Qlobal Rəqabətqabiliyyətlilik Hesabatı 2019" əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

DİF-in 2019-cu il Qlobal Rəqabətqabiliyyətlilik Hesabatında Azərbaycan 58-ci yerdə qərarlaşmışdır ki, bu nəticə ilə MDB ölkələrindən yalnız Rusiya və Qazaxıstandan geri qalır. MDB ölkələri arasında 2018-ci il hesabatı ilə müqayisədə 2019-cu il hesabatında ən çox irəliləyişə nail olan ölkə Azərbaycandır. Ölkəmiz 1 il ərzində sıralamadakı yerini 11 pillə yüksəltmişdir. Azərbaycan 2019-cu il Qlobal Rəqabətqabiliyyətlilik Hesabatında rəqabətqabiliyyətliliyi müəyyən edən 12 əsas göstəricidən 1, 2, 7, 8 və 11-ci göstərici üzrə MDB məkanında liderdir. Belarus, Özbəkistan, Türkmənistan kimi MDB ölkələrinin iqtisadiyyatının rəqabət qabiliyyəti aşağı olduğundan hesabatda yer alan 141 ölkə arasında yer almamışdır. Gənc bir dövlət kimi ölkəmizin Qlobal Rəqabətqabiliyyətlilik Hesabatında MDB ölkələri arasındakı mövqeyini olduqca yaxşı hesab etmək olar.

DİF kimi Dünya Bankı da hər il ölkə iqtisadiyyatları ilə bağlı hesabat nəşr edir. DB tərəfindən "Doing Business" adı ilə nəşr edilən hesabatlarda Qlobal Rəqabətqabiliyyətlilik Hesabatlarındakı kimi həm ölkə iqtisadiyyatlarının ümumi sıralaması, həm də hər bir ölkənin müxtəlif göstəricilər üzrə statistikası əks etdirilir. "Doing Business" hesabatında 190 ölkənin sıralaması əks etdirilir ki, burada 10 əsas göstəricidən istifadə olunur. Bu göstəricilər aşağıdakılardır:

1. Biznesə başlama

2. Tikintiyə icazələrin verilməsi
3. Elektrik təchizatı şəbəkələrinə qoşulma
4. Əmlakın qeydiyyatı
5. Kreditlərin əldə edilməsi
6. Kiçik investorların maraqlarının qorunması
7. Vergi ödənişləri
8. Xarici ölkələrlə ticarətin həyata keçirilməsi
9. Müqavilələrin icrası
10. Müəssisələrin iflas probleminin həlli

Azərbaycan “Doing Business 2020” hesabatında 76.7 xalla 34-cü sırada qərarlaşmışdır. Ölkəmiz bu nəticə ilə İran, Qırğızıstan, Yunanıstan, Ermənistan, İsveçrə, Belçika, Portuqaliya və s. kimi ölkələri geridə qoymuşdur. 12 nömrəli cədvəldə yuxarıda göstərilən əsas göstəricilərin hər biri üzrə son 5 ildə Azərbaycanın “Doing Business” hesabatlarındakı mövqeyi barəsində ətraflı məlumat verilmişdir.

**Cədvəl 12: Azərbaycanın “Doing Business” hesabatındakı son 5 ilə olan statistikası**

| Göstəric.. | 2020 | | 2019 | | 2018 | | 2017 | | 2016 | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Yer | xal | yer | xal | yer | xal | yer | xal | yer | Xal |
| 1 | 9 | 96.2 | 9 | 96.1 | 18 | 94.4 | 5 | 97.7 | 7 | 97.8 |
| 2 | 59 | 73.4 | 61 | 73.1 | 161 | 54.9 | 127 | 63.6 | 114 | 65.8 |
| 3 | 80 | 77.3 | 74 | 77.3 | 102 | 67.9 | 105 | 64.8 | 110 | 63 |
| 4 | 44 | 75.4 | 17 | 84.6 | 21 | 82.1 | 22 | 82.5 | 22 | 82.6 |
| 5 | 1 | 100 | 22 | 80 | 122 | 40 | 118 | 40 | 109 | 40 |
| 6 | 105 | 50 | 2 | 81.7 | 10 | 75 | 32 | 65 | 36 | 63.3 |
| 7 | 40 | 84 | 28 | 85.2 | 35 | 84.2 | 40 | 83.5 | 34 | 83.8 |
| 8 | 83 | 77 | 84 | 77 | 83 | 73.6 | 83 | 72.3 | 40 | 67.5 |
| 9 | 28 | 70.3 | 40 | 67.5 | 38 | 67.5 | 44 | 65.7 | 94 | 69.6 |
| 10 | 47 | 63.5 | 45 | 63.8 | 47 | 62.3 | 86 | 44.8 | 84 | 44.7 |

**Mənbə:** Dünya Bankının “Doing Business” hesabatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

2020-ci ildən əlavə olaraq ölkəmiz 2019-cu il hesabatında 78.64 xalla 25-ci, 2018-ci ildə 70.19 xalla 57-ci, 2017-ci ildə 67.99 xalla 65-ci, 2016-cı il

hesabatında isə 67.80 xalla 63-cü yeri tutmuşdur. Buradan da aydın nəzərə çarpır ki, ölkəmiz 2016-cı ildən sonra sıralamada 65-ci yerdən 25-ci yerə qədər yüksəlməyi bacarmışdır. Hər bir göstərici üzrə rəqəmlərə nəzər yetirdikdə isə ümumilikdə vəziyyəti normal hesab etmək olar. Xüsusilə 1-ci göstərici "biznesə başlama" və 5-ci göstərici olan "Kreditlərin alınması" üzrə ölkəmiz 190 ölkə arasında müvafiq olaraq 9-cu və 1-ci yerləri tutmuşdur. 5-ci göstərici üzrə ölkəmiz 2019-cu il ilə müqayisədə 21 pillə irəliləmişdir ki, bu da 1 il üçün böyük bir nəticədir.

Bu tip hesabatlara və bu hesabatları nəşr edən beynəlxalq təşkilatlara KOF İsveç İqtisad Institutunun "KOF Qloballaşma İndeksi" ni, BMT-nin inkişaf proqramının "İnsan İnkişaf İndeksi" ni, BVF-in "World Economic Outlook Database" nəşrini, ABŞ-ın "İrs" fondu və "Wall Street Journal" tərəfindən nəşr edilən "İqtisadi Azadlıq İndeksi" ni və s. misal göstərmək olar.

İqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsinə təsir göstərən amillər hər zaman olmuşdur. Hər bir ölkə iqtisadiyyatının rəqabət qabiliyyətini yüksəltmək üçün ilk öncə bu məsələdə qarşıda duran maneələri aradan qaldırmalı, iqtisadiyyatın rəqabət qabiliyyətinə mənfi təsir göstərən təhdid və təhlükələrın qarşısı alınmalıdır. Növbəti paraqrafın da mövzusu məhz bundan ibarətdir.

## 2.3. İqtisadiyyatın rəqabət qabiliyyətinə daxili və xarici təhdidlər

Ölkəmiz 90-cı illərin əvvəllərində müstəqillik əldə etdikdən sonra müstəqil bir dövlət kimi iqtisadiyyatını formalaşdırmaq heç də asan başa gəlməmişdir. Müstəqilliyin ilk illərində istər hərbi vəziyyətlə bağlı, istərsə də siyasi və iqtisadi problemlər ölkənin inkişafı üçün maneələr törədirdi. Həmin dövrdə ölkəmiz mənfur düşmən tərəfindən təcavüzə məruz qaldığına görə müstəqil iqtisadiyyat qurmaq olduqca çətin bir vəziyyət almışdır. Ölkəmizin bazar iqtisadiyyatına keçid prosesində yaşadığı problemlər, həmçinin dünya iqtisadiyyatına inteqrasiya baxımından baş verən çətinliklər iqtisadi böhranı qaçılmaz etmişdir. Təxminən 1996-cı ildən sonra Azərbaycan müstəqillik əldə etdikdən sonra yaşadığı problemlərin təsirindən yavaş-yavaş çıxmağa başlamış, müstəqil iqtisadiyyat formalaşdırmışdır. Həmin dövrdən müasir dövrədək iqtisadiyyatın təhlükəsizliyi aktual məsələlərdən olmuşdur. Nəinki ümumi iqtisadiyyatın, həm də iqtisadiyyatın hər bir sahəsinin təhlükəsizliyi daim dövlət tərəfindən nəzarət altında saxlanmışdır.

İqtisadi təhlükəsizlik milli təhlükəsizliyin bir hissəsi kimi iqtisadiyyatın və onun rəqabət qabiliyyətinin istər daxili, istərsə də xarici təhlükə, təhdid və risklərdən qorunmasıdır.

“Amerikalı mütəxəssislərinin fikirlərinə görə iqtisadi təhlükəsizlik ən azı iki şərtə cavab verməlidir:

1. Ölkənin iqtisadi müstəqilliyini saxlamaq, təsərrüfatın inkişafına aid qərarların qəbul edilməsi qabiliyyətini itirməmək;

2. Əhalinin əldə edilmiş həyat səviyyəsini saxlamaq və sonralar onu yüksəltmək imkanı” (Bərxudarov M.İ, Məmmədov N.M, 2006: s.11).

2004-cü ildə AR-nın Prezidentinin sərəncamı ilə AR-nın milli təhlükəsizliyi haqqında qanun qəbul edilmişdir ki, burada milli təhlükəsizliyə iqtisadi cəhətdən olan təhdidlər və bu təhdidlərdən müdafiə olunmaq üçün həyata keçirilən tədbirlər verilmişdir.

Qanuna əsasən ölkənin iqtisadi potensialından qeyri-səmərəli istifadə, milli iqtisadiyyatın digər ölkələrdən asılı vəziyyətə düşməsi, ölkənin nəqliyyat sistemində fəaliyyətin pozulması, iqtisadiyyatın mütənasib şəkildə inkişaf

etdirilməməsi, dünya ölkələri ilə münasibətlərin iqtisadi cəhətdən pisləşməsi, maliyyə-bank və kredit sisteminin pozulması, ölkə ərazisindən pul vəsaitlərinin qanunsuz çıxarılması, təbii ehtiyatların səmərəli şəkildə istifadə olunmaması və s. kimi təhlükələr Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyəti üçün ən önəmli təhdidlər sayılır (http://www.e-qanun.az/framework/5455).

İqtisadiyyat üçün təhlükə hesab edilən, iqtisadiyyatın rəqabət qabiliyyətinə və ölkənin beynəlxalq arenadakı mövqeyinə mənfi təsir göstərən bir sıra amillər vardır ki, bunlar aşağıdakıları aid etmək olar:

- ✓ Ölkədə işsizlərin sayının çoxalması və əhalinin yoxsulluq səviyyəsinin artması;
- ✓ Daxili tələbatın xarici ölkələrin istehsalından asılı vəziyyətə düşməsi;
- ✓ İnflyasiyanın və inhisarçılığın çoxalması;
- ✓ İqtisadiyyata dövlət tənzimləməsinin zəif olması səbəbi ilə iqtisadi cinayətkarlıq səviyyəsinin artması;
- ✓ Ölkənin tədiyyə balansında pozuntuların aşkarlanması;
- ✓ Ölkənin investisiya mühitinin xarici investorlar üçün əlverişli olmaması;

İqtisadiyyatın sektorlarının inkişafında tarazlığın pozulması və s.

İqtisadiyyata və onun rəqabət qabiliyyətinə hər daim təhdidlər olur. Bu təhdidlər tipinə görə daxili və xarici olaraq 2 yerə bölünür. Bir sıra ədəbiyyatlarda iqtisadiyyata və onun rəqabət qabiliyyətinə olan təhdidlərdən bəhs edilmişdir. İqtisadiyyat üçün təhdid sayıla biləcək amillərin onun rəqabət qabiliyyətinə bəzilərinin birbaşa, bəzilərinin isə dolayı təsirləri vardır. İqtisadiyyatın təhlükəsizliyini təhdid altında saxlayan, onun rəqabət qabiliyyətinə mənfi təsir göstərən amillərdən biri daxili amillərdir. Ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinə istər birbaşa, istərsə də dolayı təsir göstərən daxili təhdidlərə aşağıdakıları misal göstərmək olar:

Ölkə əhalisinin sosial təminat baxımından təbəqələşməsinin artması, əhalinin şəhərlərdə cəmləşməsinin daha da çoxalması, əmək haqqı və pensiyaların ödənişlərində problemlərin olması, işsizliyin artması və son nəticədə ölkədə yoxsulluğun artması;

İqtisadiyyatın neft sektorundan asılılığının artması, ölkə daxilindəki müəssisələrin rəqabət qabiliyyətinin aşağı səviyyədə olması, iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsinə xidmət edən əsas sektorların inkişafının zəif olması, xarici borcun çoxalması, ölkənin daxili bazarının xarici şirkətlər tərəfindən ələ keçirilməsi;

Ölkənin iqtisadi inkişafının inklüziviyinin təmin olunmaması, həm regionların, həm də sektorların inkişafında tarazlığın pozulması, istehsal olunan ÜDM-in regionlar üzrə tarazlı şəkildə bölünməməsi və s. kimi iqtisadiyyatın rəqabət qabiliyyəti üçün daxili təhdidlər mövcuddur.

M.Bərxudarov və N.Məmmədovun fikrincə isə əsas iqtisadi təhlükələr aşağıdakılardır, hansı ki, bu təhdid doğuran daxili amillərin qarşısı alınmazsa, iqtisadiyyatın rəqabət qabiliyyəti üçün çox böyük problemlərə gətirib çıxara bilər.

- "iqtisadiyyatın strukturunun deformasiyasının güclənməsi;
- investisiya və innovasiya fəallığının aşağı düşməsi və elmi-texniki potensialın dağılması;
- idxaldan asılılığın daha da artması;
- ölkədən valyuta ehtiyatlarının axması;
- cəmiyyətin təbəqələşməsinin güclənməsi;
- xarici borcun artması;
- iqtisadiyyatın həddindən çox açıq olması;
- iqtisadi münasibətlərin kriminallaşması" (Bərxudarov M.İ, Məmmədov N.M, 2006: s.114).

İqtisadiyyatın rəqabət qabiliyyətinə daxili təhdidlərlə yanaşı xarici təhdidlər də olur ki bunlara aşağıdakıları aid etmək olar:

1. İqtisadiyyatın rəqabət qabiliyyəti üçün mühüm xarici təhdidlərdən biri qloballaşma problemidir. Qloballaşma zamanı ölkələrin iqtisadiyyatı və infrastrukturu təsirlərə məruz qalır, bu da ölkənin sosial-iqtisadi inkişafına təsirsiz ötüşmür.

2. Müasir dövrdə hər bir ölkə ticarət balansında müsbət saldo əldə etmək istəyir. Milli iqtisadiyyatın idxaldan asılı olması, xüsusilə də istehlak malları üzrə asılılıq iqtisadiyyatın rəqabət qabiliyyəti üçün təhdid sayıla bilər.

3. Hər bir ölkə üçün ölkədən "ağıl axını"nın artması önəmli təhdiddir.

4. Ölkə iqtisadiyyatında kapitalın qeyri-qanuni yollarla çıxarılması da iqtisadiyyatın rəqabət qabiliyyəti üçün xarici təhdidlərdəndir.

Hazırki dövrdə ölkə iqtisadiyyatı və onun rəqabət qabiliyyəti üçün ən aktual təhdidlərdən biri "Covid-19" pandemiyasının növbəti dalğaları ilə bağlı xəbərlərdir. "Covid-19" təhdidini həm daxili, həm də xarici təhdid hesab etmək olar. Bu pandemiya nəticəsində əvvəlki səhifələrdə haqqında bəhs edilən daxili və xarici təhdidlərin əksəriyyətinin təsiri daha da güclənir.

İqtisadiyyat və onun rəqabət qabiliyyəti üçün istər daxili, istərsə də xarici təhdidlər daim olmaqdadır. Bu təhdidlərdən qorunmaq üçün əhəmiyyətli addımlar atılmalı, bu məsələ ilə bağlı tədbirlər həyata keçirilməlidir. Bunlara milli təhlükəsizlik haqqında AR-nın qanununun 17-ci maddəsində göstərilən və həyata keçirilən tədbirləri misal göstərə bilərik:

"İqtisadiyyatda dövlət idarəetməsinin təkmilləşdirilməsi;

İqtisadiyyatda qeyri-mütənasib inkişafın qarşısının alınması;

İqtisadiyyatın inkişafının təmin edilməsi məqsədi ilə bank sisteminin təkmilləşdirilməsi;

Milli məhsulların rəqabət qabiliyyətinin artırılması məqsədi ilə yerli istehsalçıların hüquqlarının müdafiə olunması;

İqtisadi fəaliyyət sahəsində cinayətkarlığa qarşı mübarizə aparılması və s." (http://www.e-qanun.az/framework/5455).

İqtisadi sahədə təhlükəsizliyi təmin etmək və iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi üçün həyata keçirilən bu tədbirlər nəinki iqtisadi təhlükəsizliyin, həmçinin ölkənin milli təhlükəsizliyinin təmin olunması üçün olduqca əhəmiyyətlidir. Əlavə olaraq, bu tədbirlərə aşağıdakıları misal göstərmək olar:

- Ölkədə adambaşına düşən ÜDM-in payının artırılması;

- Antiinflyasiya və antiinhisar tədbirlərinin gücləndirilməsi;
- Emal sənayesi sahələrinin inkişafına xüsusi diqqətin ayrılması;
- Dövlət borcunun azaldılması;
- Daha çox xarici investisiya cəlb olunması;
- Milli valyutanın məzənnəsinin daim optimal həddə saxlanılması;
- Qeyri-neft sektorunun inkişaf etdirilməsi;
- Təhsilin və səhiyyənin inkişafına xüsusi diqqətin ayrılması və s. (Hümbətova S.İ, 2012: s.153-154).

Ölkə iqtisadiyyatına və onun rəqabət qabiliyyətinə təhdid və təhlükələr hər daim olmaqdadır. Aparılan araşdırmalar zamanı iqtisadiyyatın rəqabət qabiliyyətinə həm daxili, həm də xarici təhdidlər müəyyən edilmişdir. İqtisadiyyata mənfi təsir göstərən bu təhdidlərlə mübarizə aparılmalıdır. Dövlətin bu sahədəki müdaxiləsi mühüm əhəmiyyət kəsb edir. Belə ki, indiyədək dövlət tərəfindən bu istiqamətdə müxtəlif tədbirlər həyata keçirilmişdir və bundan sonra da keçirilməlidir.

Son olaraq qeyd etmək istərdim ki, Azərbaycanda iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi mühüm işlər görülür, bu da özünü daha aydın bir şəkildə statistikalarda göstərir. Ölkəmiz gənc ölkə olmasına baxmayaraq, iqtisadiyyatının rəqabət qabiliyyəti ilə və beynəlxalq təşkilatlar tərəfindən tərtib olunan hesabatların hər birinin özünəməxsus göstəricilər sistemindəki göstəricilərin hər biri üzrə əldə etdiyi irəliləyiş ilə dünyanın qabaqcıl iqtisadiyyata malik ölkələri ilə müqayisə olunur.

Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətinin yüksəldilməsi müxtəlif istiqamətlərdə həyata keçirilir və bundan sonra da keçirilməlidir. İqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi üçün bu istiqamətdə müxtəlif islahatlar həyata keçirilməlidir. Bundan əlavə, milli iqtisadiyyat regional və sektorial aspektdən daha da yaxşı inkişaf etdirilməli və iqtisadi inkişafın inklüzivliyi təmin olunmalıdır. Növbəti fəslin tədqiqat mövzusu da məhz bundan ibarətdir.

# III FƏSİL . AZƏRBAYCAN İQTİSADİYYATININ RƏQABƏT QABİLİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ İSTİQAMƏTLƏRİ

## 3.1. İqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi istiqamətində həyata keçirilməli olan struktur islahatları

XXI əsrin ən aktual problemlərindən biri olan rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşdırılması məsələsi son onillikdə Azərbaycan Respublikasının iqtisadi tənzimləmə siyasətinin diqqət mərkəzində olmuşdur. Bunun başlıca səbəbi beynəlxalq iqtisadi münasibətlərin tam hüquqlu subyekti kimi AR-nın dünya iqtisadiyyatına fəal surətdə inteqrasiyasının milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyindən asılı olmasıdır. Başqa sözlə desək, müasir dünya əlaqələri sisteminin inkişaf xüsusiyyətlərini nəzərə almaqla respublikamızın dünya iqtisadiyyatına inteqrasiyası rəqabət qabiliyyətli yüksək texnoloji məhsulların istehsalı sahələrinin olmasını tələb edir. Məhz bu baxımdan rəqabətqabiliyyətlilik, rəqabətqabiliyyətli iqtisadiyyat anlayışlarının bir iqtisadi kateqoriya kimi öyrənilməsinə, ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin yüksəldilməsi istiqamətində atılan addımların araşdırılmasına ehtiyac vardır.

70-ci illərin əvvəllərində yaranan, milli iqtisadiyyatın formalaşdırılmasının başlıca zəmini hesab edilən və fundamental tədqiqat obyektinə çevrilən rəqabətqabiliyyətlilik anlayışı M. Porterin fikrincə, “hər hansı bir ölkənin əmək məhsuldarlığının rəqib ölkələrə nisbətən yuxarı olmasıdır” (М. Портер., 2011). Qeyd edək ki, bir ölkənin əmək məhsuldarlığının digər ölkənin əmək məhsuldarlığının həcmindən yüksək olmasının bir sıra səbəbləri vardır ki, biz bu səbəbləri araşdırmamızın gedişatında tədqiq edəcəyik.

Amerika iqtisadçısı M. Porter nöqteyi-nəzərindən yanaşaraq qeyd edə bilərik ki, rəqabətqabiliyyətlilik anlayışı, eyni zamanda, əmtəə və xidmət istehsalı ilə bağlıdır. Yəni o əmtəə və xidmət rəqabətqabiliyyətli hesab olunur ki, o həm ucuz qiymətlə reallaşsın, həm keyfiyyət və zövq baxımından istehlakçıların tələblərini ödəsin, həm də istehsal və ekoloji standartlara cavab versin. Qeyd etdiyimiz bu meyarlar üzrə üstünlüklər əldə edən müəssisələr rəqabət mübarizəsində önə

çıxırlar. Beləliklə, daim rəqabət aparan müəssisələr öz məhsullarını daxili və xarici bazarlarda irəlilətməklə, son nəticədə, rəqabət qabiliyyətlərini formalaşdırmış və möhkəmlətmiş olurlar.

Öz tədqiqatlarında məntiqi zəncir yaradan M. Porter ilk əvvəl müəssisələrin rəqabətqabiliyyətlilik problemini tədqiq etmiş və belə bir nəticəyə gəlmişdir ki, hər hansı bir ölkənin müəssisələrinin rəqabət qabiliyyətli olması ölkə iqtisadiyyatında rəqabətqabiliyyətli sahələrin formalaşmasını və ölkənin dünya bazarında rəqabətqabiliyyətli olmasını təmin etmiş olur (М Портер., 2019).

Beynəlxalq rəqabət qabiliyyətli milli iqtisadiyyatın formalaşdırılması ölkənin malik olduğu istehsal resurslarının elə səmərəli istifadəsidir ki, son məhsul və xidmətlər dünya bazarında mövcud tələbləri ödəsin, yeni tələb formalaşdırsın və buradan gələn milli gəlir vətəndaşların rifah halının yüksəlməsinə xidmət etsin. Parantez açaraq bir faktı qeyd etmək yerinə düşər ki, istehsal resurslarında səmərəli istifadə əhali məşğulluğunun təmin edilməsinin, o cümlədən əhali gəlirlərinin formalaşdırılmasının başlıca zəminidir. Uzunmüddətli zaman kəsimində rəqabətqabiliyyətlilik anlayışı ölkələrin beynəlxalq arenada yalnız cari mövqelərini deyil, onların uzunmüddətli dayanıqlı uğura malik olmalarını ifadə edir. Belə ki, dünya bazarında məhz o milli iqtisadiyyatlar beynəlxalq rəqabət qabiliyyətinə malik olurlar ki, sahib olduqları üstün mövqeyi uzun müddət qoruyub saxlaya bilir və onun gələcək dövrlərdə də təmin edilməsi üçün davamlı şəkildə inkişaf mexanizmlərini işləyib hazırlayırlar.

Məlumdur ki, daxili resursların çatışmadığı halda iqtisadiyyata xarici investisiyaların cəlb edilməsi üzrə dövlət siyasəti investisiya qoyuluşu probleminin aradan qaldırılmasında mühüm əhəmiyyət kəsb edir və işgüzar fəallığın canlanması üzrə makro və mikroiqtisadi tədbirlər kontekstində nəzərdən keçirilir. Aydındır ki, iri dövlətlər daha çox investisiya cəlb edə bilər. Kapitalın yerləşdirilməsi zamanı bazarın ölçüsü və artımı iki başlıca amil kimi nəzərdən keçirilir. "Lakin xarici ölkələrin təcrübəsi göstərir ki, əlverişli investisiya mühiti, institusional əsaslar, əməyin və infrastrukturun keyfiyyəti, siyasi sabitlik və dəqiq stimullaşdırıcı iqtisadi artım siyasəti kimi rəqabət üstünlüklərinə malik olan bütün ölkələr

investisiyalar cəlb edilməsi üzrə rəqabət apara bilər” (Yusifov.C.R, 2011: s.126). Başqa sözlə desək, milli iqtisadiyyatın gücünü əks etdirən rəqabətqabiliyyətlilik yeni investisiya təşəbbüsləri üçün mühüm bir amildir. Eyni zamanda, ölkə iqtisadiyyatına xarici investisiyaların cəlbi milli iqtisadiyyatın rəqabət gücünə birbaşa təsir edir. Belə ki, ölkələrin xarici investisiyaların cəlb olunması istiqamətindəki addımları ilə milli iqtisadiyyatların beynəlxalq bazarlardakı rəqabətqabiliyyətliliyi arasında mütənasib bir bağlılıq vardır (İhsan.A.Karacan, 1997).

Milli iqtisadiyyatın rəqabət qabiliyyətinin formalaşdırılması prosesini nəzərdən keçirdikdə, müəssisələrin rəqabət qabiliyyəti, ölkənin rəqabət qabiliyyəti, istehsal resurslarından səmərəli istifadə, əmək məhsuldarlığı və xarici investisiyaların cəlb edilməsi arasında bir-biri ilə qarşılıqlı bağlı olan asılılığın mövcudluğu görülməkdədir. Belə ki, bu iqtisadi kateqoriyalar arasındakı qarşılıqlı bağlılıq əhali məşğulluğu, gəlirləri və həyat səviyyəsi, insan kapitalının keyfiyyəti və təkrar istehsalı və s. kimi problemlərin həllində müəyyənedici rol oynayır. Başqa sözlə desək, rəqabətqabiliyyətliliyi əhalinin həyat səviyyəsi və gəlirləri, insan kapitalının keyfiyyəti və təkrar istehsalı ilə əlaqəli olmadan təhlil etmək mümkün deyildir. Məhz bu nöqteyi-nəzərdən söyləmək olar ki, respublikamızda ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin yüksəldilməsi istiqamətində həyata keçirilən struktur islahatlar yuxarıda qeyd etdiyimiz problemlərin həllinə adekvat olaraq reallaşdırılır.

M. Porterin rəqabət qabiliyyətliliyə verdiyi tərifə əsaslanaraq qeyd edə bilərik ki, ölkənin beynəlxalq rəqabət gücünü artıran ən önəmli amil əmək məhsuldarlığı səviyyəsidir. Parantez açaraq bir faktı qeyd etmək lazımdır ki, bəzi iqtisadçılar ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin artırılmasını yanlış olaraq yalnız nominal və ya real əmək haqqında və onun mövcud səviyyələrinin artırılmasında görürlər. Bu faktı Meksika ilə rəqabət gücü baxımından bu ölkənin çox önündə yer alan ABŞ-la müqayisə etdikdə, görürük ki, əmək haqqı səviyyələri arasındakı fərq bu iki ölkədəki işçilərin bilik və bacarıqlarından, peşə vərdişlərindən irəli gələn fərqlilikdən qaynaqlanır. Başqa sözlə desək, ABŞ-dakı yüksək əmək haqqı səviyyəsinin başlıca səbəbi peşəkar işçilərin yüksək əmək

məhsuldarlığıdır. Meksikada isə real əmək haqqı artımları əmək məhsuldarlığı yerinə, xarici iqtisadi amillərə görə gerçəkləşdirilməkdədir. Bu da təbii olaraq xarici investorların Meksika iqtisadiyyatına sərmayə qoyuluşlarına mənfi yöndə təsir göstərməkdədir.

Bu yanaşmadan çıxaraq qeyd edə bilərik ki, respublikamızın təhsil sektorunda həyata keçirilən islahatların və təhsil sahəsində atılan addımların başlıca qayəsi insan kapitalının keyfiyyətini, yəni işçi heyətinin bilik və bacarığını artırmaqdır. Bu yolla ölkəmiz qlobal investorlar üçün daha cəlbedici bir vəziyyətə gəlir. İnsan kapitalının keyfiyyətini artırmaq məqsədilə iş gücünün lazımi təhsil almasına, iş bölgüsünün və texniki ixtisaslaşmanın artırılmasına, işə uyğunlaşma müddətinin qısaldılmasına, işçlərin müəssisələrin idarə edilməsi prosesinə cəlb edilməsinə, görərək öyrənmə təcrübəsinin (learning by doing) genişləndirilməsinə, texnoloji dəyişikliklərə ayaq uydurulmasına, R&D məqsədli investisiyaların dəstəklənməsinə və s. çalışılmalıdır. Parantez açaraq bir faktı nəzər diqqətinə çatdıraq ki, təhsil sektorunun ictimai transformasiyasını gerçəkləşdirərək arzu edilən nəticəyə nail olmaq üçün uzun illər gözləmək lazım gəldiyi unudulmamalıdır. Çünki bir insana çağdaş səviyyədə təhsil verə bilmək (ali təhsil daxil olmaqla) üçün təqribən 15-16 il lazımdır. Fikrimizcə, bu səbəblə təhsil sektorunda islahatlar davam etdirilməli, dövlət büdcəsindən təhsilə ayrılan vəsaitin payı artırılmalı, bilgi cəmiyyətinin ehtiyacları diqqətə alınaraq dərsliklər və mövcud ədəbiyyatlar yenilənməli, xarici dil, kollektiv çalışma bacarığı, iş etikası və s. kimi mövzulara ağırlıq verilməli, tələbə mübadilə proqramları asanlaşdırılmalıdır (Hasan, Gürak., 2003). Təhsil sahəsində həyata keçirilən islahatlar nəticəsində işçi heyətinin keyfiyyətinin artırılması mütərəqqi texnika və texnologiyaların istehsala tətbiq edilməsi və əmək məhsuldarlığının yüksəlməsi ilə yanaşı, əmək haqqı şəklindəki gəlirlərin artmasına, həyat səviyyəsinin və maddi rifah halının yüksəlməsinə, nəticə etibarilə milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin möhkəmlənməsinə səbəb olacaqdır.

Daha bir faktın qeyd olunmasını unutmaq olmaz ki, ölkənin rəqabət qabiliyyətinin uzunmüddətli qorunub saxlanması üçün ən vacib şərt ölkədə

davamlı innovativ istehsal münasibətlərinin təşkili və inkişafının dəstəklənməsidir. Bu münasibətlərin dəstəklənməsi dedikdə, həm texnoloji yeniliklərin tətbiqini, həm də idarəetmədə yeni mexanizmlərin işlənib hazırlanmasını nəzərdə tutmaq lazımdır ki, bu istiqamətdə təhsil sektorunun üzərinə mühüm işlər düşür.

Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətinin yüksəldilməsi istiqamətində aparılan struktur islahatların tədqiqi prosesini daha da dərinləşdirərək qeyd etmək istərdim ki, respublikamızda iqtisadiyyatın rəqabət etmə gücünün artırılması üçün dövlətin həyata keçirdiyi siyasət aşağıdakıları əhatə edir:

1. “Makroiqtisadi stabillik və iqtisadiyyatın diversifikasiyası;
2. Əmək məhsuldarlığı;
3. Kredit əldə etmək imkanları;
4. İnnovasiya yaradılması və tətbiqi;
5. İnfrastrukturun inkişafı;
6. Əlverişli biznes mühiti;
7. Dövlətin iqtisadi siyasətinin qəbul edilməsi” (Şəkərəliyev A.Ş., Şəkərəliyev Q.A., 2016: s.477).

Yuxarıda qeyd etdiyimiz kimi, milli iqtisadiyyatın rəqabət qabiliyyəti ölkə iqtisadiyyatına cəlb olunan xarici investisiyalardan birbaşa asılıdır. Azərbaycan iqtisadiyyatına sərmayə qoyan xarici investorları bu zaman iki mühüm amil maraqlandırır:

1. siyasi-iqtisadi stabillik;
2. mövcud qanunvericilik bazası ilə müdafiə edilməsi.

Azərbaycan iqtisadiyyatına sərmayə qoyan xarici investorlar, bildiyimiz kimi, öz vəsaiti ilə risk edir və o mümkün qədər bu riskin az olmasını istəyir. Məhz bu baxımdan istər yerli, istərsə də xarici investorlar siyasi-iqtisadi qeyri-stabilliyi, başqa sözlə desək, gələcəyin qeyri-müəyyənliyini sevmirlər. Siyasi stabillik, dövlətin inamlı və ardıcıl makroiqtisadi siyasəti xarici investorlara öz fəaliyyətlərini bu siyasətə müvafiq arxayınlıqla həyata keçirməyə sövq edir ki, bu da son nəticədə ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin artmasına təsir göstərir (Mahmudov C.İ, 2011).

Qeyd edək ki, rəqabət qabiliyyətinin artırılması məqsədi ilə ölkə iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsi yalnız qanunvericiliyə əsaslanmaqla və qanunvericiliklə müdafiə olunmaqla inkişaf edə, eyni zamanda, effekt verə bilər. Məhz bu baxımdan hər bir ölkə qanunvericilik aktları ilə xarici investorlar üçün hüquqi mühit yaratmalıdır. Çünki kapitalı ilə riskə gedən xarici investorlar qanunvericiliklə müdafiə olunmasını tələb edir ki, məhz bu baxımdan 15 yanvar 1992-ci ildə qəbul edilmiş "Xarici investisiyaların qorunması haqqında" Azərbaycan Respublikası qanununun, 13 yanvar 1995-ci ildə qəbul edilmiş "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikası qanununun və 18 yanvar 2018-ci il tarixli "İnvestisiya fəaliyyətinin təşviq edilməsi və xarici investorların hüquqlarının qorunması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamının mühüm iqtisadi əhəmiyyəti vardır. Belə ki, ARDSK-nın məlumatlarına əsasən, 2017-2019-cu illər ərzində Azərbaycan iqtisadiyyatına 24,5 mlrd. ABŞ dolları həcmində xarici investisiya yönəldilmişdir (https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/azfigures_2020.zip).

Təbii sərvətlərlə, xüsusi ilə neft-qaz ehtiyatları ilə zəngin olan Azərbaycan Respublikasında keçən əsrin sonlarında bağlanan beynəlxalq neft kontraktları əsasında neft və qazın istismarı nəticə etibarı ilə iqtisadiyyatın digər sahələrinin məhsullarının rəqabət qabililiyyətinin xeyli aşağı düşməsinə səbəb olmuşdur. Belə ki, neft ehtiyatlarının ixracı nəticəsində ölkəyə küllü miqdarda xarici valyutanın daxil olması valyuta bazarında xarici valyuta təklifini artırmış, xarici valyutaların ucuzlaşması hesabına milli valyutanın məzənnəsi möhkəmlənmiş və mövcud ehtiyacların yerli istehsal hesabına deyil, idxal hesabına ödənilməsi stimullaşmışdır. Bu da yerli məhsullara olan tələbin azalmasına və onların rəqabət qabiliyyətinin aşağı düşməsinə səbəb olmuşdur. Qeyd edək ki, bu sahədə dünyanın bir sıra xarici ölkələrinin acı təcrübəsi bizlərə məlumdur (Монтес М.Ф., Попов В.В., 2000).

2003-2010-cu illər ərzində Azərbaycan Respublikası Prezidenti İlham Əliyev rəsmi çıxışlarında Azərbaycan iqtisadiyyatında "holland sindromu"nun

simptomlarının müşahidə edildiyini dəfələrlə vurğulayaraq iqtisadi diversifikasiyanın qaçınılmazlığı məsələsinin önəminə və Azərbaycan kimi təbii resurslardan asılı olan bir dövlətdə qeyri-neft sektorunun inkişafı məsələsinin vacibliyinə toxunmuşdur. Ölkə rəhbərinin rəsmi çıxışlarına əsaslanaraq, innovasiyaya və effektivliyə əsaslanan iqtisadiyyatlarda rəqabətqabiliyyətliliyin daha yüksək olması və adambaşına düşən ÜDM həcminin isə resurslara əsaslanan iqtisadiyyata nisbətən 4-5 dəfə çox olması ehtimalına dayanaraq ortamüddətli planlarda ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin yüksəldilməsi məqsədilə ixracda qeyri-neft məhsullarının payının artırılması stimullaşdırılmalıdır. Məhz bu məqsədlə imzalanmış 18 yanvar 2016-ci il tarixli qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında AR Prezidentinin Sərəncamı diqqətəlayiqdir.

Müasir dövrdə hər hansı bir ölkənin beynəlxalq reytinqlərdəki mövqeyi onun iqtisadiyyatının rəqabət qabiliyyətinin başlıca ölçü meyarıdır. Beynəlxalq reytinqlərdəki mövqe hər bir ölkənin xarici ticarət-iqtisadi əlaqələrinin arealının genişlənməsinə, dünya ölkələri ilə birgə iqtisadi əməkdaşlığın təşəkkül tapmasına və s. effektiv təsir göstərir. Məhz bu nöqteyi-nəzərdən, fikrimizcə, Azərbaycan regional liderliyini möhkəmləndirmək üçün beynəlxalq reytinqlərdəki mövqelərini sürətlə yaxşılaşdırmaqda davam etməlidir. Respublikamızda həyata keçirilən struktur islahatlar ölkənin beynəlxalq aləmdəki reytinqini yüksəltdiyi kimi, beynəlxalq iqtisadi təşkilatların hesabatlarında Azərbaycanın reytinqinin artması da, öz növbəsində, iqtisadiyyatın rəqabət qabiliyyətini və diversifikasiya dərəcəsini yüksəldir, habelə insan kapitalının inkişafını sürətləndirir. Əldə edilən sosial-iqtisadi inkişaf isə öz növbəsində yeni islahatların həyata keçirilməsini zəruri edərək perspektiv dövr üçün yeni yüksək reytinqlərə yol açır. Azərbaycanın beynəlxalq reytinqlərdə mövqeyinin yüksəlməsinin paradoksallığı ondadır ki, beynəlxalq ranqlarda yuxarı qalxdıqca marjinal faydalılıq da azalır. Yəni autsayderlərdən uzaqlaşdıqca, ölkə əlavə vəsait və resurs sərf etməli olur. Əlbəttə inkişaf etməkdə olan ölkələrin sırasını tərk etmək nə qədər asan olsa da, inkişaf etmiş ölkələrlə müqayisədə reytinq qazanmaq bir o qədər də çətindir. Qeyd edək

ki, Azərbaycanın yaxın gələcəkdə beynəlxalq reytinqlərdə ilk 50-likdə mövqeyini gücləndirdikcə, qazanılan hər növbəti pillə ölkənin regional liderliyi və beynəlxalq reputasiyası nöqteyi-nəzərindən daha çox dividend gətirəcəkdir. Azərbaycanın sosial-iqtisadi sahədə reytinqlərinin artması ölkənin strateji əhəmiyyətinin artmasını və beynəlxalq arenada rəqabət qabiliyyətinin möhkəmlənməsini şərtləndirir.

Rəqabətqabiliyyətliliyi müəyyən edən mühüm qrup amillərə ölkənin ümumi iqtisadi vəziyyəti ilə bağlı olan amillər də aiddir. Ölkədə adambaşına düşən ÜDM-nin həcmi, inflyasiyanın aşağı olması, siyasi və hüquqi sistemin stabilliyi, vergi və gömrük tariflərinin aşağı olması, ölkədə və onun regionlarında infrastrukturun inkişaf səviyyəsi, daxili bazarın həcmi, resurslardan səmərəli istifadə edilməsi, rəqabətqabiliyyətli bank sistemi ölkənin beynəlxalq rəqabətqabiliyyətliliyini yüksəldən əsas amillərdəndir. Son illər Azərbaycanda aparılan iqtisadi islahatların məntiqi nəticəsi olaraq ölkə iqtisadiyyatı inkişaf edir və iqtisadi göstəricilər hər il əvvəlki illərə nisbətən yüksəlir. Məhz DİF-in hazırladığı 2011-ci il üçün rəqabətqabiliyyətlilik göstəricilərində Azərbaycan makroiqtisadi vəziyyətə görə dünyanın 142 ölkəsi arasında 16-cı yeri tutmuşdur. Bu onu göstərir ki, beynəlxalq ekspertlər gələcəkdə Azərbaycanda iqtisadi uğurların daha geniş miqyasda olacağını proqnozlaşdırırlar. Fikrimizcə, Azərbaycanda rəqabətqabiliyyətliliyin təmin edilməsi və yüksəldilməsi nöqteyi-nəzərindən struktur islahatların davam etdirilməsinə, qanunvericilik bazasının təkmilləşdirilməsinə, keyfiyyət sertifikatlarının beynəlxalq standartlara tamamilə uyğunlaşdırılmasına, intelektual mülkiyyətin qorunmasına ehtiyac vardır.

Son olaraq qeyd edək ki, Azərbaycan Respublikasının milli rəqabətqabiliyyətliliyini yüksəltmək üçün ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin müasir amillərinin formalaşdırılmasının gücləndirilməsi zəruridir. Bu Azərbaycan Respublikasında əhalinin yaşayış keyfiyyətinin yaxşılaşdırılmasının, sosial-iqtisadi sabitliyinin, iqtisadi və milli təhlükəsizliyinin təmin edilməsi üçün həlledici amildir.

İqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi üçün iqtisadi cəhətdən əhəmiyyətli sayılan, perspektivli sektorların inkişafına diqqət yetirilməlidir. Son illərdə ölkəmizdə bununla bağlı mühüm işlər görülməkdədir.

## 3.2. İqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsinə xidmət edən perspektivli sektorlar

Qloballaşan dünya iqtisadiyyatında hər bir ölkə öz iqtisadiyyatında əsas rola malik olan perspektivli sektorların rəqabətədavamlı və dayanıqlı inkişafına nail olmaq üçün səy göstərir. Hər bir ölkə iqtisadiyyatında olduğu kimi ölkəmizin də iqtisadiyyatında mühüm rol oynayan və iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsinə xidmət edən perspektivli sektorlar mövcuddur. Bu sektorlara kənd təsərrüfatı, maşınqayırma, logistika və ticarət, turizm və s. misal göstərmək olar. Ölkəmizdə bu sektorların gələcək illər ərzində inkişafının təmin olunması və rəqabət qabiliyyətinin yüksəldilməsi üçün 2016-cı ildə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə strateji yol xəritələri təsdiq edilmişdir. Son dövrlərdə qeyri-neft sektorunun inkişafı iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi üçün nəzərdə tutulan prioritet məsələlərdəndir. Qəbul olunan strateji yol xəritələrinin, müxtəlif dövlət proqramlarının əsas məqsədlərindən biri də qeyri-neft sektorunun inkişafının təmin olunmasından ibarətdir.

Qeyri-neft sektoru dedikdə ağıla gələn əsas sektorlardan biri kənd təsərrüfatıdır. Ölkəmizdə bu sektorun inkişafı ilə bağlı strateji yol xəritəsi, müxtəlif dövlət proqramları qəbul olunmuşdur. Kənd təsərrüfatı üçün qəbul olunan strateji yol xəritəsində 2016-cı il üçün bu sektorda olan mövcud vəziyyət, sektorun gələcək illər ərzində daha da çox inkişafına nail olunması üçün strateji, uzunmüddətli və hədəf baxışlar qeyd olunmuşdur. Burada əsas hədəflərə bu sektorda əhalinin daha çox işlə təmin olunmasını, sektorun maliyyələşmə mexanizminin daha da inkişaf etdirilməsini, ərzaq təhlükəsizliyinin daha da yaxşı təmin olunması üçün görüləcək işləri və s. misal göstərmək olar. Strateji yol xəritələrinin təsdiq olunmasından 5 il keçməsinə baxmayaraq, hər bir sektor üzrə yol xəritəsinin icra vəziyyəti müxtəlif dərəcədədir. İİTKM-nin məlumatına əsasən,

2017-ci ildə strateji yol xəritələrində nəzərdə tutulan və həyata keçirilməli olan tədbirlərin icrasının ən aşağı dərəcəsi kənd təsərrüfatı sektorundadır. Belə ki, 2017-ci ildə bu sektorda həyata keçirilməli olan tədbirlərin 46%-i, milli iqtisadiyyat perspektivi üzrə isə 92%-i icra edilmişdir (https://www.iqtisadiislahat.org/store//media/documents/SYX/2017/Umumi_opt.pdf). 2019-cu ilin əvvəllərində isə strateji yol xəritələrinin 2 illik icra vəziyyəti milli iqtisadiyyat perspektivi üzrə 47%, kənd təsərrüfatı sektoru üzrə isə 37% təşkil etmişdir (https://iqtisadiislahat.org/store//media/documents/SYX-2018.pdf).

Son 5 ildə, xüsusilə də strateji yol xəritələri təsdiq olunandan hazırkı dövrədək ölkəmizdə kənd təsərrüfatı məhsulların ümumi dəyəri daim artmışdır. 13 nömrəli cədvəldə bu haqda ətraflı məlumat verilmişdir.

**Cədvəl 13: Təsərrüfat kateqoriyaları üzrə kənd təsərrüfatının ümumi məhsulu (faktiki qiymətlərlə, mlyn. manat)**

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|
| **Bütün təsərrüfat kateqoriyaları,cəmi** | 5635,3 | 5632,4 | 6580,0 | 7010,0 | 7836,7 |
| O cümlədən | | | | | |
| Bitkiçilik | 2761,1 | 2577,2 | 3019,0 | 3186,0 | 3751,2 |
| Heyvandarlıq | 2874,2 | 3055,2 | 3561,0 | 3824,0 | 4085,5 |
| **Kənd təsərrüfatı müəssisələri** | 410,1 | 449,2 | 645,4 | 660,9 | 713,2 |
| O cümlədən | | | | | |
| Bitkiçilik | 132,5 | 145,8 | 238,5 | 262,1 | 321,0 |
| Heyvandarlıq | 277,6 | 303,4 | 406,9 | 398,8 | 392,2 |
| **Fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatları** | 5225,2 | 5183,2 | 5934,6 | 6349,1 | 7123,5 |
| O cümlədən | | | | | |
| Bitkiçilik | 2628,6 | 2431,4 | 2780,5 | 2923,9 | 3430,2 |
| Heyvandarlıq | 2596,6 | 2751,8 | 3154,1 | 3425,2 | 3693,3 |

**Mənbə:** Dövlət Statistika Komitəsinin məlumatları əsasında tərtib olunmuşdur https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/azfigures_2020.zip
https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/azfigures_2019.zip

Cədvəl 13-ə baxdığımız zaman görərik ki, strateji yol xəritələrinin təsdiq olunduğu ildən sonra məhsulların ümumi dəyərində daha böyük artım baş vermişdir. 2016-cı ildə məhsulların ümumi dəyəri 5632,4 milyon manat olmuşdursa, cəmi 1 il sonra bu göstərici 6580,0 milyon manatadək yüksəlmişdir. Bu rəqəmlərdə fərdi sahibkar, ev təsərrüfatları və kənd təsərrüfatı müəssisələrinin

payı vardır. Təbii olaraq, burada fərdi sahibkar, ev təsərrüfatlarının payı daha çoxdur. İstər ev təsərrüfatlarının, istərsə də kənd təsərrüfatı müəssisələrinin məhsullarının ümumi dəyərində heyvandarlıq məhsullarının payı bitkiçilik məhsullarına nisbətən daha çoxdur.

Strateji yol xəritələri təsdiq olunan zaman Azərbaycanın torpaqlarının 20%-i işğal altında idi. 2020-ci ilin sentyabr-noyabr aylarında baş verən 2-ci Qarabağ müharibəsi nəticəsində rəşadətli ordumuz ölkəmizin işğal altında olan torpaqlarını işğaldan azad etmişdir. Azərbaycanın ən gözəl guşələrindən biri olan Qarabağın işğaldan azad olunması milli iqtisadiyyata və onun rəqabət qabiliyyətinə çox böyük müsbət təsir göstərəcəkdir. Strateji yol xəritəsi təsdiq olunan hər bir sektorun inkişafında yeni bir mərhələnin başladığını deyə bilərik. Bunun üçün də yol xəritəsində qeyd olunan məsələlərə yenidən baxılması və dəyişikliklər edilməsi mütləqdir. İşğaldan azad olunan ərazilərimizi kənd təsərrüfatı cəhətdən analiz etdikdə görərik ki, həmin ərazilər Azərbaycanın ümumi sahəsinin 20%-ə yaxın bir hissəsini əhatə etməsinə baxmayaraq, bu ərazilərin kənd təsərrüfatı potensialı ümumi Azərbaycanın kənd təsərrüfatı potensialının 20%-dən daha çoxdur. Həmin ərazilərin iqliminin və relyefinin kənd təsərrüfatı üçün yararlı olması, çoxlu sayda dağ çaylarının, su anbarlarının, otlaq sahələrinin, meşələrin və s. olması bu ərazilərin Azərbaycanın əsas qeyri-neft sektorlarından olan kənd təsərrüfatının inkişafına, bu da öz növbəsində milli iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsinə çox böyük müsbət təsir göstərəcəyinə işarədir. Kənd təsərrüfatının inkişafı üçün qəbul olunan strateji yol xəritəsində gələcək illər üçün nəzərdə tutulan uzunmüddətli və hədəf baxışlar üçün prioritet məsələlər və gələcək illər üçün verilən proqnozlar yenidən gözdən keçirilməlidir.

İqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsinə xidmət edən sektorlardan biri də sənaye sektorudur. Xüsusilə də qeyri-neft sənayesinin inkişafı Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətinin yüksəldilməsinə müsbət təsir göstərir. Ölkəmizdə sənayenin inkişafı üçün dövlət proqramı qəbul olunmuşdur. Bu dövlət proqramı 2015-2020-ci illəri əhatə etmişdir. Bununla yanaşı, ölkəmizdə iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsinə xidmət edən sənaye

sahələrindən biri ağır sənayedir ki, bu sahənin və tərkib hissəsi olan maşınqayırmanın inkişafı üçün strateji yol xəritəsi qəbul olunmuşdur. Digər yol xəritələrində olduğu kimi burada da uzunmüddətli və hədəf baxışlar, prioritet məsələlər və.s qeyd olunmuşdur.

Bu strateji yol xəritəsinin yalnız 2017-ci il üçün həyata keçirilməli olan tədbirlərin 68%-i icra edilmişdir ki, bu da kənd təsərrüfatı ilə müqayisədə yüksək nəticədir (https://www.iqtisadiislahat.org/store//media/documents/SYX/2017/Umumi_opt.pdf). 2019-cu ilin əvvəllərində isə İİTKM tərəfindən həmin dövrədək olan icra vəziyyəti qiymətləndirilmişdir. Sənayenin bu sahəsinin inkişafı üçün nəzərdə tutulan strateji yol xəritəsinin 2 illik icra vəziyyəti 47% təşkil etmişdir (https://iqtisadiislahat.org/store//media/documents/SYX-2018.pdf).

Nəticəsində strateji yol xəritəsinin də payının olduğu sənaye məhsullarının dəyəri son 5 ildə əhəmiyyətli dərəcədə artmışdır. Aşağıdakı cədvəldə mədənçıxarma, emal və s. sənaye məhsullarının dəyəri haqqında məlumatlar verilmişdir.

**Cədvəl 14: Sənaye məhsulunun (işlərin, xidmətlərin) dəyəri (faktiki qiymətlərlə, milyon manat)**

| | **2015** | **2016** | **2017** | **2018** | **2019** |
|---|---|---|---|---|---|
| **Bütün sənaye** | 26369,4 | 32300,2 | 39892,5 | 47677,0 | 46999,2 |
| **Mədənçıxarma sənayesi** | 16362,3 | 21131,9 | 28033,5 | 34931,5 | 32857,5 |
| **Emal sənayesi** | 7880,4 | 8899,5 | 9723,5 | 10465,4 | 11793,8 |
| **Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı** | 1887,2 | 1937,8 | 1839,8 | 1961,2 | 2011,6 |
| **Su təchizatı, tullantıların təmizlənməsi və emalı** | 239,5 | 271,0 | 295,7 | 318,9 | 336,3 |

**Mənbə:** Dövlət Statistika Komitəsinin məlumatları əsasında tərtib olunmuşdur https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/industry_2020.zip

ARDSK-nın məlumatına əsasən, Azərbaycanda sənaye məhsullarının dəyəri 2015-ci il ilə müqayisədə 20629,8 milyon manat artaraq 2019-cu ildə 46999,2 milyon manat təşkil etmişdir. 2019-cu ildə sənaye məhsullarının dəyərində əsas

payı 11793,8 milyon manatla mədənçıxarma sənayesindən sonra tərkibində ağır sənayenin də olduğu emal sənayesi tutur.

İşğaldan azad olunan ərazilərimizin yalnız kənd təsərrüfatının deyil, sənaye sektorunun da inkişafına müsbət təsir göstərəcəyi mütləqdir. Bu ərazilərdə istər mədənçıxarma, istər emal, istərsə də digər sənaye sahələri üçün xammal ola biləcək kifayət qədər təbii ehtiyat mövcuddur. Bu təbii ehtiyatların hər bir sektor üzrə, xüsusilə də sənaye sektoru üzrə dövriyyəyə cəlb edilməsi həmin sektorların inkişafına böyük töhfə verəcəkdir. Bu da özlüyündə milli iqtisadiyyatın inkişafına və onun rəqabət qabiliyyətinin yüksəldilməsinə müsbət təsir göstərəcəkdir. Ağır sənaye ilə bağlı strateji yol xəritəsində azad olunan ərazilərimizin sənaye potensialına görə dəyişikliklər edilməli, bu ərazilərdəki resurslardan sənaye sektoru üçün səmərəli şəkildə istifadə edilməlidir. Sənayenin inkişafı ilə bağlı 2015-2020-ci illər proqramından sonra yeni bir dövlət proqramı qəbul etmək lazımdır ki, burada işğaldan azad olunan ərazilərimizin də potensialından maksimum və səmərəli şəkildə istifadə edərək daha yüksək inkişafa nail olunsun.

İnkişaf etdirilməsi zəruri olan, iqtisadiyyatın rəqabət qabiliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərən milli iqtisadiyyatın əsas sektorlarından biri də turizm sektorudur. Bu sektorun inkişafı ilə bağlı əvvəlki illərdə müxtəlif dövlət proqramları qəbul olunmuş, tədbirlər həyata keçirilmişdir. Bu sektorun inkişafı ilə bağlı milli iqtisadiyyatın əsas tərkib hissəsi kimi strateji yol xəritəsi qəbul olunmuşdur. Turizm sektorunun rentabellik səviyyəsinin yüksək olması dövlət tərəfindən bu sektorun inkişafına xüsusi diqqət ayrılması üçün əsas verir.

Bu sektorun inkişafı üçün həyata keçirilməli olan tədbirlərin başında strateji yol xəritəsində nəzərdə tutulan tədbirlər gəlir. Burada da digər yol xəritələrində olduğu kimi gələcəkdə turizm sektorunun daha yüksək inkişafı üçün uzunmüddətli və hədəf baxışlar qəbul olunmuş və icra edilməkdədir. Bu strateji yol xəritəsinin 2017-ci il ərzində həyata keçirilməsi qarşıya məqsəd qoyulan tədbirlərin həmin ilin sonunda 36%-i icra edilmişdir (https://www.iqtisadiislahat.org/store//media/documents/SYX/2017/Umumi_opt.pdf). 2019-cu ildə isə ümumilikdə yol xəritələrinin təsdiq olunduğu gündən həyata keçirilməli

olan tədbirlərin icra vəziyyəti qiymətləndirilmişdir. Bu sektorla bağlı strateji yol xəritəsinin icra səviyyəsi 30% ilə digər sektorlarla müqayisədə daha aşağı olmuşdur (https://iqtisadiislahat.org/store//media/documents/SYX-2018.pdf).

2015-ci ildən sonra ölkəmizə turizm məqsədilə gələn insanların sayında artım olmuşdur. Aşağıdakı cədvəldə bununla bağlı məlumatlar verilmişdir.

**Cədvəl 15: Ölkəyə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin və xarici ölkələrə gedən Azərbaycan Respublikası vətəndaşlarının sayı (min nəfər)**

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|
| **Azərbaycana gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin sayı** | 2006,2 | 2248,8 | 2696,7 | 2849,6 | 3170,4 |
| **O cümlədən:** | | | | | |
| **Turizm məqsədilə** | 1921,9 | 2044,7 | 2454,0 | 2605,3 | 2863,5 |
| **Xarici ölkələrə gedən Azərbaycan vətəndaşlarının sayı** | 4095,8 | 4281,8 | 4108,9 | 4908,1 | 5567,7 |
| **O cümlədən:** | | | | | |
| **Turizm məqsədilə** | 3256,2 | 3592,1 | 3447,4 | 4096,7 | 4347,3 |

**Mənbə:** Dövlət Statistika Komitəsinin məlumatları əsasında tərtib olunmuşdur https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/tourism_2020_1.zip

Son 5 ildə ölkəyə gələn Azərbaycan vətəndaşı olmayan şəxslərin sayı 2006,2 min nəfərlə 3170,4 nəfər aralığında olmuşdur. Bu insanların çox hissəsinin turizm məqsədli səfəri milli iqtisadiyyat üçün müsbət bir haldır. Xarici ölkələrə gedən azərbaycanlıların sayı isə hər keçən il artmaqdadır. Lakin bu səfərlərin, xüsusilə də gənc nəsil arasında turizm məqsədi ilə gedənlərin sayının çoxluq təşkil etməsi sevindirici haldır.

Torpaqlarımızın işğaldan azad olunmasının iqtisadiyyatın əsas sektorları arasında bəlkə də ən çox müsbət təsir edəcəyi sektor turizmdir. Bu ərazilərin turizm potensialı istər iqlimi, istərsə də relyefi ilə olduqca yüksəkdir. Azərbaycanın digər regionlarında olduğu kimi bu regionun da turizm sektorunun inkişafına xüsusi diqqət ayrılmalıdır və heç şübhə yoxdur ki, ayrılacaqdır. Bu sektorun

inkişafı ilə bağlı qəbul olunan strateji yol xəritəsində digər sektorlarda olduğu kimi dəyişikliklər edilməli, bu işlərin icrasına xüsusi diqqət yetirilməlidir. Bundan sonra həyata keçiriləcək işlərin nəticələri ilə bağlı gözləntilər daha da yüksək olacaqdır.

Ticarətin inkişafı istənilən ölkənin, o cümlədən, Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətinin yüksəldilməsində vacib məsələlərdən biridir. Ticarət və logistika bir-birilərilə vəhdət təşkil etdiyi üçün ölkəmizdə bu sahələrin birgə inkişafı məqsədilə strateji yol xəritəsinin qəbul olunması mühüm bir addımdır. Bu strateji yol xəritəsinin 2017-ci il üzrə icra vəziyyəti 73% təşkil etmişdir. Digər yol xəritələrinin icra vəziyyəti ilə müqayisədə yaxşı səviyyədədir (https://www.iqtisadiislahat.org/store//media/documents/SYX/2017/Umumi_opt.pdf). 2019-cu ilə qədər olan icra vəziyyəti isə 27% təşkil etmişdir (https://iqtisadiislahat.org/store//media/documents/SYX-2018.pdf).

ARDSK-nın məlumatına görə Azərbaycanın pərakəndə ticarət dövriyyəsi son 5 ildə 13670,6 milyon manat artmışdır. Belə ki, 2015-ci ildə bu rəqəm 25721,1 milyon manat olmuşdusa, 2019-cu ildə 39391,7 milyon manatadək yüksəlmişdir. Topdansatış dövriyyəsi də 2015-ci ildə 26351,4 milyon manat, 2019-cu ildə isə 30803,6 milyon manat təşkil etmişdir (https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/trade_2020.zip).

İşğaldan azad olunan ərazilərimizdə ticarət sektorunun inkişafı milli iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsində böyük rol oynayacaqdır. Dövlət digər sektorlarla yanaşı bu sektor üçün də mütləq şəkildə yeni inkişaf perspektivləri müəyyən etməli, yeni proqramlar qəbul etməlidir.

Hər bir sektorun inkişafı üçün investisiyaların, həyata keçirilən sahibkarlıq fəaliyyətlərinin böyük əhəmiyyəti vardır. Ölkəmizdə mikro sahibkarlıq kiçik və orta sahibkarlığa nisbətən daha çox inkişaf etmişdir. Bunu nəzərə alaraq, 2016-cı ildə ölkəmizdə strateji yol xəritələri təsdiq olunan zaman kiçik və orta sahibkarlığın da inkişafı ilə bağlı strateji yol xəritəsi qəbul olunmuşdur. Burada da digər yol xəritələrində olduğu kimi mövcud vəziyyət təhlil olunmuş, gələcək illər üçün prioritet məsələlər qeyd olunmuşdur.

Kiçik və orta sahibkarlığın inkişafı ilə bağlı strateji yol xəritəsinin yalnız 2017-ci il üçün həyata keçirilməli olan tədbirlərinin icra vəziyyəti 79% (https://www.iqtisadiislahat.org/store//media/documents/SYX/2017/Umumi_opt.pdf), 2019-cu ilədək olan ümumi icra vəziyyəti isə 52% (https://iqtisadiislahat.org/store//media/documents/SYX-2018.pdf) təşkil etmişdir.

Ölkəmizdə sahibkarlıqla bağlı strateji yol xəritəsinin qəbul olunmasında əsas məqsədlərdən biri sahibkarlıq subyektlərinin, xüsusilə də kiçik və orta sahibkarlıq subyektlərinin sayının artırılmasından ibarətdir. Aşağıdakı cədvəldə 2018 və 2019-cu illərin iqtisadi fəaliyyət növləri üzrə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayları haqqında məlumatlar öz əksini tapmışdır.

**Cədvəl 16: İqtisadi fəaliyyət və mülkiyyət növləri üzrə fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı**

| | Mikro | | Kiçik | | Orta | |
|---|---|---|---|---|---|---|
| | 2018 | 2019 | 2018 | 2019 | 2018 | 2019 |
| İqtisadi fəaliyyət növləri üzrə cəmi | 237815 | 262622 | 4930 | 5956 | 2138 | 2726 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 2807 | 2941 | 236 | 267 | 79 | 131 |
| Sənaye cəmi | 8203 | 9615 | 643 | 746 | 523 | 622 |
| Mədənçıxarma sənayesi | 375 | 538 | 69 | 79 | 33 | 36 |
| Emal sənayesi | 7541 | 8686 | 493 | 565 | 282 | 334 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 89 | 83 | 32 | 32 | 123 | 134 |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 198 | 308 | 49 | 70 | 85 | 118 |
| Tikinti | 2857 | 5149 | 566 | 680 | 388 | 420 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 74897 | 82207 | 1442 | 1922 | 438 | 715 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 18044 | 19601 | 198 | 216 | 65 | 86 |
| İnformasiya və rabitə | 3094 | 3767 | 192 | 228 | 112 | 120 |

**Mənbə:** Dövlət Statistika Komitəsinin məlumatları əsasında tərtib olunmuşdur https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/entrepreneurship_2019.zip https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/entrepreneurship_2020.zip

Ölkəmizdə mikro sahibkarlığın kiçik və orta sahibkarlığa nisbətən daha çox inkişaf etməsi sahibkarlıq subyektlərinin sayında da özünü göstərir. Milli iqtisadiyyatın əsas sektorlarının hər birində kiçik və orta sahibkarlığın inkişafı həmin sektorların rəqabət qabiliyyətinin yüksəldilməsinə gətirib çıxarır ki, bu da özlüyündə milli iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsinə müsbət təsir göstərir. 2018-ci ildə Azərbaycanda ümumilikdə 4930 kiçik sahibkarlıq subyekti var idisə, 2019-cu ildə bu rəqəm 5956-a yüksəlmişdir. Burada əsas payı sənaye və ticarət sektorundakı kiçik sahibkarlıq subyektləri tutur. Demək olar ki, 2019-cu 2018-ci il ilə müqayisədə bütün sektorlar üzrə kiçik sahibkarlıq subyektlərinin sayı artmışdır. Orta sahibkarlıq subyektlərinin sayı kiçik sahibkarlıq subyektlərinin sayına nisbətən az olsa da, 2018-ci il ilə müqayisədə 2019-cu ildə orta sahibkarlıq subyektlərinin sayında artım olmuşdur. Belə ki, 2018-ci ildə 2138 orta sahibkarlıq subyekti var idisə, 2019-cu ildə bu rəqəm 2726-a yüksəlmişdir. Orta sahibkarlıq subyektlərinin sayında da ən çox payı sənaye və tikinti sektorları tutur.

Son illərdə Azərbaycanda sahibkarlığın, xüsusilə də kiçik və orta sahibkarlığın inkişafında qəbul olunmuş strateji yol xəritəsinin böyük payı olmuşdur. Bu strateji yol xəritəsinin icra vəziyyətinin digərlərilə müqayisədə yüksək səviyyədə olması və həyata keçirilən tədbirlər bu sahəyə çox böyük müsbət təsir göstərmişdir.

Son dövrlərədək milli iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsində neft sektorunun payı qeyri-neft sektoruna nisbətən daha çox olmuşdur. Buna əsasən də, son dövrlərdə hökumətin qarşısında duran ən önəmli məsələlərdən biri iqtisadiyyatın inkişafının neft sektorundan asılılığını azaltmaq və qeyri-neft sektorunu inkişaf etdirərək iqtisadiyyatın rəqabət qabiliyyətini daha da yüksək səviyyələrə daşımaqdan ibarətdir. İqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsinə xidmət edən sektorların inkişafı ilə bağlı müxtəlif tədbirlər həyata keçirilmişdir və bundan sonra da bu inkişafın davamlılığı üçün mühüm tədbirlər həyata keçirilməlidir.

### 3.3. Milli iqtisadiyyatın inklüzivliyinin təmin edilməsi istiqamətləri

Müasir dövrdə iqtisadiyyatın inkişafının inklüzivliyi hər bir ölkə üçün diqqət yetirilməsi gərəkən bir məsələdir. Dünya ölkələrinin iqtisadiyyatının inkişafının inklüzivliyi və iqtisadiyyatın rəqabət qabiliyyəti ilə bağlı bir sıra beynəlxalq təşkilatlar tərəfindən hesabatlar tərtib olunur. Bu təşkilatlara misal olaraq BMT, İƏİT, DB, DİF, BVF və s. göstərmək olar. Bu təşkilatların tərtib etdiyi hesabatların içərisində inklüzivliklə birbaşa əlaqəli olan hesabat DİF-in "İnklüziv İnkişaf İndeksi" hesabatıdır. Bu hesabatda da "Qlobal Rəqabətqabiliyyətlilik İndeksi" hesabatında olduğu kimi əsas və alt göstəricilər mövcuddur. Bu hesabatda 3 əsas göstərici var ki, bunlara "Artım və İnkişaf", "İnklüzivlik", "Nəsillərarası bərabərlik və dayanıqlılıq" aiddir. Bu göstəricilərin hər birinin alt göstəriciləri mövcuddur ki, hər biri üzrə ölkəmizin nəticələri aşağıdakı cədvəldə öz əksini tapmışdır.

**Cədvəl 17: "İnklüziv İnkişaf İndeksi" hesabatındakı alt göstəricilər üzrə Azərbaycanın 2017 və 2018-ci il nəticələri**

| | 2017 | | 2018 | |
|---|---|---|---|---|
| | Qiymətləndirmə | 5 illik trend | Qiymətləndirmə | 5 illik trend |
| Adambaşına düşən ÜDM(dollar) | 6116 | 0.9 | 5859 | 0.3 |
| Əmək məhsuldarlığı(dollar) | 34886 | 0.9 | 33242 | 0.0 |
| Sağlam ömür müddəti gözləntisi(İl) | 64.7 | 2.7 | 64.7 | 2.7 |
| Məşğulluq səviyyəsi(%) | 63.2 | 2.3 | 61.9 | 0.9 |
| Gəlirlər üzrə Cini indeksi | 30.9 | 11.8 | 28.6 | 2.1 |
| Yoxsulluq səviyyəsi(%) | 2.5 | 2.2 | 2.7 | 2.2 |
| Zənginlik üzrə Cini indeksi | 68.3 | 3.8 | 51.0 | -14.1 |
| Orta gəlir($) | 8.5 | 0.6 | 8.5 | 0.6 |
| Təmiz yığım göstəricisi(%) | 18.4 | 7.9 | 15.9 | -6.1 |
| ÜDM-in karbon intensivliyi($) | 145.4 | 9.7 | 145.4 | 9.7 |
| Dövlət borcunun ÜDM-ə nisbəti(%) | 28.3 | 16.9 | 37.7 | 23.7 |
| Demoqrafik yük əmsalı(%) | 38.0 | -1.2 | 40.9 | 1.4 |

**Mənbə:** "İnklüziv İnkişaf İndeksi" hesabatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

DİF-in “İnklüziv İnkişaf İndeksi 2017” hesabatında ölkəmizin adambaşına düşən ÜDM miqdarı 6116 dollar təşkil etmişdir. Bu rəqəm 2018-ci ildə 5859 dollar olmuşdur. Bu alt göstərici üzrə 5 illik trend 2017-ci ildə 0.9%, 2018-ci ildə isə 0.3% olmuşdur. Adambaşına düşən ÜDM miqdarına görə ölkəmiz yuxarı-orta gəlirli ölkələr sırasına daxil edilmişdir. Ölkənin əmək məhsuldarlığında da az miqdarda azalma olmuşdur. Belə ki, 2017-ci ildə ölkənin əmək məhsuldarlığı 34886 dollar olmuşdusa, 2018-ci ildə bu rəqəm 33242 dollara düşmüşdür. DİF-in bu hesabatda “sağlam ömür müddəti gözləntisi” alt göstəricisini tətbiq etməkdə əsas məqsədi hər bir ölkədə insanların ortalama neçə yaşa qədər sağlam bir şəkildə yaşadığını müəyyən etməkdir. Azərbaycanda bu rəqəm hər iki ildə 64.7 yaş olmuşdur. Ölkə əhalisinin məşğulluq səviyyəsi 2017-ci ildə 63.2%, 2018-ci ildə isə 61.9% təşkil etmişdir. Bəhs olunan bu alt göstəricilər 1-ci əsas göstərici olan “Artım və İnkişaf”-ın tərkib hissələridir.

2-ci əsas göstərici olan “İnklüzivlik” göstəricisinin alt göstəricisi olan istər gəlirlər üzrə, istərsə də zənginlik üzrə Cini indeksində əmsal 0-a yaxınlaşdıqca bərabərlik səviyyəsi yüksəlir. Azərbaycanın 2017-ci ildə gəlirlər üzrə Cini əmsalı 30.9, 2018-ci ildə isə 28.6 olmuşdur. Zənginlik üzrə Cini əmsalı isə 2017-ci ildə 68.3, 2018-ci ildə 51.0 təşkil etmişdir. Hər iki alt göstərici üzrə nəticə yaxşılaşmışdır. Ölkədə yoxsulluq səviyyəsi 2017-ci ildə 2.5%, 2018-ci ildə 2.7% təşkil etmişdir. DİF-in məlumatına əsasən yoxsulluq səviyyəsi 2011-ci ildə müəyyən olunan və beynəlxalq qiymət olan 3 dollara əsasən müəyyən edilir. Sonuncu alt göstərici isə gündəlik olaraq adambaşına düşən orta gəliri əks etdirir. Azərbaycanda bu göstərici hər iki ildə 8.5 dollar təşkil etmişdir. 5 illik trendə nəzər saldıqda isə görərik ki, 0.6 dollar artım olmuşdur.

Əsas göstəricilərin sonuncusu “nəsillərarası bərabərlik və dayanıqlılıq”dır. Burada alt göstəricilərdən olan “təmiz yığım” üzrə ölkəmizin nəticəsi 2017-ci ildə 18.4%, 2018-ci ildə 15.9% olmuşdur. “ÜDM-in karbon intensivliyi” alt göstəricisi üzrə nəticə hər iki ildə 145.4 dollar olmuşdur. “İnklüziv İnkişaf İndeksi” hesabatına əsasən 2017-ci ildə Azərbaycanda dövlət borcu ÜDM-in 28.3%-ni, 2018-ci ildə isə 37.7%-ni təşkil etmişdir. Əvvəlki fəsillərdə verilən ÜDM

statistikasına əsasən deyə bilərik ki, Azərbaycanın dövlət borcunda artım olmuşdur. 3-cü əsas göstəricinin tərkib hissəsi olan "demoqrafik yük əmsalı" ölkədə 15 yaşa qədər və 64 yaşdan yuxarı əhalinin 15-64 yaş arasında olan əhalinin hər 100 nəfərinə düşən payı bildirir. Azərbaycanda bu göstərici 2017-ci ildə 38%, 2018-ci ildə isə 40.9 faiz olmuşdur.

Son dövrlərdə ölkəmizdə inklüzivliyin yüksəldilməsi üçün görülən işlər beynəlxalq arenada bəhrəsini vermişdir. Ölkəmiz "İnklüziv İnkişaf İndeksi 2017" hesabatında inkişaf etməkdə olan ölkələr arasında 2-ci, 2018-ci il hesabatında isə 3-cü yerdə qərarlaşmışdır.

**Cədvəl 18: "İnklüziv İnkişaf İndeksi" 2017 və 2018-ci il hesabatlarında inkişaf etməkdə olan ölkələrin sıralaması**

| | 2017 | | | 2018 | | |
|---|---|---|---|---|---|---|
| | Sıra | Xal | 5 illik trend(%) | Sıra | Xal | 5 illik trend(%) |
| Litva | 1 | 4.73 | 2.01 | 1 | 4.86 | 4.90 |
| Macarıstan | 3 | 4.57 | 3.14 | 2 | 4.74 | 8.10 |
| Azərbaycan | 2 | 4.73 | -0.46 | 3 | 4.69 | -2.07 |
| Latviya | 7 | 4.52 | 3.75 | 4 | 4.67 | 8.60 |
| Polşa | 4 | 4.57 | 1.12 | 5 | 4.61 | 3.39 |
| Panama | 8 | 4.52 | 0.99 | 6 | 4.54 | 4.80 |
| Xorvatiya | 23 | 4.28 | -5.98 | 7 | 4.48 | 2.89 |
| Uruqvay | 6 | 4.53 | 4.23 | 8 | 4.46 | 1.65 |
| Çili | 10 | 4.46 | 2.07 | 9 | 4.44 | 1.76 |
| Ruminiya | 5 | 4.53 | 5.17 | 10 | 4.43 | 4.21 |

**Mənbə:** "İnklüziv İnkişaf İndeksi" hesabatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

Azərbaycan həm 2017, həm də 2018-ci ildə "İnklüziv İnkişaf İndeksi" hesabatlarında Latviya, Xorvatiya, Polşa, Rumıniya və s. kimi ölkələri qabaqlamağı bacarmışdır. Cədvəldəkilərdən əlavə, ölkəmiz Türkiyə, Rusiya, İran, Gürcüstan, Bolqarıstan və s. kimi ölkələri də geridə qoymuşdur. 2017-ci il hesabatında lider Litva ilə xal fərqi belə olmamışdır. 2018-ci ildə isə Litva və Macarıstandan çox az fərqlə 3-cü yeri tutmuşdur.

Ölkəmizdə inklüzivliklə əlaqəli müxtəlif dövlət proqramları, strateji yol xəritələri, inkişaf konsepsiyası və s. qəbul edilmişdir. Xüsusilə də regionların inkişafı ilə bağlı qəbul edilən dövlət proqramlarının istər müxtəlif sektorların ayrı-ayrılıqda, istərsə də ümumilikdə iqtisadiyyatın inklüziv inkişafına müsbət təsirləri

olmuşdur. "Dövlət proqramlarının icra olunduğu 2004–2018-ci illər ərzində ümumi daxili məhsul 3,3 dəfə, o cümlədən qeyri-neft sektoru üzrə 2,8 dəfə, sənaye üzrə 2,6 dəfə, kənd təsərrüfatı üzrə 1,7 dəfə artmışdır" (http://www.e-qanun.az/framework/41320).

Rəqabətqabiliyyətlilik, inklüzivlik müasir dövrdə ölkənin sosial-iqtisadi inkişafında dövlətin qarşısında duran ən aktual məsələlərdəndir. Bununla bağlı AR Prezidentinin 2 fevral 2021-ci il tarixli "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" Sərəncamı təsdiq edilmişdir. Qarşıdakı 10 il ərzində ölkə iqtisadiyyatı üçün aşağıdakı 5 Milli Prioritetin reallaşdırılması əsas məqsədlərdəndir:

1. dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;
2. dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
3. rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
4. işğaldan azad olunmuş ərazilərə böyük qayıdış;
5. təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi *(https://president.az/articles/50474).*

Hər bir milli prioritetin uğurlu bir şəkildə həyata keçirilməsi üçün özünəməxsus məqsədləri mövcuddur. Bu prioritetlərin nəticəsinin uğurlu olması üçün iqtisadi artımın davamlılığı təmin edilməli, ölkənin regionları tarazlı şəkildə inkişaf etdirilməli, təhsil və səhiyyə sisteminə xüsusi diqqət yetirilməli və ətraf mühitin təmizliyi gözlənilməlidir. 2030-cu ilə qədər bu prioritetlərin tam reallaşdırılması üçün bu məqsədlərə nail olunması mütləqdir. Bu milli prioritetlərin uğurla həyata keçirilməsi ölkənin sosial-iqtisadi inkişafının inklüzivliyinə müsbət təsir göstərəcəkdir ki, bu da özlüyündə iqtisadiyyatın rəqabət qabiliyyətinin daha da yüksəldilməsinə əhəmiyyətli dərəcədə təsir göstərəcəkdir.

Ölkənin sosial-iqtisadi inkişafının inklüzivliyinin yüksəldilməsi üçün aşağıdakı tədbirlərin də həyata keçirilməsi məqsədəuyğun olar:

- "Subsidiyaların, biznes-kreditlərin, fondların, qrantların artırılması;
- Prezidentin güzəştli təqaüdlərinin artırılması;
- Gəlir vergisindən azadolmalar;
- Müharibə əlillərinə və veteranlarına təqaüd məbləğinin artırılması

- Bəzi xəstələrin müalicəsinə kömək, bir çox xəstələrə pulsuz dərmanların verilməsi və s." (Əliquliyev R.M., Əliyev Ə.Q, 2020: s.57).

Müasir dövrdə iqtisadiyyatın inkişafının inklüzivliyinin təmin olunması istər sektorial, istərsə də regional baxımdan olduqca vacibdir. Son illərdə beynəlxalq arenada da inklüzivliklə bağlı hesabatların tərtib olunması, ölkələrin inkişafının inklüzivliyinin qiymətləndirilməsi və digər ölkələrlə müqayisəsi ölkələrin sosial-iqtisadi inkişafının inklüzivliyinin zaman keçdikcə yüksəldilməsinə daha çox diqqət yetirilməsini zəruri edir.

İqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi, sektorial inkişafının və inklüzivliyinin təmin olunması üçün son 5 ildə həyata keçirilən ən mühüm addım strateji yol xəritələrinin qəbul olunmasıdır. Bu istiqamətdə həyata keçirilən struktur islahatların, qəbul olunan strateji yol xəritələrinin ölkəmizin iqtisadiyyatının sektorial inkişafında, iqtisadi inkişafın inklüzivliyinin təmin olunmasında, Azərbaycanın beynəlxalq arenadakı mövqeyinin müsbət yöndə dəyişməsində mühüm əhəmiyyəti olmuşdur.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Aparılan araşdırmalara əsasən son illərdə ölkəmizdə dünya ölkələrinin uğurlu iqtisadi inkişaf modellərindən istifadə edilməyə başlanılıb. Bunun da nəticəsi olaraq ölkəmizdə yaradılan müasir sənaye və texnologiyalar parkları, azad iqtisadi zona yaradılmışdır.

Azərbaycan iqtisadiyyatının əsas makroiqtisadi göstəricilərinin əksəriyyəti üzrə son 5 ildə inkişafa nail olunmuşdur. Bu da iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsinə müsbət təsir göstərmişdir.

Beynəlxalq təşkilatlar tərəfindən rəqabətqabiliyyətlilik ilə bağlı hər il müxtəlif hesabatlar tərtib olunur. Bunların içərisində "Qlobal Rəqabətqabiliyyətlilik İndeksi" və "Doing Business" hesabatları ölkələrin rəqabətqabiliyyətlikləri ilə daha çox bağlıdır. Azərbaycan son 5 ildə "Doing Business" hesabatında 65-ci yerdən 25-ci yerə qədər yüksəlmişdir. "Qlobal Rəqabətqabiliyyətlilik İndeksi" hesabatlarında 2018-ci ildən sonra metodologiya dəyişdiyindən araşdırma zamanı 2018-ci ildən sonrakı illərin hesabatlarından istifadə olunmuşdur. Azərbaycan bu hesabatda bir il ərzində mövqeyini 11 pillə yüksəltməyi bacarmışdır.

Aparılan araşdırmalara əsasən iqtisadiyyatın rəqabət qabiliyyətinə təhdid və təhlükələr daxili və xarici olmaqla 2 cürdür. Ölkəmizdə istər daxili, istərsə də xarici təhdidlərə qarşı mübarizə üçün lazımi işlər görülməkdədir.

Müasir dövrdə xarici investisiyaların iqtisadiyyatın inkişafındakı rolu danılmazdır. Xarici investisiyaların cəlb olunması iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsinə birbaşa təsir göstərir və bunun üçün də müstəqillik əldə etdikdən indiki dövrədək bu sahə ilə bağlı müxtəlif qanunlar qəbul edilmişdir.

İqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsinə dair həyata keçirilən struktur islahatlar xarici investisiyaların cəlb edilməsi, insan kapitalının inkişafı, əmək məhsuldarlığı, əhalinin məşğulluğu və s. iqtisadi kateqoriyaların qarşılıqlı əlaqə şəklində inkişafı milli iqtisadiyyatın inkişafına müsbət təsir göstərir.

ÜDM-in həcmində qeyri-neft məhsullarının payının artırılması iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi baxımından olduqca əhəmiyyətlidir. Bu

istiqamətdə daha çox inkişafa nail olmaq üçün AR Prezidentinin Sərəncamı da mövcuddur.

İqtisadi təhlükəsizlik milli təhlükəsizliyin bir parçası olduğu kimi, iqtisadiyyatın rəqabətqabiliyyətliliyi də milli rəqabətqabiliyyətliliyin tərkib hissəsidir. Milli rəqabətqabiliyyətliliyin təmin olunması üçün iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi yönündə mühüm tədbirlər həyata keçirilir. Həyata keçirilən tədbirlər iqtisadi təhlükəsizliyin təmin olunmasında mühüm rol oynayır ki, bu da özlüyündə milli təhlükəsizliyin təmin olunması üçün vacib amildir.

Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətinin yüksəldilməsinə xidmət edən perspektiv sektorların hər birinin inkişafı ilə bağlı müxtəlif qanunlar qəbul edilmiş, strateji yol xəritələri təsdiqlənmişdir. Neft sektoru ilə qeyri-neft sektoru arasında müqayisə aparan zaman açıq şəkildə görmək olar ki, Azərbaycan iqtisadiyyatında neft sektorunun payı daha üstündür. Bunun üçün də son illərdə iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsinə xidmət edən əsas sektorlar qeyri-neft sektorlarından ibarətdir.

Müasir dövrdə iqtisadiyyatın inklüzivliyinin təmin olunması aktual məsələlərdəndir. İqtisadi inkişafın həm milli, həm regional, həm də sektorial baxımdan inklüzivliyinin təmin olunması iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsində olduqca vacib paya sahibdir. Beynəlxalq arenada da sırf inklüzivliklə bağlı hesabatlar tərtib olunduğundan dünya ölkələri bu məsələyə daha çox diqqət ayırırlar.

Tədqiqat işi üçün aparılan araşdırmaların nəticəsinə əsaslanaraq aşağıdakı təkliflər irəli sürülə bilər:

1. Xarici investisiyaların cəlbi və ölkədə investisiya təşviqi üçün nəzərdə tutulan qanunların qəbul olunmasından uzun illər keçdiyi üçün həmin qanunlarda dəyişikliklər edilməsi daha məqsədəuyğun olar.

2. İqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi üçün qeyri-neft sektorunun inkişafına daha da çox diqqət ayrılmalıdır. Xüsusilə də torpaqlarımızın işğaldan azad olunmasından sonra qeyri-neft sektorunun inkişafı ilə bağlı yeni tədbirlər həyata keçirilməlidir.

3. Torpaqlarımızın azad olunmasından sonra Azərbaycan iqtisadiyyatı üçün yeni bir mərhələnin başladığını deyə bilərik. Bunun üçün də sahibkarlığın, kənd təsərrüfatının, sənayenin, ticarətin, turizmin və s. inkişafı ilə bağlı həyata tədbirlərə, qəbul olunan sənədlərə, xüsusilə də strateji yol xəritələrinə yenidən baxılmalıdır.

4. Müasir dövrdə iqtisadi inkişafın inklüzivliyinin olduqca aktual olması, iqtisadiyyatın inklüzivliyinin təmin olunmasının iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi ilə birbaşa əlaqəli olması, beynəlxalq aləmdə inklüzivliklə bağlı hesabatların tərtib olunması və s. səbəblər onu deməyə əsas verir ki, iqtisadi inkişafın inklüzivliyinin formalaşdırılması ilə bağlı göstəricilər sistemindəki hər bir göstəricinin inkişafına xüsusi diqqət ayrılmalıdır.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

### Azərbaycan dilində

1. “Antiinhisar fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu, Bakı şəhəri, 4 mart 1993-cü il, № 526.

2. Azərbaycan Respublikasının Konstitusiyası (15,16, 35, 38, 73-cü maddələr).

3. “Azərbaycan 2020: gələcəyə baxış” İnkisaf Konsepsiyası. Azərbaycan Respublikasının Prezdenti İlham Əliyev. Bakı şəhəri, 2012-ci il, 29 dekabr.

4. “Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 29 yanvar 2019-cu il tarixli Fərmanı, Bakı, (31 yanvar 2019-cu ildə “Xalq Qəzeti”ndə dərc edilmişdir).

5. “Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 26 dekabr 2014-cü il tarixli Sərəncamı, Bakı (27 dekabr 2014-cü ildə “Azərbaycan Qəzeti”ndə dərc edilmişdir).

6. “Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 23 may 2007-ci il tarixli Sərəncamı, Bakı, (24 may 2007-ci ildə “Azərbaycan” qəzetində dərc edilmişdir).

7. “Haqsız rəqabət haqqında” Azərbaycan Respublikasının Qanunu, Bakı, 2 iyun 1995-ci il, № 1049.

8. “Xarici investisiyanın qorunması haqqında” Azərbaycan Respublikasının Qanunu (15 yanvar 1992-ci il).

9. “İnvestisiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu (14 yanvar 1995-ci il).

10. “İnvestisiya fəaliyyətinin təşviq edilməsi və xarici investorların hüquqlarının qorunması ilə bağlı bir sıra tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 18 yanvar 2018-ci il tarixli Sərəncamı, Bakı (19 yanvar 2018-ci ildə “Xalq Qəzeti”ndə dərc edilmişdir).

11. “Qeyri-neft sektorunda rəqabətqabiliyyətli daxili istehsalın dəstəklənməsi ilə bağlı əlavə tədbirlər” haqqında Azərbaycan Respublikası Prezidentinin 19 sentyabr

2018-ci il tarixli Sərəncamı, Bakı (20 sentyabr 2018-ci ildə “Xalq Qəzeti”ndə dərc edilmişdir).

12. “Milli təhlükəsizlik haqqında” Azərbaycan Respublikasının Qanunu, Bakı şəhəri, 29 iyun 2004-cü il, № 712.

13. “Təbii inhisarlar haqqında” Azərbaycan Respublikasının Qanunu, Bakı şəhəri, 15 dekabr 1998-ci il, № 590-IQ.

14. Abbasov.İ.M., Məmmədova.Z.M., Quliyev.E.N., (2012), Rəqabət və Marketinq(Monoqrafiya). Bakı, “Bakı Biznes Universiteti” – 157 səh.

15. ARDSK-nın “Azərbaycan rəqəmlərdə” 2019 və 2020-ci il statistik məcmuəsi.

16. ARDSK-nın “Azərbaycanda qiymətlər” statistik məcmuəsi, Bakı-2020.

17. ARDSK-nın “Azərbaycanda mikro, kiçik və orta sahibkarlıq” 2019 və 2020-ci il statistik məcmuəsi.

18. ARDSK-nın “Azərbaycanda turizm” statistik məcmuəsi, Bakı-2020.

19. ARDSK-nın “Azərbaycanın kənd təsərrüfatı” statistik məcmuəsi, Bakı-2020.

20. ARDSK-nın “Azərbaycanın milli hesabları” 2019 və 2020-ci il statistik məcmuəsi

21. ARDSK-nın “Azərbaycanın regionları” statistik məcmuəsi, Bakı-2020.

22. ARDSK-nın “Azərbaycanın sənayesi” statistik məcmuəsi, Bakı-2020.

23. ARDSK-nın “Azərbaycanın statistik göstəriciləri” 2019 və 2020-ci il statistik məcmuəsi.

24. ARDSK-nın “Əmək bazarı” statistik məcmuəsi, Bakı-2020.

25. Ataşov Bəyalı, “İqtisadi təhlükəsizlik problemləri: Kölgə iqtisadiyyatının və korrupsiyanın cilovlanmasına dair bəzi mülahizələr”, İqtisadiyyat və audit jurnalı, No.8, 2008, s.5-8.

26. Bərxudarov M., Məmmədov N. (2006), İqtisadi Təhlükəsizlik, Bakı, “İqtisad Universiteti” nəşriyyatı - 452 səh.

27. Dünya Bankının 2018 və 2019-cu il “Doing Business” hesabatları.

28. Dünya İqtisadi Forumunun “Qlobal Rəqabətqabiliyyətlilik İndeksi”-nin 1998, 2014-2015, 2017, 2018, 2019-cu il hesabatları.

29. Dünya Bankının “Global Economic Prospects” 2021-ci il yanvar hesabatı

30. Dünya Bankının 2016, 2017, 2018, 2019 və 2020-ci il “Doing Business” hesabatları

31. Dünya İqtisadi Forumunun 2011, 2016, 2017, 2018, 2019 və 2020-ci il “Qlobal Rəqabətqabiliyyətlilik” hesabatları

32. Dünya İqtisadi Forumunun 2017 və 2018-ci il “İnklüziv İnkişaf İndeksi” hesabatları

33. Əliquliyev R.M., Əliyev Ə.Q., “İqtisadi inkişafın inklüzivlik xüsusiyyətləri və onun formalaşması səviyyəsinin qiymətləndirilməsinin metodoloji əsasları”, AMEA İnformasiya Texnologiyaları İnstitutunun İnformasiya Cəmiyyəti Problemləri jurnalı, No.1, 2020, s.46-63.

34. Əsgərov Rəşad, “Qeyri-neft sənayesində sahibkarlığın rəqabətqabiliyyətliyinin mahiyyəti və şərtləri”, AMEA İqtisadiyyat İnstitutunun Elmi Əsərlər jurnalı, No.1, 2016, s.79-84.

35. Hacızadə.E.M., (2006) “Sosiallaşan iqtisadiyyat” Bakı, “Elm”. - 509 səh.

36. Hacızadə.E.M., Bağırzadə.E.R., (2011) “Azərbaycan iqtisadiyyatının dünyadakı reytinqi” Bakı, “Elm”. – 128 səh.

37. Həsənov.R.T, “Azərbaycanda inkişafı təşviq etmək üçün müzakirə platforması” layihəsi, Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu (SBİİYF) İsveçrə İnkişaf və Əməkdaşlıq Agentliyi, Bakı-2016, 39 səh.

38. Hümbətova Suqra, “Azərbaycanın davamlı iqtisadi inkişafında iqtisadi təhlükəsizliyin təmin olunması məsələləri”, Azərbaycanın vergi jurnalı, No.1, 2012, s.143-156.

39. Hüseynova.X.M., Quliyev.M.Y., (2016) “Qlobal Rəqabətlilik” (dərs vəsaiti) Bakı, “Müəllim”. – 131 səh.

40. Mahmudov C.İ. Biznes: əsasları, təşkili və idarə edilməsi. Dərs vəsaiti. Naxçıvan, “İdeya”, 2011, 272 s.

41. Mehdiyeva Nüşabə, “Azərbaycanda qeyri-neft iqtisadiyyatının inkişaf dinamikasının qiymətləndirilməsi”, İpək yolu jurnalı, No.1, 2019, s.39-46.

42. Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə bütün strateji yol xəritələri (https://static.president.az/pdf/38542.pdf).

43. Sençaqov.V.K, (2002), İqtisadi təhlükəsizlik: Geosiyasət, qloballaşma, özünüqoruma və inkişaf (4-cü kitab), A.Ş.Şəkərəliyevin rəhbərliyi ilə "Gömrük işinin təşkili" kafedrasının əməkdaşları tərəfindən rus dilindən tərcümə/A.Ş.Şəkərəliyev, Bakı, "İqtisadi Universiteti", 157 səh.

44. Süleymanov.Q.S., Səmədova.T.P., "Sənaye müəssisələrində rəqabət münasibətlərinin qiymətləndirilməsi metodologiyası", Azərbaycan Universitetinin İpək Yolu jurnalı, No.2, 2017, s.141-149.

45. Şəkərəliyev.A.Ş., (2009) Dövlətin iqtisadi siyasəti: Reallıqlar və Perspektivlər Bakı, "İqtisad Universiteti".- 415 səh.

46. Şəkərəliyev.A.Ş., Şəkərəliyev.Q.A., (2016) Azərbaycan iqtisadiyyatı: Reallıqlar və Perspektivlər, Bakı, "Turxan". – 538 səh.

47. Yusifov Ceyhun, "İqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi Azərbaycan Respublikası iqtisadi təhlükəsizliyinin təmin edilməsi amili kimi", Azərbaycanın vergi xəbərləri, No.12, 2011, s.121-130.

**Türk dilində**

1. A.Altay., V.Pazarlıoğlu., "Uluslar arası rekabet gücünde beşeri sermaye: ekonometrik yaklaşım", Selçuk Üniversitesi Karaman İktisadi Ve İdari Bilimler Fakültesi dergisi, No.12, 2007, s.96-108.

2. A.Karaaslan., G.Tuncer., "Uluslararası Rekabet Gücünün Artırılmasında Temel Devlet Politikaları", DumluPınar Üniversitesi Sosyal Bilimler Dergisi, No.26, 2010, s.23-45.

3. C.C.Aktan., İ.Y.Vural., "Rekabet Gücü ve Rekabet Stratejileri", "Türkiye İşveren Sendikaları Konfederasyonu Yayınları", 2004.- 131 səh.

4. Celal Bayar, "Rekabet gücü: Literatür araştırması", Yönetim ve Ekonomi Araştırmaları Dergisi, No.2, 2001, s.21-38.

5. Hasan Gürak. "Küreselleşme nereye götürüyor? Doğrudan yabançı yatırımlar, verimlilik ve gelir dağılımı", Verimlilik Dergisi, 2003.

6. İ.Demir, "Alt Sektörlerde Rekabet Gücü Ölçüm Yöntemleri", Planlama Dergisi, DPT- nin Kuruluşunun 42. Yılı Özel Sayısı, 2002, s.229-234.

7. İhsan A. Karacan. Finans, ekonomi ve politika. İstanbul, Creative Yayıncılık, 1997.

**İngilis dilində**

1. Ijaz Nabi, Manjula Luthria "Building Competitive Firms: Incentives and Capabilities",World Bank Publications, 2002, s.205

2. M. Hakan Yalçınkaya, Coşkun Çılbant, Neslihan Yalçınkaya, İsmet Güneş, “Effects of Globalization on National Competitiveness of Entrepreneurs: Opportunities and Threats”, Journal of US-China Public Administration, 2015, Vol. 12, No. 2, s.134-143.

3. Wysokińska, Z. “Competitiveness and its relationships with productivity and sustainable development”, Fibres & Textiles in Eastern Europe, No.3, 2003, Vol.11, s.11-14.

**Rus dilində**

1. М. Портер. Конкурентная стратегия: методика анализа отраслей и конкурентов. Пер. С англ., М., Альпина Павлишер, 2011, 454 стр.

2. М. Портер. Конкурентное преимущество: как достичь высокого результата и обеспечить его устойчивость . Пер. С англ., М., Альпина Павлишер, 2019, 954 стр.

3. Монтес М.Ф., Попов В.В. «Азиатский вирус» или «Голландский болезнь»? теория и история валютных кризисов в России и других странах. Пер. с анг., М.: Дело, 2000.

**İnternet resursları**

1. https://president.az/

2. https://www.heritage.org/index/

3. http://customs.gov.az/

4. http://www.stat.gov.az/

5. https://www.cbar.az/

6. http://www.hdr.undp.org/

7. https://www.imf.org/en/Publications/SPROLLs/world-economic-outlook-databases#sort=%40imfdate%20descending

8. https://www.worldbank.org/en/home

9. https://www.weforum.org/

10. http://iqtisadiislahat.org/

11. https://kof.ethz.ch/en/forecasts-and-indicators/indicators/kof-globalisation-index.html

# Əlavələr

**Əlavə 1.**

**Cədvəl 2: 2019-cu il "Qlobal Rəqabətqabiliyyətlilik İndeksi 4.0" hesabatı üzrə ölkələrin sıralaması**

| Sıra | Ölkələr | Xal | 2018-ci illə Müqayisə | | Ölkələrin pillələr üzrə yeri | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Sıra | Xal | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 |
| 1 | Sinqapur | 84.8 | +1 | +1.3 | 2 | 1 | 5 | 38 | 1 | 19 | 2 | 1 | 2 | 27 | 14 | 13 |
| 30 | İtaliya | 71.5 | +1 | +0.8 | 48 | 18 | 53 | 63 | 6 | 42 | 31 | 90 | 48 | 12 | 43 | 22 |
| 43 | Rusiya | 66.7 | - | +1.1 | 74 | 50 | 22 | 43 | 97 | 54 | 87 | 62 | 95 | 6 | 53 | 32 |
| 50 | İndoneziya | 64.6 | -5 | -0.3 | 51 | 72 | 72 | 54 | 96 | 65 | 49 | 85 | 58 | 7 | 29 | 74 |
| 58 | Azərbaycan | 62.7 | +11 | +2.7 | 49 | 38 | 73 | 103 | 98 | 48 | 23 | 21 | 96 | 67 | 23 | 68 |
| 60 | CAR | 62.4 | +7 | +1.7 | 55 | 69 | 89 | 59 | 118 | 90 | 69 | 63 | 19 | 35 | 60 | 46 |
| 61 | Türkiyə | 62.1 | - | +0.5 | 71 | 49 | 69 | 129 | 42 | 78 | 78 | 109 | 68 | 13 | 75 | 49 |
| 68 | Hindistan | 61.4 | -10 | -0.7 | 69 | 70 | 120 | 43 | 110 | 107 | 101 | 103 | 40 | 3 | 69 | 35 |
| 69 | Ermənistan | 61.3 | +1 | +1.4 | 62 | 60 | 59 | 64 | 68 | 61 | 44 | 32 | 69 | 118 | 57 | 62 |
| 71 | Braziliya | 60.9 | +1 | +1.4 | 59 | 70 | 120 | 43 | 110 | 107 | 101 | 103 | 40 | 3 | 69 | 35 |
| 74 | Gürcüstan | 60.6 | -8 | -0.3 | 43 | 73 | 55 | 84 | 87 | 46 | 48 | 37 | 91 | 104 | 58 | 91 |
| 83 | Argentina | 57.0 | -2 | - | 88 | 68 | 68 | 139 | 53 | 31 | 120 | 117 | 105 | 34 | 80 | 56 |

**Mənbə:** "Qlobal Rəqabətqabiliyyətlilik Hesabatı 2019" əsasında müəllif tərəfindən hazırlanmışdır.

## Cədvəllərin siyahısı

**Cədvəl 1:** “Rəqabətqabiliyyətlilik” anlayışına verilən müxtəlif tərif və izahlar..........................14

**Cədvəl 2:** 2019-cu il “Qlobal Rəqabətqabiliyyətlilik İndeksi 4.0” hesabatı üzrə ölkələrin sıralaması..........................................................................................................................21

**Cədvəl 3:** Azərbaycanın 2015-2019-cu illər üçün olan ÜDM-i haqqında məlumat ....... **Ошибка! Закладка не определена.**1

**Cədvəl 4:** MDB ölkələrinin 2015-2019-cu illər üçün olan ÜDM statistikası (milyon dollarla)...32

**Cədvəl 5:** Azərbaycanın tədiyə balansı (mlyn dollar).......**Ошибка! Закладка не определена.**7

**Cədvəl 6:** Azərbaycanın xarici ticarət dövriyyəsi (milyon ABŞ dollar).....................................38

**Cədvəl 7:** 2019-cu ildə Azərbaycanın xarici ticarət dövriyyəsinin göstəriciləri (milyon ABŞ dolları)..........................................................................................................................39

**Cədvəl 8:** İqtisadiyyata yönəldilən investisiyalar .......................................................39

**Cədvəl 9:** Xarici investisiyalar (mlyn. ABŞ dolları)..................................................................40

**Cədvəl 10:** İqtisadiyyata kredit qoyuluşları (milyon manat)......................................................41

**Cədvəl 11:** MDB ölkələrinin 2019-cu il “Qlobal Rəqabətqabiliyyətlilik İndeksi 4.0” üzrə sıralaması..........................................................................................................................48

**Cədvəl 12:** Azərbaycanın “Doing Business” hesabatındakı son 5 ilə olan statistikası..........................................................................................................................49

**Cədvəl 13:** Təsərrüfat kateqoriyaları üzrə kənd təsərrüfatının ümumi məhsulu (faktiki qiymətlərlə, mlyn. manat)..........................................................................................65

**Cədvəl 14:** Sənaye məhsulunun (işlərin, xidmətlərin) dəyəri (faktiki qiymətlərlə, milyon manat)..........................................................................................................................67

**Cədvəl 15:** Ölkəyə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin və xarici ölkələrə gedən Azərbaycan Respublikası vətəndaşlarının sayı (min nəfər)..........................................................................................................................69

**Cədvəl 16:** İqtisadi fəaliyyət və mülkiyyət növləri üzrə fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı..........................................................................................71

**Cədvəl 17:** “İnklüziv İnkişaf İndeksi” hesabatındakı alt göstəricilər üzrə Azərbaycanın 2017 və 2018-ci il nəticələri..........................................................................................73

**Cədvəl 18:** “İnklüziv İnkişaf İndeksi” 2017 və 2018-ci il hesabatlarında inkişaf etməkdə olan ölkələrin sıralaması..........................................................................................75

## Şəkillərin siyahısı

Элементы списка иллюстраций не найдены.

# Qrafiklərin siyahısı

**Qrafik1:** 2015-2019-cu illər üçün Azərbaycanda inflyasiya dərəcəsi.........................................35

**Qrafik 2:** 2015-2019-cu illər ərzində Azərbaycanda işsizlik səviyyəsi.......................................36